# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

№ 2 (34)

Naxçıvan – 2022


*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*
*Heydər Əliyev*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

*Rəsmi sayt:* *www.supremecourt.nakhchivan.az*


**Buraxılış üçün məsul şəxs:**
*Q.V.Əliyev*

**Redaktor:**
*Ə.K.Allahverdiyev*

**Redaksiya heyəti:**
*Ə.M.Xıdırov*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*C.G.Bayramova*
*G.Ə.Qurbanova*
*Y.F.Xəlilov*

**Məsul katib:**
*V.R.Qaybalıyev*



**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-75*
*Faks: 550-12-77*


## M Ü N D Ə R İ C A T

### Yeni sənədlər, normativ aktlar


*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*......**7**

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında ƏSASNAMƏ*......**8**

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*......**11**

*Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*......**12**

*"Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*......**14**

*"Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*...... **15**

*Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri*

*haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*..........................................................................................**16**

*“Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*.............................**21**

*Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*.....................................................................**22**

*“Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında” Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*........................**29**

*Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*......................................................................**29**

*Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (Çıxarış)*.................................................................**30**

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (Çıxarış)*..........................................................................................**31**

*Apellyasiya məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri sədrlərinin, sədrləri müavinlərinin və hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)*..........................................................................................**32**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

*Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2021-ci ilin yekunları üzrə statistik məlumatların təhlili* ...................................... **33**

### Kommersiya kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2021-ci ilin yekunları üzrə statistik məlumatların təhlili* ........................................................................ **41**

### İnzibati kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2021-ci ilin yekunları üzrə statistik məlumatların təhlili* ........................................................................**43**

### Cinayət kollegiyasından

*Cinayət kollegiyasının 2021-ci ilin yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar* ..................................... **45**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı* ..........................................................................................**52**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Cinayət işləri üzrə ekspertizanın təyin edilməsi və aparılmasını tənzimləyən qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsi: nəzari və təcrübi problemlər*.......................................................................**64**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2022-ci ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında*.......................................................................................... **75**

## Azad tribuna

*Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqların tənzimlənməsi*.................................................................................. **93**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2022-ci ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi*...................................................................................**109**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin "Yeni sənədlər, normativ aktlar" sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 350-yə yaxın qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilsin.

2. "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra – səlahiyyətli nümayəndə) rəhbərlik edir;

3.2. səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

4. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirsinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 22 dekabr 2022-ci il

§

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında**
**ƏSASNAMƏ**

Azərbaycan Respublikası Prezidentinin
2022-ci il 22 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi (bundan sonra – səlahiyyətli nümayəndəlik) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra – müvafiq ərazi) bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir.

1.2. Səlahiyyətli nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Səlahiyyətli nümayəndəlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Səlahiyyətli nümayəndəlik Naxçıvan şəhərində yerləşir.

## 2. Səlahiyyətli nümayəndəliyin fəaliyyət istiqamətləri

2.1. Səlahiyyətli nümayəndəliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının (bundan sonra – yerli icra hakimiyyəti orqanları) fəaliyyətini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.2. müvafiq ərazinin davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək;

2.1.3. müvafiq ərazidə ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə mütəmadi hesabatlar təqdim etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Səlahiyyətli nümayəndəliyin vəzifələri və hüquqları**

3.1. Səlahiyyətli nümayəndəliyin vəzifələri aşağıdakılardır:

3.1.1. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.2. yerli icra hakimiyyəti orqanları arasında, habelə yerli icra hakimiyyəti orqanları ilə digər dövlət orqanları (qurumları) arasında əlaqələndirməni təmin etmək;

3.1.3. müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılması üçün dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək;

3.1.4. aidiyyəti dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının təklifləri əsasında müvafiq ərazinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;

3.1.5. Azərbaycan Respublikası Prezidentinin aktlarının və tapşırıqlarının müvafiq ərazidə dövlət orqanları (qurumları) tərəfindən yerinə yetirilməsi vəziyyətini qiymətləndirmək və bununla bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

3.1.6. yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq ərazinin inkişaf meyillərinin müəyyənləşdirilməsi və proqnozlaşdırılması, sosial əhəmiyyətli sifarişlərin öyrənilməsi işinin təşkilinə nəzarət etmək;

3.1.7. müvafiq ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış layihələrə dair rəy vermək;

3.1.8. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini təhlil etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

3.1.9. müvafiq ərazidə ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar mütəmadi təhlillər aparmaq və Azərbaycan Respublikasının Prezidentinə hesabatlar təqdim etmək;

3.1.10. yerli icra hakimiyyəti orqanlarının kadr potensialının artırılması ilə əlaqədar təkliflər vermək;

3.1.11. müvafiq ərazidə əhalinin problemlərini öyrənmək və onların həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

3.1.12. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin həvalə etdiyi digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün səlahiyyətli nümayəndəliyin hüquqları aşağıdakılardır:

3.2.1. bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçılarına tapşırıqlar vermək;

3.2.2. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçısının müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək;

3.2.3. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətinin başçısı müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icra hakimiyyəti başçısının müəyyən etdiyi müavinlərindən biri tərəfindən həyata keçirilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək;

3.2.4. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçılarının fəaliyyətləri haqqında hesabat vermələri üçün müddətləri müəyyənləşdirmək;

3.2.5. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçıları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təkliflər vermək;

3.2.6. müvafiq ərazi ilə bağlı normativ hüquqi aktların layihələrinə dair təkliflər vermək;

3.2.7. təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları aidiyyəti üzrə təqdim etmək;

3.2.8. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək;

3.2.10. qanunvericilikdə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

## 4. Səlahiyyətli nümayəndəliyin fəaliyyətinin təşkili

4.1. Səlahiyyətli nümayəndəliyin strukturunu və ştat vahidlərinin sayını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

4.2. Səlahiyyətli nümayəndəliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra – səlahiyyətli nümayəndə) rəhbərlik edir. Səlahiyyətli nümayəndə səlahiyyətli nümayəndəliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.3. Səlahiyyətli nümayəndənin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Səlahiyyətli nümayəndənin müavinləri səlahiyyətli nümayəndənin onlara həvalə etdiyi vəzifələri yerinə yetirirlər və buna görə şəxsən məsuliyyət daşıyırlar.

4.4. Səlahiyyətli nümayəndə, onun müavinləri, səlahiyyətli nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşlarıdır.

4.5. Səlahiyyətli nümayəndəliyin əməkdaşlarının işə qəbulunu və işdən azad edilməsini, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiqini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri həyata keçirir.

§

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 22 dekabr 2022-ci il

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203) aşağıdakı dəyişikliklər edilsin:

1. 49-cu maddə üzrə:

1.1. adına "minməsi" sözündən sonra "və qüvvədən düşməsi" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

“5. Bu Məcəllənin 74-cü maddəsinin 1-1-ci hissəsində nəzərdə tutulan hallarda elektron informasiya sistemində qüvvədə olan əmək müqaviləsi bildirişi əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın qərarı ilə qüvvədən düşmüş hesab edilir.”.

2. 74-cü maddə üzrə:

2.1. 1-ci hissənin e) bəndinə “vəfat etdikdə” sözlərindən sonra “, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilsin:

“1-1. Aşağıdakı hallar fiziki şəxs olan işəgötürənlə bağlanmış əmək müqaviləsinə işçinin əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqana müraciəti əsasında xitam verilmiş hesab edilməsi üçün əsasdır:

1-1.1. fiziki şəxs olan işəgötürən vəfat etdikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;

1-1.2. fiziki şəxs olan işəgötürən barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçildikdə, yaxud o, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə azadlıqdan məhrum edildikdə;

1-1.3. fiziki şəxs olan işəgötürən məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxs hesab edildikdə;

1-1.4. Azərbaycan Respublikasının Mülki Prosessual və Azərbaycan Respublikasının Cinayət Prosessual məcəllələrinə uyğun olaraq fiziki şəxs olan işəgötürənin axtarışı elan olunduqda;

1-1.5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq əcnəbi və vətəndaşlığı olmayan işəgötürən barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edildikdə.

1-2. Bu Məcəllənin 74-cü maddəsinin 1-1-ci hissəsinə uyğun olaraq, əmək müqaviləsinə xitam verilmiş hesab edilməsi əmək münasibətlərinin iştirakçılarını, habelə vəfat etmiş fiziki şəxs olan işəgötürənin vərəsələrini (miras payı həddində) əmək qanunvericiliyi ilə müəyyən edilmiş öhdəliklərin icrasından azad etmir.”.

3. 87-ci maddəyə aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

“8. Bu Məcəllənin 49-cu maddəsinin 5-ci hissəsinə uyğun olaraq, əmək müqaviləsi bildirişi qüvvədən düşmüş hesab edildikdən sonra əmək

qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan tərəfindən işçinin müraciəti əsasında əmək kitabçasında müvafiq qeydlər aparılır.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 13 may 2022-ci il

§

**“Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 529-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3, maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844; 2020, № 8, maddə 1037, № 11, maddə 1348) ikinci hissəsinin yeddinci abzasının “b” bəndinə “altıncı hissələrində,” sözlərindən sonra “49-cu maddəsinin 5-ci hissəsində, 74-cü

maddəsinin 1-1-ci hissəsinin birinci abzasında, 87-ci maddəsinin 8-ci hissəsində, ” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 9 iyun 2022-ci il

§

**Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715) aşağıdakı dəyişikliklər edilsin:

1. 38.3-cü maddədə “aşağıdakı vaxtadək dayandırılır:” sözləri “həmin qurumun şikayət üzrə qəbul etdiyi qərar (verdiyi yazılı cavab) şikayətçiyə təqdim edilənədək dayandırılır.” sözləri ilə əvəz edilsin.

2. 38.3.1-ci və 38.3.2-ci maddələr ləğv edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 27 may 2022-ci il

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun icrası ilə əlaqədar qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, №11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (l kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci maddənin birinci və ikinci cümlələrinə "XVIII-I," rəqəmlərindən sonra "XVIII-II," rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda XVIII-II fəsil əlavə edilsin:

### "XVIII-II FƏSİL "AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ HÜQUQUNDAN İSTİFADƏ ETMƏSİ QAYDASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA MÜVAFİQ OLARAQ QƏBUL EDİLMİŞ MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ QƏRARLARININ MÜBAHİSƏLƏNDİRİLMƏSİNƏ DAİR İDDİA ÜZRƏ İCRAAT

Maddə 130-2. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq qəbul edilmiş Mərkəzi Seçki Komissiyasının qərarlarının mübahisələndirilməsinə dair iddia üzrə icraatın xüsusiyyətləri

130-2.1. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan

Respublikasının Qanununa müvafiq olaraq Mərkəzi Seçki Komissiyasının aşağıdakı qərarlarının mübahisələndirilməsinə dair iddia ərizəsi apellyasiya instansiyası məhkəməsinə verilə bilər:

130-2.1.1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı yaradılmış təşəbbüs qrupunun və təklif olunan qanun (qərar) layihəsinin qeydiyyata alınmasından imtina barədə;

130-2.1.2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı yaradılmış təşəbbüs qrupunun "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməməsi barədə.

130-2.2. Bu Məcəllənin 130-2.1-ci maddəsində nəzərdə tutulmuş Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia ərizəsi həmin qərarın surəti Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı yaradılmış təşəbbüs qrupunun sədrinə təqdim edildiyi gündən 10 gün müddətində verilə bilər.

130-2.3. İddia ərizəsinə məhkəmə tərəfindən 15 gün müddətində baxılmalı və onun mahiyyəti üzrə qərar qəbul edilməlidir.

130-2.4. Məhkəmə tərəfindən iddia ərizəsinə ərizəçinin və Mərkəzi Seçki Komissiyasının nümayəndəsinin iştirakı ilə baxılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş göstərilən şəxslərin məhkəməyə gəlməməsi işə baxılmasına və onun həll edilməsinə mane olmur.

130-2.5. İş üzrə apellyasiya instansiyası məhkəməsinin qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

130-2.6. Ali Məhkəmə şikayətə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir.".

Maddə 2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273,

1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89; Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 487-VIQD nömrəli və 26 aprel tarixli 517-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 179-1-ci maddə əlavə edilsin:

"Maddə 179-1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında qanunvericiliyin pozulması

179-1.1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün dövlət orqanlarının, bələdiyyə qurumlarının və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirak etməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

179-1.2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı imza toplanması prosesinin və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan digər tədbirlərin maliyyələşdirilməsi üçün xarici

dövlətlərin, beynəlxalq təşkilatların, xarici hüquqi şəxslərin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, həmçinin təsisçisi xarici dövlət, beynəlxalq təşkilat, xarici hüquqi şəxs, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan hüquqi şəxslərin vəsaitindən istifadə olunmasına görə –

fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir .".

Maddə 3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 696, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019,

№ 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD və 519-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 161-1-ci maddə əlavə edilsin:

"Maddə 161-1. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün imzaların toplanması qaydasının pozulması

Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün imza toplanması prosesində vətəndaşları imza qoymağa məcburetmə və ya imza qoymağa maneolma, yaxud bunlara görə onları hər hansı formada mükafatlandırma –

min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz saatadək ictimai işlər ilə cəzalandırılır.".

Maddə 4. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1248; 2017, № 6, maddə 1032) aşağıdakı məzmunda 5.4-1-ci maddə əlavə edilsin:

"5.4-1. Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi ilə bağlı yaradılmış təşəbbüs qrupunun və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin qeydiyyata alınması məqsədilə ərizələrin verilməsi və bu ərizələrə baxılması qaydası "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 22 iyun 2022-ci il

§

## "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 179-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 21 iyul 2022-ci il

§

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 12-ci, 14-cü və 17-ci bəndlərini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr

1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711, № 11, maddə 1206, № 12, maddə 1335; Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 525-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 331.4-cü maddənin birinci cümləsində "bədən qüsuruna" sözləri "fiziki çatışmazlıq" sözləri ilə əvəz edilsin;

1.2. 1183-cü maddə üzrə:

1.2.1. adında "Lal-kar və kor" sözləri "Nitq-eşitmə və görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

1.2.2. 1183.1-ci maddədə "lal-kardırsa və ya lal-kar" sözləri "nitq-eşitmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

1.2.3. 1183.2-ci maddədə "Kor" sözü "Görmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

1.2.4. 1183.3-cü maddədə "lal-kar-kordursa və ya lal-kar-kor" sözləri "nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin.

Maddə 2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; Azərbaycan

Respublikasının 2022-ci il 5 may tarixli 525-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 36.6-cı maddədə "Şikəstetmə və ya səhhəti sair şəkildə zədələmə" sözləri "Xəsarət yetirmə və ya sağlamlığın başqa şəkildə pozulması" sözləri ilə əvəz edilsin;

2.2. 104.4.1-ci maddədə "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin;

2.3. 148.1-ci maddədə "şikəstetmə və ya səhhəti zədələmə" sözləri "xəsarət yetirmə və ya sağlamlığı başqa şəkildə pozma" sözləri ilə əvəz edilsin;

2.4. 317.2-ci maddədə "qüsurlarına" sözü "pozuntularına" sözü ilə əvəz edilsin;

2.5. 318.2-ci maddədə "qüsurun" sözü "pozuntunun" sözü ilə əvəz edilsin;

2.6. 319-cu maddənin birinci cümləsində "qüsuru" sözü "pozuntusu" sözü ilə əvəz edilsin.

Maddə 3. Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, №12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11; Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 525-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 12.0.4-cü maddədə "kəmağıllıq" sözü "əqli gerilik" sözləri ilə əvəz edilsin;

3.2. 32.2.1-ci maddədə "şikəstlik" sözü "xəsarət" sözü ilə əvəz edilsin;

3.3. 81.1-ci maddədə "şikəst olan" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

3.4. 83.1-ci maddədə "şikəst olduqda" sözləri "əlilliyi müəyyən edildikdə" sözləri ilə əvəz edilsin;

3.5. 182.1-ci maddədə "kəmağıllılıq" sözü "əqli gerilik" sözləri ilə əvəz edilsin.

Maddə 4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697,700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD nömrəli və 519-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 21.1-ci maddədə “kəmağıllıq” sözü “əqli gerilik” sözləri ilə əvəz edilsin;

4.2. 243.2.1-ci maddədə “qüsurlarından” sözü “pozuntularından” sözü ilə əvəz edilsin.

Maddə 5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 509-VIQD nömrəli və 26 aprel tarixli 518-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 51.5-ci maddənin üçüncü cümləsində “qüsurlar” sözü “pozuntular” sözü ilə əvəz edilsin;

5.2. 92.3.2-ci maddəyə “məhdud” sözündən əvvəl “tam” sözü əlavə edilsin, həmin maddədə “qüsurlar” sözü “pozuntular” sözü ilə, “kəmağıllığa” sözü “əqli geriliyə” sözləri ilə, “qüsurlara” sözü “pozuntulara” sözü ilə əvəz edilsin;

5.3. 94.1-ci maddənin ikinci cümləsində “qüsurları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

5.4. 95.2.1-ci maddədə “qüsurlarına” sözü “pozuntularına” sözü ilə əvəz edilsin;

5.5. 100.3-cü maddənin birinci cümləsində, 140.0.2-ci və 140.0.3-cü maddələrdə “kəmağıllıq” sözü “əqli gerilik” sözləri ilə əvəz edilsin;

5.6. 161.1.1.6-cı maddədə və 230.7-ci maddənin ikinci cümləsində “qüsurları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

5.7. 509.4-cü maddənin birinci cümləsində “qüsurlardan” sözü “pozuntulardan” sözü ilə əvəz edilsin.

Maddə 6. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225; 2019, № 4, maddələr 570, 579, № 5, maddələr 796, 812, № 11, maddə 1686; 2020, № 7, maddə 832, № 8, maddə 1009; 2021, № 8, maddə 894) 10.2.12-ci maddəsində “qüsurlardan” sözü “pozuntulardan” sözü ilə əvəz edilsin.

Maddə 7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404,

№ 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, №4, maddə 293; Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 517-VIQD nömrəli və 27 may tarixli 540-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 15-ci maddədə "kəmağıllıq" sözü "əqli gerilik" sözləri ilə əvəz edilsin;

7.2. 66.1-ci maddənin birinci cümləsində "lal, kar, kor" sözləri "nitq, eşitmə, görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə, "qüsurlarına" sözü "pozuntularına" sözü ilə əvəz edilsin;

7.3. 68.0.1-ci maddədə "qüsurlarına" sözü "pozuntularına" sözü ilə əvəz edilsin;

7.4. 342.1.8-ci maddədə "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 8 iyul 2022-ci il

§

**"Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

"Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" 2007-ci il noyabrın 23-də Haaqa şəhərində imzalanmış Konvensiya Azərbaycan Respublikasının müvafiq bəyanatları və qeyd-şərtləri ilə təsdiq edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 30 sentyabr 2022-ci il

§

**Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 48; 2003, № 8, maddə 441; 2004, № 8, maddə 613; 2005, № 3, maddə 172; 2009, № 6, maddə 419; 2021, № 3, maddə 223, № 7, maddə 732) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

"ödənişli məzuniyyət dövrləri, o cümlədən uşağa qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyət müddəti;";

2. aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

“müddətli həqiqi hərbi xidmətə çağırılmazdan əvvəl dövlət qulluğu vəzifəsində qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra bilavasitə yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət qulluqçularının müddətli həqiqi hərbi xidmətdə olduqları müddət .”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 22 dekabr 2022-ci il

§

**Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

(ÇIXARIŞ)

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

...
Xıdırov Əhliman Mehman oğlu,
...
...
3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
Bakı şəhəri, 23 dekabr 2022-ci il

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Hakimlik səlahiyyətinin müddəti 2023-cü il yanvarın 2-də başa çatan Mirzəyev İlqar Məhərrəm oğlu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun Keçid müddəalarının 7-ci hissəsinin dördüncü abzasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Bəylərli Səxavət Şahhüseyn oğlu,

Novruzov Səxavət Hüseyn oğlu.

3. Bu Qərarın 1-ci hissəsi 2023-cü il yanvarın 2-dən, 2-ci hissəsi imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
Bakı şəhəri, 23 dekabr 2022-ci il

§

**Apellyasiya məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri sədrlərinin, sədrləri müavinlərinin və hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (ÇIXARIŞ)**

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

...

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və həmin Qanunun Keçid müddəalarının 7-ci hissəsinin dördüncü abzasına uyğun olaraq,

2.1. Hüseyn Məmməd oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

…

3. Bu Sərəncamın 1.1-ci, 2.1-ci və 2.2-ci bəndləri 2023-cü il yanvarın 2-dən, digər bəndləri imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 28 dekabr 2022-ci il



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2022-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2022-ci ilin birinci yarısında 1301 mülki işə baxılmaqla nəticə verilmişdir. 2021-ci ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 1280 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında 1,64% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 62 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 62 mülki işdən 57 işə apellyasiya qaydasında baxılaraq 26 qətnamə və 10 qərardad dəyişdirilmədən saxlanılmış, 5 qətnamə dəyişdirilmiş, 15 qətnamə və 1 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 5 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 9 iş
- əmək mübahisələri – 2 iş
- mənzil mübahisələri – 6 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr – 4 iş
- torpaq mübahisələri üzrə – 3 iş
- müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması üzrə mübahisələr – 3 iş

- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 18 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 3 iş
- şərəf və ləyaqətin müdafiəsi üzrə mübahisələr – 1 iş
- sair mülki işlər – 8 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2022-ci ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 38% azalmışdır. Belə ki, 2021-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 100 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında yuxarı olmuşdur. Belə ki, 2022-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 1301 qətnamə və qərardaddan 1,61%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2021-ci ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1280 qətnamə və qərardaddan 2,34%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2021-ci ilin birinci yarısında 97,66%, 2022-ci ilin birinci yarısında isə 98,39% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2022-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 36,84%-nin ləğv edilməsinə və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2021 və 2022-ci illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2021-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **40** | **8** | **12** | **2** | **5** | **1** | **4** | **2** | **6** |
| **Babək** | **12** | **1** | **5** | **1** | | **1** | **1** | | **3** |
| **Şərur** | **26** | **7** | **9** | **1** | **3** | | **1** | **2** | **3** |
| **Şahbuz** | **7** | | **3** | **1** | | | **1** | | **2** |
| **Kəngərli** | **5** | **2** | **2** | | | | | | **1** |
| **Culfa** | **6** | **1** | **3** | | **1** | | **1** | | |
| **Ordubad** | **3** | | **1** | | | **1** | | | **1** |
| **Sədərək** | **1** | | | **1** | | | | | |
| **YEKUN** | **100** | **19** | **35** | **6** | **9** | **3** | **8** | **4** | **16** |

2022-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **22** | **2** | **13** | | **3** | | **2** | | **2** |
| **Babək** | **6** | **1** | **1** | **2** | **1** | | | | **1** |
| **Şərur** | **16** | **1** | **4** | **1** | **1** | **2** | **2** | | **5** |
| **Şahbuz** | **8** | | **4** | **1** | | | **1** | **1** | **1** |
| **Kəngərli** | **1** | | **1** | | | | | | |
| **Culfa** | **5** | **1** | **3** | | **1** | | | | |
| **Ordubad** | **4** | | | **1** | **1** | **1** | | | **1** |
| **YEKUN** | **62** | **5** | **26** | **5** | **7** | **3** | **5** | **1** | **10** |

Apellyasiya qaydasında 2022-ci ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Kəngərli Rayon Məhkəməsi malikdir. Belə ki, 2022-ci ilin birinci yarısında *Ordubad Rayon Məhkəməsində* çıxarılan 90 qərardan 3 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 3,33%-i ləğv edildiyinə və ya dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 96,67% olduğu halda, Kəngərli Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə *Kəngərli Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 98 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır.

*Sədərək Rayon Məhkəməsi* tərəfindən 2022-ci ilin birinci yarısında çıxarılan 50 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 100% təşkil etmişdir.

*Culfa Rayon Məhkəməsi* tərəfindən 2022-ci ilin birinci yarısında çıxarılan 85 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,18%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,82% təşkil etmişdir.

*Naxçıvan Şəhər Məhkəməsi* tərəfindən 2022-ci ilin birinci yarısında çıxarılan 407 qətnamə və qərardaddan 5 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,23%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,77% təşkil etmişdir.

*Babək Rayon Məhkəməsi* tərəfindən 2022-ci ilin birinci yarısında çıxarılan 208 qətnamə və qərardaddan 3 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,44%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,56% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2022-ci ilin birinci yarısında çıxarılan 271 qətnamə və qərardaddan 6 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,21%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,79% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2022-ci ilin birinci yarısında çıxarılan 92 qətnamə və qərardaddan 2 qətnamə və 1 qəraradad, yəni həmin dövr ərzində çıxarılan qərarların 3,26%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 96,74% təşkil etmişdir.

2021-ci ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Kəngərli Rayon Məhkəməsi*– 100% (81 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 98,77% (81 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,23%-i ləğv edilmişdir);
- *Babək Rayon Məhkəməsi* – 98,45% (194 qətnamə və qərardaddan 3 qətnamə, yəni 1,55%-i ləğv edilmişdir);
- *Culfa Rayon Məhkəməsi* – 98% (100 qətnamə və qərardaddan 2 qətnamə, yəni 2%-i dəyişdirilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 97,76% (312 qətnamə və qərardaddan 5 qətnamə və 2 qərardad, yəni 2,24%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 97,33% (75 qətnamə və qərardaddan 2 qətnamə, yəni 2,67%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Sədərək Rayon Məhkəməsi* – 97% (29 qətnamə və qərardaddan 1 qətnamə, yəni 3,45%-i dəyişdirilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 96,57% (408 qətnamə və qərardaddan 12 qətnamə və 2 qərardad, yəni 3,43%-i ləğv edilmişdir).

Qətnamə və qərardadların sabitliyi üzrə 2021 və 2022-ci illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Şahbuz və Ordubad rayon məhkəmələrinin sabitlik göstəricisi 2021-ci ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Naxçıvan şəhər, Babək, Culfa, Şərur və Sədərək rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi yüksəlmiş, Kəngərli Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə dəyişməmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmələrin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2021-ci ilin birinci yarısında olduğu kimi 2022-ci ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2021-ci ilin birinci yarısında 408 mülki işə, 2022-ci ilin birinci yarısında isə 407 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 271 iş (2021-ci ilin birinci yarısında 312 işə baxılmışdır);

- *Babək Rayon Məhkəməsi* – 208 iş (2021-ci ilin birinci yarısında 194 işə baxılmışdır);
- *Kəngərli Rayon Məhkəməsi* – 98 iş (2021-ci ilin birinci yarısında 81 işə baxılmışdır);
- *Şahbuz Rayon Məhkəməsi* – 92 iş (2021-ci ilin birinci yarısında 75 işə baxılmışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 90 iş (2021-ci ilin birinci yarısında 81 işə baxılmışdır);
- *Culfa Rayon Məhkəməsi* – 85 iş (2021-ci ilin birinci yarısında 100 işə baxılmışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 50 iş (2021-ci ilin birinci yarısında 29 işə baxılmışdır).

Göründüyü kimi 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrində mülki mühakimə icraatı üzrə iş yükü artmışdır.

*Məhkəmələr üzrə "nikahın ləğvi" tələbinə dair işlər üzrə isə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 71 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 90 mülki iş, ümumilikdə 161 mülki iş icraata daxil olmuşdur. 70 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 22 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 19 iş üzrə icraata xitam verilmişdir. 19 mülki iş üzrə ərizə geri qaytarılmış, 50 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 42 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 75 mülki iş, ümumilikdə 117 mülki iş icraata daxil olmuşdur. 38 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 6 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 3 iş üzrə icraata xitam verilmişdir. 12 mülki iş üzrə ərizə geri qaytarılmış, 61 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 31 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 51 mülki iş, ümumilikdə 82 mülki iş icraata daxil olmuşdur. 31 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 5 iş üzrə icraata xitam verilmişdir. 4 mülki iş üzrə ərizə geri qaytarılmış, 42 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 27 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 23 mülki iş, ümumilikdə 50 mülki iş icraata daxil olmuşdur. 26 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 4 iş üzrə icraata xitam verilmişdir. 3 mülki iş üzrə ərizə geri qaytarılmış, 16 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 13 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 22 mülki iş, ümumilikdə 35 mülki iş icraata daxil olmuşdur. 16 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 1 iş üzrə icraata xitam verilmişdir. 7 mülki iş üzrə ərizə geri qaytarılmış, 10 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 13 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 21 mülki iş, ümumilikdə 34 mülki iş icraata daxil olmuşdur. 18 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 1 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 15 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 12 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 15 mülki iş, ümumilikdə 27 mülki iş icraata daxil olmuşdur. 15 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 2 iş üzrə icraata xitam verilmişdir. 1 iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmiş, 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 8 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2021-ci ildən 2022-ci ilə 11 iş qalıq qalmış, 2022-ci ilin birinci yarısında 5 mülki iş, ümumilikdə 16 mülki iş icraata daxil olmuşdur. 9 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 3 qərardad çıxarılmaqla 3 iş üzrə icraata xitam verilmişdir. 4 iş 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2022-ci ilin birinci yarısında məhkəmələr tərəfindən "nikahın ləğvi" tələbinə dair 37 iş (13,75%) üzrə icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Sədərək Rayon Məhkəməsi - 25% (12 işdən 3 işin icraatına xitam verilib);

- Naxçıvan Şəhər Məhkəməsi - 20,65% (92 işdən 19 işin icraatına xitam verilib);
- Babək Rayon Məhkəməsi – 13,89% (36 işdən 5 işin icraatına xitam verilib);
- Culfa Rayon Məhkəməsi – 12,90% (31 işdən 4 işin icraatına xitam verilib);
- Şahbuz Rayon Məhkəməsi - 11,76% (17 işdən 2 işin icraatına xitam verilib);
- Şərur Rayon Məhkəməsi - 6,82% (44 işdən 3 işin icraatına xitam verilib);
- Kəngərli Rayon Məhkəməsi - 5,56% (18 işdən 1 işin icraatına xitam verilib);

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 12 kassasiya şikayəti verilmiş, həmin şikayətlərə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 7 qətnaməsi dəyişdirilmədən saxlanılmış, 3 qətnaməsi ləğv edilmiş, 2 qətnaməsindən verilmiş kassasiya şikayəti isə qeyri-mümkün sayılmışdır.

Beləliklə, 2022-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 96.47 % təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

***KOMMERSİYA KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2022-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 53 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 3 iş 2021-ci ildən cari ilə qalıq qalmış, 50 iş isə 2022-ci ilin birinci yarısında daxil olmuşdur.

Kommersiya mübahisələri üzrə işlərdən 31 işə mahiyyəti üzrə baxılmaqla 26 iş üzrə iddia təmin edilmiş, 3 işin icraatına xitam verilmiş, 2 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 13 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 2 iş aidiyyatı üzrə başqa məhkəməyə göndərilmiş, 7 kommersiya mübahisələri üzrə iş isə 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 17,78% artmışdır. Belə ki, 2021-ci ilin birinci yarısında həmin məhkəmənin icraatına kommersiya mübahisələrinə dair 45 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2022-ci ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini vergi ödəmələri barədə mübahisələr üzrə (30 iş - yəni 56,60%) və hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələr üzrə (21 iş - yəni 39,62%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında 4 işə apellyasiya qaydasında baxılaraq 1 qətnamə və 3 qərardad dəyişdirilmədən saxlanılmışdır. 2021-ci ilin birinci yarısında kommersiya kollegiyasında 4 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında kollegiyada baxılan kommersiya mübahisələrinə dair işlərin sayı dəyişməmişdir.

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında baxılan kommersiya

mübahisələri üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına 2 kassasiya şikayəti verilmiş, həmin şikayətə baxılaraq 1 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərardad ləğv edilmişdir.

Beləliklə, 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının sabitlik göstəricisi 83.33% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***İNZİBATİ KOLLEGİYADAN***

**Məhkəmə fəaliyyətinə dair 2022-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili**

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 167 inzibati mübahisələrə dair iş olmuş, onlardan 33 iş 2021-ci ildən cari ilə qalıq qalmış, 134 iş isə 2022-ci ilin birinci yarısında daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 97 işə mahiyyəti üzrə baxılmaqla 41 iş üzrə iddia tələbi təmin edilmiş, 4 iş üzrə iddia tələbi rədd edilmiş, 52 işin icraatına xitam verilmişdir. 17 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 1 iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmiş, 52 iş isə 2022-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatına daxil olan inzibati mübahisələrə dair işlərin sayı 20,14% artmışdır. Belə ki, 2021-ci ilin birinci yarısında həmin məhkəmənin icraatına inzibati mübahisələrə dair 139 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2022-ci ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (105 iş - yəni 62,87%) və mübahisələndirmə haqqında (41 iş - yəni 24,55%) iddia tələbinə dair işlər təşkil etmişdir.

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 16 apellyasiya şikayəti verilmiş, apellyasiya şikayətlərinə baxılaraq 11 iş üzrə 7 qərar və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 2 iş üzrə 2 qərar ləğv edilmiş, 3 iş üzrə apellyasiya şikayəti qeyri-mümkün sayılmışdır.

2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına verilmiş apellyasiya şikayətlərinin sayı azalmışdır. Belə ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında 19 apellyasiya şikayətinə baxılmışdır.

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 5 kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə baxılaraq 3 qərar dəyişdirilmədən saxlanılmış, 2 qərar ləğv edilmişdir.

Beləliklə, 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasının sabitlik göstəricisi 88,9% təşkil etmişdir.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

## *CİNAYƏT KOLLEGİYASINDAN*

### Cinayət kollegiyasının 2022-ci ilin birinci yarısı üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2022-ci ilin birinci yarısında 38 nəfərin barəsində 35 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2021-ci ilin birinci yarısında həmin məhkəmələr tərəfindən 36 nəfərin barəsində 27 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2022-ci ilin birinci yarısında baxılmış 35 cinayət işi üzrə 38 nəfərin barəsində ittiham hökmü çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2021 və 2022-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| Cinayətlərin növü | 2021-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı) | 2022-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı) |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | 1 / 1 | 1 / 1 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 4 / 3 | 7 / 7 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | 4 / 4 | - |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 11 / 5 | 9 / 8 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 4 / 3 | 2 / 2 |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | 1 / 1 | 2 / 2 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | - | 2 / 2 |
| Hərbi xidmət əleyhinə olan cinayətlər | 7 / 7 | 15 / 13 |

Cədvəldən göründüyü kimi 2021-ci ilin birinci yarısından fərqli olaraq 2022-ci ilin birinci yarısında hərbi xidmət əleyhinə, həyat və sağlamlıq əleyhinə və ədalət mühakiməsi əleyhinə olan cinayətlər artmış, mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər azalmış, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətlər üzrə göstəricilər isə dəyişməmişdir. 2021-ci ilin birinci yarısından fərqli olaraq 2022-ci ilin birinci yarısında şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərə dair iş daxil olmamış, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərə dair işlər daxil olmuşdur.

2021 və 2022-ci illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| **Təyin olunan əsas cəzaların növləri** | **2021-ci ilin birinci yarısı üzrə məhkumların sayı** | **2022-ci ilin birinci yarısı üzrə məhkumların sayı** |
|---|---|---|
| Cərimə | 4 nəfər | 2 nəfər |
| İslah işləri | 1 nəfər | - |
| Hərbi xidmət üzrə məhdudlaşdırma | 2 nəfər | 1 nəfər |
| Azadlığın məhdudlaşdırılması | - | 1 nəfər |
| İntizam xarakterli hərbi hissədə saxlama | 2 nəfər | - |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 12 nəfər | 8 nəfər |
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 11 nəfər | 26 nəfər |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2021-ci ilin birinci yarısında məhkum edilmiş şəxslərin 34,38%-ni, 2022-ci ilin birinci yarısında isə məhkum olunanların 68,42%-ni təşkil etmiş, yəni 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 34,04% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 34,04% azalmışdır (ümumilikdə götürüldükdə).

2021 və 2022-ci illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2021-ci ilin birinci yarısı üzrə (cinayət işinin və məhkumun sayı)** | **2022-ci ilin birinci yarısı üzrə (cinayət işinin və məhkumun sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 2 / 2 | 7 / 7 |
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 13 / 16 | 18 / 21 |
| Naxçıvan Şəhər Məhkəməsi | 8 / 10 | 2 / 2 |
| Culfa Rayon Məhkəməsi | - | - |
| Şərur Rayon Məhkəməsi | 1 / 5 | 2 / 2 |
| Babək Rayon Məhkəməsi | 1 / 1 | 4 / 4 |
| Kəngərli Rayon Məhkəməsi | 2 / 2 | 2 / 2 |
| Ordubad Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | - |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2021-ci ilin birinci yarısından fərqli olaraq 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Şərur Rayon məhkəməsində və Babək Rayon məhkəməsində baxılmış cinayət işlərinin sayı artmış, Naxçıvan Şəhər Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Kəngərli Rayon Məhkəməsinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər isə dəyişməmişdir. Culfa, Şahbuz, Ordubad və Sədərək rayon məhkəmələrinin icraatına 2021-ci ilin birinci yarısında olduğu kimi 2022-ci ilin birinci yarısında da cinayət işi daxil olmamışdır.

2022-ci ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 10 hökm dəyişdirilmədən saxlanılmış, 3 hökm dəyişdirilmiş, 1 hökm isə ləğv edilmişdir.

Dəyişdirilən və ləğv edilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2022-ci ilin birinci yarısında çıxardıqları bütün hökmlərin 11,43%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 88,57% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2021-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 95,83% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2022-ci ilin birinci yarısında 73 işə (materiala) baxılmışdır. 2021-ci ilin birinci yarısı ilə müqayisədə bu göstərici 9,88% azalmışdır (həmin dövrdə 81 işə baxılmışdır).

2022-ci ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 38 iş (52,05%) telefon danışıqlarına qulaq asma, 26 iş (35,62%) həbs qətimkan tədbirinin seçilməsi, 3 iş (4,11%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 3 iş (4,11%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 1 iş (1,37%) xəstəliyə və ya hökmün icra müddətinin başa çatmasına görə cəza çəkməkdən azad edilmə və 2 iş (2,74%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2021 və 2022-ci illərin birinci yarımilinin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2021-ci ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı)** | **2022-ci ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 12 / 12 | 4 / 4 |
| Naxçıvan Şəhər Məhkəməsi | 29 / 29 | 41 / 41 |
| Şərur Rayon Məhkəməsi | 9 / 9 | 2 / 2 |
| Babək Rayon Məhkəməsi | 3 / 3 | 5 / 5 |
| Culfa Rayon Məhkəməsi | 13 / 13 | 8 / 8 |
| Ordubad Rayon Məhkəməsi | 2 / 2 | 1 / 1 |
| Kəngərli Rayon Məhkəməsi | 12 / 12 | 11 / 11 |
| Şahbuz Rayon Məhkəməsi | 1 / 1 | 1 / 1 |
| Sədərək Rayon Məhkəməsi | - | - |

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2022-ci ilin birinci yarısında 157 nəfərin barəsində 155 inzibati xəta

haqqında işə baxılmışdır. Bunlardan 1 nəfərin barəsində 1 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin sayı 13,14%, inzibati xəta törətmiş şəxslərin sayı isə 13,77% artmışdır (2021-ci ilin birinci yarısında 138 nəfərin barəsində 137 inzibati xəta haqqında işə baxılmışdır).

2022-ci ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 111 nəfərə (70,70%) inzibati həbs, 17 nəfərə (10,83%) inzibati cərimə, 8 nəfərə (5,10%) inzibati xəta törətməkdə alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmentin müsadirəsi, 1 nəfərə (0,64%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 19 nəfərin (12,10%) barəsində 19 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət üzrə 1 qərar dəyişdirilmədən saxlanılmışdır.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2021 və 2022-ci illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2021-ci ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** | **2022-ci ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Sağlamlıq əleyhinə olan inzibati xətalar | 12 nəfər / 12 iş | 9 nəfər / 9 iş |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalar | 5 nəfər / 5 iş | 14 nəfər / 14 iş |
| Əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan inzibati xətalar | 2 nəfər / 2 iş | - |
| Mülkiyyət əleyhinə olan inzibati xətalar | 9 nəfər / 9 iş | 16 nəfər / 15 iş |
| Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar | - | 2 nəfər / 2 iş |
| Gömrük qaydaları əleyhinə olan inzibati xətalar | 3 nəfər / 3 iş | 12 nəfər / 12 iş |
| İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar | 30 nəfər / 30 iş | 18 nəfər / 18 iş |
| İdarəçilik qaydaları əleyhinə olan inzibati | 38 nəfər / 37 iş | 49 nəfər / 48 iş |

| | | |
|---|---|---|
| xətalar | | |
| Hərbi xidmət əleyhinə olan inzibati xətalar | 19 nəfər / 19 iş | 17 nəfər / 17 iş |
| Siyasi, sosial və əmək hüquqları əleyhinə olan izibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | 1 nəfər / 1 iş | - |
| | | |
| Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | 1 nəfər / 1 iş | 1 nəfər / 1 iş |

Göründüyü kimi 2021-ci ilin birinci yarısı ilə müqayisədə 2022-ci ilin birinci yarısında muxtar respublika məhkəmələri tərəfindən baxılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3 dəfə, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 2 dəfə, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 4 dəfə, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 29,73% artmış, sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 25%, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 40%, hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 10,53% azalmış, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayətlərin sayı isə dəyişməmişdir. Ötən yarımildən fərqli olaraq 2022-ci ilin birinci yarısında əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan izibati xətalar haqqında işlər və siyasi, sosial və əmək hüquqları əleyhinə olan izibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət daxil olmamış, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2021 və 2022-ci illərin birinci yarımilinə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| Məhkəmənin adı | 2021-ci ilin birinci yarımili üzrə (iş və şəxslərin sayı) | 2022-ci ilin birinci yarımili üzrə (iş və şəxslərin sayı) |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 22 / 22 | 24 / 24 |
| Naxçıvan Şəhər Məhkəməsi | 50 / 50 | 44 / 44 |
| Şərur Rayon Məhkəməsi | 34 / 34 | 33 / 33 |
| Babək Rayon Məhkəməsi | 12 / 12 | 20 / 20 |
| Culfa Rayon Məhkəməsi | 7 / 8 | 13 / 13 |
| Ordubad Rayon Məhkəməsi | 1 / 1 | 4 / 5 |
| Kəngərli Rayon Məhkəməsi | 4 / 4 | 9 / 9 |
| Şahbuz Rayon Məhkəməsi | 2 / 2 | 1 / 1 |
| Sədərək Rayon Məhkəməsi | 5 / 5 | 7 / 8 |

2022-ci ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalar haqqında işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 10 apellyasiya şikayəti verilmişdir.

Babək Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətinə baxılaraq qərar dəyişdirilmədən saxlanılmış, Naxçıvan Şəhər Məhkəməsini 2 və Culfa Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar dəyişdirilmiş, Naxçıvan Şəhər Məhkəməsini 1, Şərur Rayon Məhkəməsinin 3, Ordubad Rayon Məhkəməsinin 1 və Sədərək Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar ləğv edilmişdir.

Beləliklə, muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2022-ci ilin birinci yarısında inzibati xətalar haqqında işlər üzrə çıxarılan qərarlardan 5,81% ləğv edildiyindən və dəyişdirildiyindən qərarların sabitlik göstəricisi 94,19% təşkil etmişdir.

2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 3 kassasiya şikayəti verilmişdir. Həmin şikayətlərə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının 2 qərarı dəyişdirilmədən saxlanılmış, 1 qərarı dəyişdirilmişdir.

Beləliklə, 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 94.44% təşkil etmişdir.

# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarların icmalı dərc olunur.

Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

***1. Belane Nad (Béláné Nagy) Macarıstana qarşı (Böyük Palata) (ərizə № 53080/13)*** *13.12.2016-cı il tarixli qərarından*

*1 saylı Protokolun 1-ci maddəsi*

*1 saylı Protokolun 1-ci maddəsinin birinci bəndi*

*Mülkiyyətdən maneəsiz istifadə hüququ*

Yeni tətbiq edilən əlillik meyarları səbəbindən əlillik müavinətlərindən məhrum olma: *pozuntu baş verib*

*Faktlar* – 2001-ci ildə ərizəçiyə əlillik pensiyası təyin edildi, 2010-cu ildə onun əlillik dərəcəsi fərqli metodologiyadan istifadə edilməklə yenidən qiymətləndirilərək aşağı endirildikdən sonra həmin pensiya ləğv edildi. O, sonrakı illərdə növbəti müayinələrdən keçdi və son nəticədə durumu əlillik meyarlarına uyğun hesab edildi. Lakin 2012-ci ildə qüvvəyə minmiş yeni qanunvericiliyə əsasən sosial sığorta haqlarının ödənilməsinin müddəti ilə əlaqədar olan əlavə əlillik meyarları tətbiq edildi, ərizəçinin durumu həmin meyarlara cavab vermirdi. Əlavə meyarlar tətbiq edilməsəydi o, yeni sistemə əsasən əlillik müavinəti almaq hüququ əldə edəcəkdi, amma nəticədə onun müavinət üçün müraciətləri rədd edildi. Ərizəçi şikayət etdi ki, səhhətində heç bir yaxşılaşma olmadığına baxmayaraq, dövlət orqanları tərəfindən ədalət prinsipinə riayət edilmədən qanunvericilik dəyişikliyinin tətbiq edilməsi nəticəsində yaşayışını təmin edən yeganə vəsait olan əlillik müavinətindən məhrum olub.

10 fevral 2015-ci il tarixli qərarında (bax: 182 saylı Məlumat bülleteni) Məhkəmənin Palatası üç səsə qarşı dörd səslə müəyyən etdi ki, 1 saylı Protokolun 1-ci maddəsinin pozuntusu baş verib. Konkret olaraq, o bu

qənaətə gəldi ki, əlillik müavinətləri almasının şərtlərinin kəskin və gözlənilməz şəkildə dəyişilməsi səbəbindən ərizəçi əlilliyə görə himayə imkanından tamamilə məhrum olub.

Hökumətin vəsatəti əsasında 1 iyun 2015-ci ildə iş Böyük Palatanın icraatına verildi.

*Hüquqi məsələlər* – 1 saylı Protokolun 1-ci maddəsi

a) *1 saylı Protokolun 1-ci maddəsinin bu işə tətbiqinin mümkünlüyü məsələsi* – 1 saylı Protokolun 1-ci maddəsi ilə təmin edilən müdafiə müəyyən hallarda əmlakın əldə ediləcəyi ilə bağlı qanuni gözləntiyə də şamil olunur. Bunun üçün qanuni gözlənti sadəcə ümiddən ibarət olmayaraq konkret xarakter daşımalı və qanunvericilik normasına və ya hüquqi akta, məsələn, məhkəmə qərarına əsaslanmalıdır. Eyni zamanda, daxili qanunvericiliyə əsasən tanınan mülkiyyət marağı (baxmayaraq ki, müəyyən hallarda hüquqi qüvvəsini itirə bilər) əmlak təşkil edə bilər.

Sosial təminat qanunvericiliyində dəyişikliklər cəmiyyətdə baş verən dəyişikliklərə və sosial yardıma ehtiyacı olan insanların müvafiq kateqoriyaları ilə bağlı baxışların təkamülünə reaksiya olaraq qəbul edilə bilər. Hər hansı konkret formada müavinət və ya pensiya təyin edilməsinin ölkədaxili hüquqi şərtləri dəyişdikdə və həmin şərtlərin dəyişməsi səbəbindən maraqlı şəxs müvafiq meyarlara daha cavab vermədikdə, milli qanunvericilikdə kifayət qədər dəqiq müəyyən edilmiş substantiv mülkiyyət marağının konkret halda mövcud olub-olmadığını yoxlamaq üçün işin fərdi hallarının (xüsusən tələblərin dəyişməsinin xarakterinin) diqqətlə araşdırılması tələb oluna bilər.

Ərizəçi on ilə yaxın müddət ərzində əlillik pensiyası almaq hüququ verən bütün şərtlərə cavab verirdi. Beləliklə, müvafiq qanunvericilik aktının müddəaları əsasında qəbul edilən və onun ilkin hüququnun yaranması üçün əsas təşkil edən əlillik pensiyasının təyin edilməsi barədə qərara bu işdə mövcud mülkiyyət kimi baxmaq olar. Bütün bu müddət ərzində o, əlillik dərəcəsi tələb olunan səviyyədə qalacağı təqdirdə həmin akt əsasında əlillik müavinətlərini davamlı olaraq alacağına ümid edə bilərdi və bu gözlənti qanuni gözlənti idi.

Cavablandırılmalı sual ondan ibarət idi ki, 2012-ci ildə yeni qanunvericilik qüvvəyə mindiyi zaman ərizəçinin əlillik müavinəti almaq gözləntisi əvvəlki kimi qanuni gözlənti idimi? Qanunvericilikdəki dəyişikliyə əsasən sığorta haqları ödəmiş şəxslərin müəyyən kateqoriyalarına, o cümlədən ərizəçiyə faktiki olaraq elə bir şərt tətbiq

edilmişdi ki, onun tətbiq ediləcəyini sığorta haqlarının ödənildiyi müvafiq dövrdə öncədən görmək mümkün deyildi və yeni qanunvericilik qüvvəyə mindikdən sonra həmin şəxslər bu şərtin meyarlarına cavab verə bilməzdilər. 2010-cu ildə ərizəçiyə əlillik pensiyasının verilməsinin dayandırıldığı dövrdən 2012-ci ildə sığorta haqlarının ödənişi barədə yeni tələbin qanunverici orqan tərəfindən qəbul edildiyi dövrə qədər ərizəçi nəinki sosial təminat sisteminin tərkibində qalırdı, həm də əlillik müavinəti almaq üçün qoyulan müvafiq iş stajı tələblərinə cavab verirdi. Beləliklə, baxmayaraq ki, bu dövrdə o əlillik pensiyası almırdı, 1 saylı Protokolun 1-ci maddəsində nəzərdə tutulmuş "mülkiyyət" anlayışının şamil olunduğu qanuni gözləntiyə hələ də malik idi.

Ərizəçinin sözügedən sosial təminat sistemindən faydalanmaq hüququ pozulmuşdu və bu pozuntu onun pensiya hüquqlarına xələl gətirilməsi ilə nəticələnmişdi. Beləliklə, 1 saylı Protokolun 1-ci maddəsi bu işə tətbiq edilə bilər.

b) *Müdaxilənin 1 saylı Protokolun 1-ci maddəsinə uyğunluğu məsələsi* – Məhkəmə razılaşdı ki, müdaxilə qanunilik tələbinə cavab verir və əlilliyə görə sosial müavinətlərin təyin edilməsi sistemini rasionallaşdırmaq yolu ilə dövlət vəsaitlərinin qorunmasından ibarət ictimai maraqlara xidmət edirdi. 1 saylı Protokolun 1-ci maddəsinin tələbinə görə, istənilən müdaxilə qarşıya qoyulan məqsədə ağlabatan dərəcədə mütənasib olmalıdır. Şəxsin üzərinə fərdi və həddən artıq ağır yük qoyulursa, tələb olunan ədalətli balans təmin edilməmiş olur. Ərizəçinin müavinətləri mütənasib miqdarda azaldılmamışdı, o, müavinətləri almaq hüququndan tamamilə məhrum edilmişdi. Onun yaşayışını təmin edə biləcək hər hansı digər əhəmiyyətli gəliri yox idi, o, qazanc gətirən iş tapmaqda çətinlik çəkirdi və əlil şəxslər qrupuna mənsub idi.

Mübahisələndirilən tədbir əlilliyə görə sosial müavinətlərin təyin edilməsi sistemini yenidən qurmaq və rasionallaşdırmaq yolu ilə dövlət vəsaitlərinin qorunmasından ibarət ictimai maraqlara xidmət etsə də, ziddiyyətə girən maraqlar arasında ədalətli balansı təmin etməyən qanunvericilik aktına əsaslanırdı. Qüvvəsi geriyə şamil oluna bilən, konkret situasiyaya uyğun keçid tədbirlərini nəzərdə tutmayan və ərizəçini əlillik müavinətləri alacağı ilə bağlı qanuni gözləntisindən məhrum edən qanunvericiliyin qəbuluna yuxarıda qeyd edilən ictimai maraq mülahizələri ilə haqq qazandırmaq olmazdı. Ərizəçinin hüquqlarına bu cür fundamental müdaxilə ziddiyyətə girən maraqlar arasında ədalətli balansın gözlənilməsi

tələbinə zidd idi. Qarşıya qoyulan məqsəd ilə istifadə edilən vasitələr arasında ağlabatan mütənasiblik əlaqəsi yox idi. Bu sahədə dövlətin geniş qiymətləndirmə sərbəstliyinə malik olduğuna baxmayaraq, ərizəçinin üzərinə həddən artıq fərdi yük qoyulmuşdu.

***Nəticə: pozuntu baş verib (səkkiz səsə qarşı doqquz səslə).***

Maddə 41: Mənəvi ziyana görə 5.000 avro; maddi ziyana görə isə 10.000 avro təyin edildi.

≈≈≈

**2. *Papoşvili (Paposhvili) Belçikaya qarşı (Böyük Palata) (ərizə № 41738/10) 13.12.2016 -cı il tarixli qərarından***

*Maddə 3*

*Ölkədən çıxarılma*

Ciddi xəstəlikdən əziyyət çəkən şəxsin mənşə ölkəsində lazımi müalicə imkanının mövcudluğu şübhə doğursa da, onun öz mənşə ölkəsinə deportasiya olunmasının təklif edilməsi: *ölkədən çıxarılma pozuntu təşkil edəcək*

*Maddə 8*

*Ölkədən çıxarılma*

Ciddi xəstəlikdən əziyyət çəkən şəxsin mənşə ölkəsində lazımi müalicə imkanının mövcudluğu şübhə doğursa da, onun öz mənşə ölkəsinə deportasiya olunmasının təklif edilməsi: *ölkədən çıxarılma pozuntu təşkil edəcək*

*Faktlar* – Ərizəçi Gürcüstan vətəndaşıdır, 1998-ci ilin noyabrında arvadı ilə və arvadının altı yaşlı oğlu ilə İtaliyadan keçərək Belçikaya gəlib. Sonradan bu cütlüyün iki uşağı doğulub. Ərizəçi soyğunçuluq əməlinə görə bir neçə dəfə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. O, vərəm, C hepatiti və xroniki limfositar leykozdan əziyyət çəkirdi. Ərizəçinin və arvadının sığınacaq üçün verdikləri vəsatət 1999-cu ilin iyununda rədd edildi. Bundan sonra ərizəçi ölkədəki yaşayış statusunun leqallaşdırılması üçün bir neçə vəsatət verdi, amma vəsatətlər Əcnəbilərin işləri üzrə idarə tərəfindən rədd edildi. Daha sonra ərizəçinin və arvadının ölkəni tərk etmələri barədə bir neçə qərar qəbul edildi, onlardan biri 2010-cu ilin iyulunda qəbul edilmişdi.

23 iyul 2010-cu ildə ərizəçi Konvensiyanın 2, 3 və 8-ci maddələrinə istinadən Məhkəmə Reqlamentinin 39-cu qaydasına uyğun olaraq müvəqqəti tədbirin qəbul edilməsi üçün Avropa Məhkəməsinə müraciət

edərək iddia etdi ki, Gürcüstana göndəriləcəyi təqdirdə tələb olunan tibbi yardım onun üçün əlçatan olmayacaq və ömrünün sonuna az qaldığına görə ailəsindən uzaqda gözlənildiyindən daha tez vəfat edə bilər. 28 iyul 2010-cu ildə Məhkəmə onun vəsatətini təmin etdi.

Belçika ərazisini tərk etmək barədə qərarın qüvvəsi 28 fevral 2011-ci ilədək uzadıldı. 18 fevral 2012-ci ildə Əcnəbilərin işləri üzrə idarə nazirliyin 16 avqust 2007-ci il tarixli deportasiya əmrinə uyğun olaraq onun ölkəni tərk etməsi barədə qərar çıxardı və qərar "dərhal qüvvəyə mindi".

2012-ci ilin sentyabrında verilmiş tibbi arayışda deyilirdi ki, ərizəçinin hepatit və ağciyər xəstəliyini müalicə etdirməməsi onun orqanlarının zədələnməsinə və ciddi əlilliyə gətirib çıxara bilər, leykozun müalicə edilməməsi isə ölümlə nəticələnə bilər. Gürcüstana qaytarılması pasiyentin qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qoyulması sayıla bilər. 24 sentyabr 2012-ci ildə ərizəçiyə təklif edildi ki, tibbi müayinədən keçmək üçün Əcnəbilərin işləri üzrə idarənin tibb xidmətinə müraciət etsin və bunun nəticəsində Belçikanın dövlət orqanları "Məhkəmənin suallarını cavablandıra" bilsinlər. *N. Birləşmiş Krallığa qarşı* iş üzrə Məhkəmənin qərarına ([BP], ərizə № 26565/05, 27 may 2008-ci il, 108 saylı Məlumat bülleteni) istinadən hazırladığı rəyində Əcnəbilərin işləri üzrə idarə qeyd etdi ki, tibbi sənədlər ərizəçinin durumunun Konvensiyanın 3-cü maddəsinin tətbiq edilə bilməsi üçün tələb olunan ağırlıq dərəcəsinə çatdığı barədə qənaəti təsdiqləmir. Ərizəçinin həyatına birbaşa təhlükə yoxdur və onun salamat qalmasını təmin etmək üçün daimi tibbi nəzarət altında saxlanmasına ehtiyac yoxdur. Bundan başqa, onun xəstəliyinin hazırkı dövrdə sonuncu mərhələdə olduğunu hesab etmək olmaz.

29 iyul 2010-cu ildə ərizəçinin arvadına və onun üç uşağına ölkədə qeyri-müəyyən müddətə yaşamaq icazəsi verildi. Ərizəçi 2016-cı ilin iyununda vəfat etdi.

*Hüquqi məsələlər – İlkin məsələ*: Ərizəçinin vəfatından sonra qohumları icraatı davam etdirmək istədiklərini bildirdilər. Məhkəmə qeyd etdi ki, hazırkı işdə konkret olaraq ciddi xəstəliyi olan əcnəbilərin ölkədən çıxarılması ilə bağlı presedent hüququna aid mühüm məsələlər qaldırılıb. Buna görə də bu işin nəticəsi ərizəçinin konkret situasiyası ilə məhdudlaşmayaraq daha geniş əhəmiyyət kəsb edir. Beləliklə, Konvensiyanın 37-ci maddəsinin 1-ci bəndinin sonuncu hissəsinə uyğun olaraq, Konvensiya və onun Protokolları ilə təmin olunan insan hüquqlarına riayət olunması Məhkəmənin şikayətə baxmaqda davam etməsini tələb edir.

Maddə 3: *N. Birləşmiş Krallığa qarşı* məhkəmə işində Məhkəmə bildirdi ki, *D. Birləşmiş Krallığa qarşı* məhkəmə işindəki (ərizə № 30240/96, 2 may 1997-ci il) kimi ərizəçinin tezliklə öləcəyinin gözlənildiyi hallardan əlavə digər müstəsna hallar da mövcud ola bilər ki, bu zaman humanitar mülahizələr ölkədən çıxarılma qərarını üstələyə bilər. *N. Birləşmiş Krallığa qarşı* məhkəmə işi üzrə qərarın qəbulundan sonrakı dövrün presedent hüququnun tədqiqi hər hansı belə nümunə aşkara çıxarmadı. Konvensiyanın 3-cü maddəsinin yalnız ölümünə az qalan əcnəbinin deportasiyası hallarına şamil olunması ciddi xəstəliyi olan, amma birincilərə nisbətən sağlamlıq durumu daha az kritik həddə olan əcnəbiləri bu maddənin tələblərindən yararlanmaq imkanından məhrum edir.

Hazırkı işdə Böyük Palata müəyyən etdi ki, Konvensiyanın 3-cü maddəsində nəzərdə tutulmuş məsələlərin meydana çıxmasına səbəb olan "digər müstəsna hallar" dedikdə ciddi xəstəliyi olan, ölkədən çıxarılması nəzərdə tutulan şəxsin birbaşa ölüm təhlükəsi altında olmasa da, qəbuledici ölkədə lazımi müalicənin olmaması və ya belə müalicənin əlçatan olmaması səbəbindən səhhətinin ciddi şəkildə, sürətlə və dönməz olaraq pisləşməsi ucbatından intensiv iztirablara məruz qalması və ya ömrünün gözlənilən müddətinin əhəmiyyətli dərəcədə azalması təhlükəsinin real olduğunu güman etmək üçün əsaslı səbəblərin mövcudluğunun sübuta yetirildiyi hallar başa düşülməlidir. Belə hallar ciddi xəstəlikdən əziyyət çəkən əcnəbilərin ölkədən çıxarılmasının Konvensiyanın 3-cü maddəsinin tətbiqi üçün tələb olunan qəddarlıq səviyyəsinə çatdığı situasiyaları əhatə edir.

Ərizəçilər şikayət etdikləri tədbir icra ediləcəyi təqdirdə 3-cü maddəyə zidd rəftara məruz qalmaları təhlükəsinin real olduğunu güman etmək üçün əsaslı səbəblərin mövcud olduğunu təsdiqləyən sübutları təqdim etməlidirlər.

Belə sübut təqdim edildiyi təqdirdə ərizəçini geri qaytarmaq istəyən dövlətin hakimiyyət orqanları ölkədaxili prosedurlar kontekstində bu məsələ ilə bağlı hər hansı şübhələri aradan qaldırmalıdırlar. Mövcudluğu iddia edilən təhlükə ciddi şəkildə araşdırmalı və bu zaman ərizəçini geri qaytarmaq istəyən dövlətin hakimiyyət orqanları müvafiq şəxsin qəbuledici ölkəyə göndərilməsinin öncədən görülə bilən nəticələrini həmin ölkədəki ümumi situasiyanın və həmin şəxsin işin fərdi hallarının işığında nəzərdən keçirməlidirlər.

Müvafiq şəxsin ölkədən çıxarılmasının təsirləri onun ölkədən çıxarılmaya qədərki sağlamlıq durumunun qəbuledici ölkəyə göndəriləcəyi

təqdirdə səhhətində baş verə biləcək mümkün dəyişikliklərdən sonrakı durumu ilə müqayisə olunması əsasında qiymətləndirilməlidir.

Ərizəçinin 3-cü maddəyə zidd rəftara məruz qalmasının qarşısını almaq üçün hər bir konkret işdə yoxlamaq lazımdır ki, ümumən qəbuledici ölkədə əlçatan olan tibbi qulluq ərizəçinin xəstəliyinin müalicəsi üçün praktikada yetərli və münasib sayıla bilərmi?

Dövlət orqanları onu da nəzərdən keçirməlidirlər ki, qəbuledici ölkədəki tibbi qulluq və müalicə imkanları sözügedən şəxs üçün həqiqətən əlçatandırmı?

İşə aidiyyəti olan məlumatlar araşdırıldıqdan sonra müvafiq şəxslərin ölkədən çıxarılmasının nəticələri ilə bağlı ciddi şübhələr hələ də qalarsa, həmin şəxsləri geri göndərmək istəyən dövlət onların göndərilməsinin zəruri şərti kimi qəbuledici dövlətdən konkret və yetərli zəmanətlər almalıdır ki, orada lazımi müalicə onlar üçün əlçatan olacaq və onlar 3-cü maddəyə zidd olan duruma düşməyəcəklər.

Ərizəçi olduqca ciddi xəstəlikdən əziyyət çəkirdi və səhhəti elə vəziyyətdə idi ki, həyatı üçün təhlükə vardı. Amma Belçikada aldığı müalicə nəticəsində səhhəti sabitləşmişdi və artıq onun üzərində donor transplantasiyası əməliyyatı aparmaq olardı. Ərizəçinin müalicəsi dayandırılsaydı, ömrünün sonuna orta hesabla altı aydan da az vaxt qalacaqdı.

Nə ərizəçinin Belçikada aldığı müalicənin, nə də donor transplantasiyası əməliyyatının Gürcüstanda aparılması mümkün deyildi. Həmin ölkədə leykozun müalicəsinin mümkün olan digər formalarına gəlincə, Gürcüstanın sosial sığorta sistemindəki çatışmazlıqlar səbəbindən onların ərizəçi üçün əlçatan olacağına heç bir zəmanət yox idi.

Əcnəbilərin işləri üzrə idarənin tibb məsləhətçisinin ərizəçi tərəfindən təqdim edilmiş tibbi arayışlar əsasında ərizəçinin səhhəti ilə bağlı verdiyi rəylər tibbi mülahizələrə görə ərizəçinin ölkədəki statusunun leqallaşdırılması üzrə icraatda nə Əcnəbilərin işləri üzrə idarə tərəfindən, nə də Əcnəbilərin işləri üzrə idarənin apellyasiya şurası tərəfindən Konvensiyanın 3-cü maddəsi nöqteyi-nəzərindən araşdırılmamışdı.

Eləcə də ərizəçinin sağlamlıq durumu onun ölkədən çıxarılması üzrə icraat kontekstində yoxlanılmamışdı.

Ölkədən çıxarılma tədbirinin icrasından bilavasitə əvvəl bu cür qiymətləndirmələrin aparılmasının mümkünlüyü faktı bu cür qiymətləndirmənin hansı məsələləri əhatə edəcəyi və ölkədən çıxarılma

barədə məcburi qüvvəyə malik qərara necə təsir göstərəcəyi ilə bağlı hər hansı məlumatın olmadığı bir vəziyyətdə narahatlıqları aradan qaldırmırdı.

Yekun olaraq, ərizəçinin səhhəti və Gürcüstanda lazımi müalicə alması üçün imkanın mövcudluğu məsələsi nəzərə alınmaqla ərizəçinin üzləşdiyi təhlükənin dövlət hakimiyyət orqanları tərəfindən qiymətləndirilmədiyi bir vəziyyətdə həmin orqanların sərəncamında olan məlumatlar onun Gürcüstana qaytarılacağı təqdirdə Konvensiyanın 3-cü maddəsinə zidd rəftara məruz qala biləcəyi ilə bağlı real və konkret təhlükənin mövcud olmadığı qənaətinə gəlmək üçün yetərli deyildi.

***Nəticə: Ərizəçinin ölkədən çıxarılması 3-cü maddənin pozuntusuna səbəb olacaqdı (yekdilliklə).***

Maddə 8: Bu məsələdə fikir ayrılığı yox idi ki, ərizəçi, onun arvadı və Belçikada doğulmuş uşaqları arasında ailə həyatı münasibətləri mövcud idi. Buna görə də iş "ailə həyatı" nöqteyi-nəzərindən araşdırılmalı və şikayət Belçikanın dövlət orqanlarının pozitiv öhdəlikləri baxımından nəzərdən keçirilməlidir.

Belçikanın dövlət orqanlarının ərizəçi tərəfindən başlanılmış məhkəmə icraatlarının heç birində ərizəçinin tibbi məlumatlarını və ölkədən çıxarılmanın onun səhhətinə təsirini araşdırmadıqlarını nəzərə alaraq, Böyük Palata bu qənaətə gəldi ki, ərizəçi bu cür qiymətləndirmə aparılmadan Gürcüstana göndəriləcəyi təqdirdə 3-cü maddə pozulacaqdı.

Üstəlik, Belçikanın dövlət orqanları səhhətinin pisləşməsi ilə əlaqədar olaraq ərizəçinin ailəsindən asılılıq dərəcəsini Konvensiyanın 8-ci maddəsi əsasında araşdırmamışdılar. Tibbi mülahizələrə görə ərizəçinin ölkədəki statusunun leqallaşdırılması üzrə icraat kontekstində Əcnəbilərin işləri üzrə idarə ərizəçinin 8-ci maddə üzrə şikayətini rədd etmiş və belə əsas gətirmişdi ki, ölkədə qalmasına icazə verilməməsi barədə qərar ölkədən çıxarılma tədbirinin tətbiqi ilə müşayiət olunmayıb.

Belçikanın dövlət orqanları Konvensiyanın 3-cü maddəsinin yuxarıda qeyd edilən şərhinin işığında nəticə etibarı ilə bu maddənin müddəalarının ərizəçinin Gürcüstandan çıxarılmasına mane olmadığı qənaətinə gəlmişdilərsə, 8-ci maddənin tələblərinə əməl etmək üçün əlavə olaraq onu da araşdırmalı idilər ki, ərizəçinin ölkədən çıxarılacağı məqamdakı konkret durumunu nəzərə alaraq ailənin onun ardınca Gürcüstana yollanacağını əsaslı olaraq gözləmək olardımı və əgər bu mümkün deyildisə, ərizəçinin ailə həyatına hörmət hüququ onun Belçikada qalıb ömrünün qalan hissəsini burada keçirməsinə icazə verilməsini tələb edirdimi?

***Nəticə: Ərizəçinin ölkədən çıxarılması 8-ci maddənin pozuntusuna səbəb olacaqdı (yekdilliklə).***

Maddə 41: Maddi ziyanla bağlı tələb rədd edildi; pozuntuların müəyyən edilməsi faktı mənəvi ziyana görə yetərli kompensasiya hesab edildi.

≈≈≈

**3. *Lermitt (Lhermitte) Belçikaya qarşı* (34238/09)** *29.11.2016-cı il tarixli qərarından*

*Maddə 6*

*Cinayət prosesi*

*6-cı maddənin 1-ci bəndi*

*Ədalətli məhkəmə araşdırması hüququ*

Andlılar məhkəməsində andlı iclasçılar tərəfindən qəbul edilmiş təqsirləndirilən şəxsin təqsirkar olduğu barədə qərarın əsaslarını həmin şəxsin başa düşə bilməsi üçün adekvat prosessual təminatların olması məsələsi: *pozuntu baş verməyib*

*Faktlar* – Ərizəçi beş uşağını öldürdüyünə görə məhkəmə qarşısına çıxarılmışdı. 2008-ci ildə onun işinə üç hakimdən və andlı iclasçılardan ibarət andlılar məhkəməsi tərəfindən baxıldı. Onun müdafiəçisi iddia etdi ki, hadisələr baş verərkən ərizəçi psixi pozuntudan əziyyət çəkirdi ki, bu da onun öz hərəkətlərinə nəzarət edə bilməsinə imkan vermirdi. Öncə rəyləri bu mövqeyə zidd olan ekspert-psixiatrlar məhkəməyə təqdim edilmiş yeni sübutların işığında son nəticədə bu mövqeyi dəstəklədilər. Lakin andlılar ərizəçinin təqsirkar olduğu və hərəkətlərinin qəsdən törədildiyi barədə suallara "hə" cavabı verdilər. Elə həmin gün andlılar məhkəməsi ərizəçini ömürlük həbs cəzasına məhkum etdi. Kassasiya Məhkəməsi sonradan verilmiş kassasiya şikayətini rədd etdi, həmin şikayətdə ərizəçi bildirmişdi ki, andlıların qərarının və ittiham hökmünün əsasını təşkil etmiş səbəblər göstərilməyib.

26 may 2015-ci il tarixli qərarında (bax: 185 saylı Məlumat bülleteni) Məhkəmənin Palatası Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozulmadığını bildirdi və konkret olaraq müəyyən etdi ki, andlılara ünvanlanan sualların məzmunu, andlılar məhkəməsinin ittiham hökmü və Kassasiya Məhkəməsinin sonrakı qərarı məcmu halında götürüldükdə ərizəçi barəsində çıxarılmış ittiham hökmünün ərizəçi tərəfindən başa düşülməsinə imkan verirdi.

Ərizəçinin vəsatəti əsasında 14 sentyabr 2015-ci ildə iş Böyük Palatanın icraatına verildi.

*Hüquqi məsələlər* – 6-cı maddənin 1-ci bəndi: Bu iş mübahisələndirilən hərəkətlərin törədilib-törədilmədiyi və necə törədildiyi ilə (bu iki halın hər ikisi sübuta yetirilmiş və ərizəçi tərəfindən etiraf edilmişdi), yaxud cinayətlərin hüquqi tövsifi və ya cəzanın ağırlığı məsələsi ilə əlaqədar deyildi. Yaranmış sual ondan ibarət idi ki, məhkəmə iclasının sonunda ekspert-psixiatrların rəylərini dəyişdiklərinə baxmayaraq, araşdırılan dövrdə ərizəçinin öz hərəkətlərinə görə məsuliyyət daşımaq iqtidarında olduğu barədə andlıların gəldiyi qənaətin hansı səbəblərə əsaslandığını ərizəçi başa düşə bilərdimi? Məhkəmə aşağıdakı qeydlərin və mülahizələrin əsasında bu suala müsbət cavab verdi:

*a) Məhkəmə prosesinin çəkişmə xarakteri* – Məhkəmə araşdırması zamanı aşağıdakı təminatlara riayət edilmişdi: i) məhkəmə iclasının başlanğıcında ittiham hökmü tam həcmdə ucadan oxunmuş, həmçinin ittihamın əsasını təşkil edən cinayətin xarakteri göstərilmiş və cəzanı ağırlaşdıra və ya yüngülləşdirə bilən hallar qeyd edilmişdi; ii) ərizəçinin işində tərəflər öz arqumentlərini irəli sürmək imkanına malik idilər, hər bir sübut araşdırılmış və vəkilin yardım göstərdiyi müttəhimə şahidləri çağırmaq və dinlənilmiş ifadələri cavablandırmaq imkanı verilmişdi və iii) iclasa sədrlik edən hakimin on günlük dinləmələrdən sonra andlılar məhkəməsinin on iki üzvü qarşısında qoyduğu suallar ucadan oxunmuş və tərəflərə sualların siyahısının nüsxələri verilmişdi.

*b) İttiham aktının və andlılar qarşısında qoyulmuş sualların ümumilikdə işin nəticəsinə təsiri* – İlk növbədə qeyd etmək lazımdır ki, ərizəçinin vəkili sədrin andlılar qarşısında qoyduğu suallarla bağlı heç bir etiraz bildirməmiş, nə onların dəyişdirilməsini istəmiş, nə də başqa suallar təklif etmişdi.

Bundan başqa, birinci sual ərizəçinin təqsirliliyi ilə bağlı olduğundan, müsbət cavab birmənalı olaraq o demək idi ki, andlıların rəyinə görə, o araşdırılan dövrdə etdiyi hərəkətlər üçün məsuliyyət daşıyırdı. Beləliklə, ərizəçi andlıların bu məsələyə dair mövqeyinin ona aydın olmadığını iddia edə bilməzdi.

Həqiqətən andlılar bu qərarlarının əsaslarını göstərməmişdilər. Lakin ədalətli məhkəmə araşdırmasının tələblərinə riayət edilib-edilmədiyini qiymətləndirmək üçün məhkəmə prosesi bütövlükdə götürülməli və işin bütün halları nəzərə alınmaqla müəyyənləşdirilməlidir ki, tətbiq edilmiş prosedurlar ərizəçinin nə üçün təqsirkar hesab edildiyini başa düşməsinə imkan verirdimi?

Hazırkı işdə bu məsələnin araşdırılması hadisələr baş verdiyi dövrdə cinayət əməlinə görə ərizəçinin məsuliyyət daşıdığı barədə andlılar məhkəməsinin rəyini ərizəçinin başa düşə bilməsi ilə bağlı hər hansı şübhələri dağıtmağa imkan verən bir sıra amilləri üzə çıxardı:

i) İlkin mərhələdə araşdırmanın diqqət mərkəzində ərizəçinin qətlləri törətdiyi zaman psixoloji durumunun hansı vəziyyətdə olması məsələsi idi. Təxminən əlli səhifədən ibarət olan ittiham aktında hadisələrin dəqiq ardıcıllığı, istintaq zamanı görülmüş tədbirlər və əldə edilmiş sübutlar barədə məlumatlar, habelə məhkəmə-tibb ekspertizasının rəyləri öz əksini tapmışdı, eləcə də ittiham aktının xeyli hissəsində onun bioqrafiyası və ailə həyatı, onu qətlləri törətməyə sövq edən motivlər və səbəblər konkret olaraq onun psixoloji və ruhi vəziyyətinə ekspertlər tərəfindən verilmiş qiymət nəzərə alınmaqla əks olunmuşdu.

Həqiqətən ittiham hökmü andlıların qərarının başa düşülməsinə yardım etmək baxımından məhdud effektə malik idi, belə ki, o, andlılar məhkəməsindəki icraatın mühüm hissəsini təşkil edən məhkəmə iclasından əvvəl təqdim edilmişdi. Konvensiyanın 6-cı maddəsi işin istintaqını aparmış orqanların işi baxılmaq üçün məhkəməyə göndərməsi üçün əsas təşkil edən səbəblərin başa düşülməsini deyil, məhkəmə iclasında iştirak etdikdən sonra andlılar heyətinin üzvlərinin müttəhimin təqsirliliyi məsələsi barədə qərar vermələri üçün əsas təşkil edən səbəblərin başa düşülməsini tələb edir. Bundan başqa, Məhkəmə ittiham aktında əks olunmuş qənaətlərin andlıların müzakirələrinə və son nəticədə qəbul etdikləri qərara təsir göstərib-göstərmədiyinə dair ehtimallar irəli sürə bilməz.

ii) Andlılar məhkəməsindəki araşdırma zamanı ərizəçinin cinayət məsuliyyəti məsələsi prosesin başlıca məsələsi idi, belə ki, ortaya çıxmış yeni sübutlar sədri əlavə psixiatriya ekspertizası təyin etməyə vadar etmiş və sonradan bu ekspertizanın nəticələri araşdırılmışdı.

iii) İttiham hökmündə ərizəçinin qətlləri törətmək niyyəti və qətlləri soyuqqanlılıqla törətməsi açıq-aydın qeyd edilmişdi. Məntiqə görə, andlı iclasçıların suallara verdikləri cavablar onun cinayət məsuliyyəti daşımadığı qənaətinə gəlməyə imkan verirdi. Bundan başqa, Kassasiya Məhkəməsi ittiham hökmünü hər hansı başqa formada şərh etməmişdi, belə ki, ərizəçinin soyuqqanlı tərzdə hərəkət etməsi və cinayətləri törətməkdə qətiyyətliliyi andlılar məhkəməsinin belə qənaətə gəlməsi üçün əsas təşkil etmişdi ki, hadisələr baş verən anda o, əməllərinə görə cinayət məsuliyyəti daşıyırdı.

*c) İttiham hökmünün ərizəçinin təqsirliliyi məsələsi ilə bağlı müzakirələrdə iştirak etməmiş peşəkar hakimlər tərəfindən tərtib edilməsi* – Bu amil ərizəçiyə verilmiş izahatların dəyərliliyini və əhəmiyyətini şübhə altına ala bilməzdi, belə ki:

i) ittiham hökmü andlıların qərarının qəbul edildiyi gün çıxarıldığına görə izahatlar andlılar məhkəməsinin iclasının sonunda yubadılmadan verilmişdi;

ii) sözügedən hökm formal olaraq peşəkar hakimlər tərəfindən tərtib edilmiş olsa da, həmin hakimlər faktiki olaraq onlarla birlikdə hökmün müzakirəsində iştirak etmiş və adları hökmdə göstərilmiş andlılar heyətinin on iki üzvünün izahatlarını almaq imkanına malik idilər;

iii) peşəkar hakimlər özləri bütün məhkəmə iclası ərzində prosesdə iştirak etmişdilər və buna görə də andlıların izahatlarını lazımi qaydada nəzərə almaq imkanına malik idilər.

*d) Hadisələr baş verən anda ərizəçinin öz hərəkətlərinə nəzarət etmək iqtidarında olması məsələsində andlı iclasçılarla ekspert-psixiatrlar arasındakı fikir ayrılığı ilə bağlı konkret izahatların olmaması*- Həqiqətən son rəylərində üç ekspert-psixiatr belə bir yekdil fikirlərini bildirmişdilər ki, ərizəçi "hadisələr baş verən anda ciddi psixi pozuntudan əziyyət çəkirdi ki, bunun da nəticəsində öz hərəkətlərinə nəzarət etmək iqtidarında deyildi".

Lakin Məhkəmə artıq bu qənaətə gəlib ki, ekspert-psixiatrların andlılar məhkəməsindəki iclasda verdiyi ifadələr andlı iclasçılara təqdim edilmiş sübutların yalnız bir hissəsini təşkil edirdi.

Bundan başa, ekspertlərin özləri rəylərinin təsirini azaldaraq bildirmişdilər ki, cavabları onların şəxsi inamlarını ifadə edir və eyni zamanda təsdiq etmişdilər ki, bu rəylər "məlumatlı şəkildə bildirilmiş fikirlərdir, amma mütləq elmi həqiqət deyil".

Müvafiq olaraq, andlı iclasçıların onları ekspert-psixiatrların ərizəçinin xeyrinə olan yekun rəylərindəki mövqedən fərqli mövqe tutmağa sövq edən əsasları göstərməməsi ərizəçinin cinayət məsuliyyəti daşıdığı barədə qərarın əsaslarını başa düşə bilməsinə mane olmurdu.

Beləliklə, ərizəçi təqsirkar olduğunu müəyyən etmiş qərarın əsaslarını başa düşməsinə imkan verən yetərli təminatlarla təmin edilmişdi.

***Nəticə: pozuntu baş verməyib (yeddi səsə qarşı on səslə).***

*Mənbə: Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

***Abil Orucəliyev***
*Naxçıvan Muxtar Respublikası*
*Hərbi Məhkəməsinin hakimi*

## *Cinayət işləri üzrə ekspertizanın təyin edilməsi və aparılmasını tənzimləyən qanunvericiliyin tətbiqi üzrə məhkəmə təcrübəsi: nəzəri və təcrübi problemlər*

Şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququ dedikdə, yaranmış şübhə və ya elan edilmiş ittihamla əlaqədar müdafiə olunmaq üçün istifadə etmək və cinayət mühakimə icraatının gedişində özlərinin hüquq və qanuni mənafelərini həyata keçirmək üçün şübhəli və ya təqsirləndirilən şəxsə verilmiş hüquqların məcmusu başa düşülür. Şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun təmini isə qanunla onlara verilmiş prosessual hüquqlardan, həmçinin mənafelərinin qorunması üçün qanunla qadağan olunmayan digər üsullardan istifadə etmək imkanı verilməsini ehtiva edir.

Qeyd etmək lazımdır ki, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququ təkcə onların özü və müdafiəçisi tərəfindən həyata keçirilmir, həm də dövlət orqanlarının (müstəntiq, prokuror, təhqiqatçı, məhkəmə) cinayət – prosessual fəaliyyəti ilə təmin olunur. Həmin orqanların onların üzərinə qoyulmuş müdafiə hüquqlarının təmini üzrə öhdəliklərini yerinə yetirməməsi kobud prosessual pozuntu kimi qiymətləndirilir. Bu isə məhkəmə tərəfindən cinayət işinin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması və ya yuxarı instansiya məhkəməsi tərəfindən hökmün və ya qərarın ləğv edilməsinə səbəb olur.

Qeyd etmək lazımdır ki, müdafiə hüququ demokratik cəmiyyətdə ədalətli məhkəmə araşdırmasının fundamental cəhətlərindən biridir.

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinə əsasən məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur.

Azərbaycan Respublikası Konstitusiyasının və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin məzmunundan belə aydın olur ki, cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərərçəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin müdafiə hüququnu təmin etmək üçün tədbirlər görməlidirlər.

Müdafiə hüququnun tərkib elementlərindən biri də ekspertizanın təyin edilməsi və aparılması zamanı şübhəli və ya təqsirləndirilən şəxslərin malik olduqları hüquqlardır. Belə ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsində qeyd olunur ki, müstəntiqin qərarına əsasən ekspertizanın təyin edilməsi və aparılması zamanı şübhəli və ya təqsirləndirilən şəxs aşağıdakı hüquqlara malikdir:

- protokol tərtib edilməklə ekspertizanın aparılmasından əvvəl onun təyin edilməsi haqqında müstəntiqin qərarı ilə tanış olmaq və ona məxsus olan hüquqların izahını almaq;
- ekspertə etiraz etmək;
- eksperti onun göstərdiyi şəxslər içərisindən təyin edilməsi barədə vəsatət vermək;
- öz təşəbbüsü ilə və öz hesabına alternativ ekspertiza aparmaq və onun rəyinin cinayət işinə əlavə edilməsi barədə vəsatət vermək;
- rəy alınması üçün müstəntiq tərəfindən təyin edilmiş ekspert qarşısında əlavə suallar qoymaq;
- müstəntiqin icazəsi ilə ekspertizanın aparılmasında iştirak etmək, bu zaman tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb etmək və ekspertə izahlar vermək;
- ekspertin rəyi müstəntiqə daxil olduğu vaxtdan ən geci 10 (on) gün müddətində onunla tanış olmaq, əlavə və ya təkrar ekspertizanın aparılması haqqında vəsatət vermək;
- onun vəsatəti üzrə aparılan ekspertin dindirilməsində iştirak etmək.

Maddənin məzmunundan göründüyü kimi şübhəli və ya təqsirləndirilən şəxslər ekspertizanın aparılmasından əvvəl ekspertizanın təyin olunması haqqında qərarla tanış olmaq hüququna malikdirlər. Onların bu prosessual sənədin məzmununu, məhkəmə ekspertizasının təyin olunması və keçirilməsinin əsaslarını, ekspert qarşısında qoyulan sualların mahiyyətini, ekspertin səlahiyyətini, tədqiqata təqdim edilən materialların və obyektlərin xarakterini və xüsusi biliyin tətbiqi ilə əlaqədar digər halları bilmək, **ekspertə etiraz etmək,** ekspert qarşısında **iş üçün** əhəmiyyəti **olan,** lakin bu

və ya digər səbəbdən **ekspert qarşısında qoyulmamış əlavə suallar** qoymaq, o cümlədən müstəntiq tərəfindən rəy alınması üçün ekspert qarşısında qoyulmuş sualların dəyişdirilməsini (dəqiqləşdirilməsini) xahiş etmək və s. kimi hüquqları vardır.

Göründüyü kimi qanunvericilikdə şübhəli və ya təqsirləndirilən şəxslərə ekspertizanın təyin edilməsi və aparılması zamanı ortaya çıxan məsələlərlə bağlı geniş hüquqlar verilmişdir.

Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsində nəzərdə tutulmuş bu hüquqların təcrübədə tətbiqi ilə əlaqədar olaraq hesab edirik ki, məhkəməyədək aparılan icraat zamanı hüquq tətbiq edən orqanlar tərəfindən bir sıra nöqsanlara yol verilir. Belə ki, təcrübədə həmin maddənin məzmununa hərfi mənada yanaşılması şübhəli və ya təqsirləndirilən şəxslərin müdafiə hüquqlarına xələl gətirməklə yanaşı, məhkəmənin ədalətliliyinə də zərər vura biləcək hal olmuşdur.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsinin məzmunundan göründüyü kimi bu maddədə nəzərdə tutulan hüquqlar şübhəli və ya təqsirləndirilən şəxslərə aid edilmişdir.

İndi isə, gəlin görək, "şübhəli və ya təqsirləndirilən şəxs" dedikdə kimlər nəzərdə tutulur?.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 90-cı maddəsinə əsasən şübhəli şəxs qismində aşağıdakı fiziki şəxs tanınır:

1. ittiham elan olunması üçün barəsində tutulma haqqında qərar çıxarılmış şəxs;
2. cinayət törətməkdə şübhələnildiyinə görə tutulmuş şəxs;
3. haqqında həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, qətimkan tədbiri seçilməsi barədə qərar çıxarılmış şəxs.

Şəxsin şübhəli şəxs qismində tanınması üçün rəsmi sənəd tutulma və ya qətimkan tədbiri seçilməsi barədə qərar və ya tutma protokolu sayılır.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 91-ci maddəsində isə qeyd olunur ki, müstəntiqin, prokurorun və ya məhkəmənin təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxardığı fiziki şəxs təqsirləndirilən şəxs kimi tanınır.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 90-cı maddəsinə əsasən cinayət prosesini həyata keçirən orqan aşağıdakı müddətlərdə şəxsi şübhəli şəxs vəziyyətində saxlamağa haqlı deyil:

1. Tutulmuş şəxsi — 48 saatdan artıq (bu Məcəllənin 148.7-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla);

2. Həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, haqqında qətimkan tədbiri seçilmiş şübhəli şəxsi — qətimkan tədbiri seçilməsi haqqında qərarın elan edildiyi andan 10 (on) gündən artıq.

Yuxarıda nəzərdə tutulmuş müddətlər qurtaranadək cinayət prosesini həyata keçirən orqan şübhəli şəxsi azad etməli, haqqında seçilmiş qətimkan tədbirini ləğv etməli və ya onun təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxarmalıdır.

Bəzən cinayət prosesini həyata keçirən orqan bu müddətlərdə qərar çıxara bilmirsə, onda əksər hallarda şəxsi şahid kimi dindirir, o vaxta qədər ki, təqsirləndirilməsi üçün əsas tapsın.

Belə hal cinayət prosesini həyata keçirən orqan üçün bir neçə səbəbdən sərfəlidir. Birinci, bu, ittiham elan ediləcək şəxsin barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının çıxarılması və ya şəxsin şübhəli şəxs vəziyyətində saxlanılması müddətləri ilə əlaqədardır. Yəni, cinayət prosesini həyata keçirən orqan şübhəli şəxs vəziyyətində saxlama müddətləri qurtardıqdan sonra şübhəli şəxsi azad etməlidir və ya onun təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar çıxarmalıdır.

İkinci, şahid şübhəli şəxsdən, fərqli olaraq yalan ifadə verməyə görə və ya ifadə verməkdən imtina etməyə görə məsuliyyət daşıyır. Buna görə müstəntiq ittiham üçün kifayət edən dəlilləri topladıqdan sonra təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarır.

Hesab edirik ki, məhz elə cinayət prosesini həyata keçirən orqanlar tərəfindən belə bir üsuldan istifadə edilməsi zamanı Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsində nəzərdə tutulmuş hüquqlar pozulur.

İstərdik ki, bu barədə fikirlərimizi təcrübədə baş vermiş konkret cinayət işindən misallar gətirərək təhlil edək.

Belə ki, "X" təhqiqat orqanının icraatında olan "XX" nömrəli cinayət işinin materiallarını nəzərdən keçirdikdə müəyyən olunur ki, XXXXX adlı əsgərin 20 may 2020-ci ildə saat 08:30 radələrində N saylı hərbi hissənin avtomobil parkında ona təhkim olunmuş "MAZ" markalı, "XXX" hərbi nömrə nişanlı hərbi texnikanın idarəetmə və istismar qaydalarını pozması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olmuşdur.

Hadisə ilə bağlı 16 iyun 2020-ci il tarixdə XXXXX təhqiqat orqanı tərəfindən XXXXX adlı əsgərin barəsində Azərbaycan Respublikası CM-in 351.1-1-ci maddəsi ilə cinayət işi başlanmışdır.

Cinayət işinin ibtidai araşdırılması dövründə iş üzrə 26 may 2020-ci ildə “məhkəmə-tibbi ekspertizası”, 29 may 2020-ci ildə isə “məhkəmə yol-nəqliyyat hadisəsi ekspertizası” təyin edilmiş, müvafiq ekspert rəyləri 03 iyun 2020-ci il tarixdə və 11 iyun 2020-ci il tarixdə əldə edilməsinə baxmayaraq, iş üzrə təqsirləndirilən şəxs bu haqda qərarlar ilə təhqiqat orqanı tərəfindən 19 iyun 2020-ci il tarixdə, yəni müvafiq qərarların qəbul edilməsindən müvafiq olaraq 23 və 20 gün sonra tanış edilmişdir.

Göründüyü kimi təqsirləndirilən şəxs ekspertizanın təyin edilməsi haqqında qərarlarla tanış olduğu vaxt artıq onun Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsində nəzərdə tutulmuş hüquqları (protokol tərtib edilməklə ekspertizanın aparılmasından əvvəl onun təyin edilməsi haqqında müstəntiqin qərarı ilə tanış olmaq və ona məxsus olan hüquqların izahını almaq; ekspertə etiraz etmək; eksperti onun göstərdiyi şəxslər içərisindən təyin edilməsi barədə vəsatət vermək; öz təşəbbüsü ilə və öz hesabına alternativ ekspertiza aparmaq və onun rəyinin cinayət işinə əlavə edilməsi barədə vəsatət vermək; rəy alınması üçün müstəntiq tərəfindən təyin edilmiş ekspert qarşısında əlavə suallar qoymaq və.s) öz mahiyyətini itirmiş, şəxs bu hüquqlarını həyata keçirmək imkanından məhrum edilmiş, ümumilikdə isə bu hüquq onun üçün formallıqdan başqa bir şey olmamışdır. Belə ki, XXXXX adlı əsgər Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 268.1.1-ci maddəsinə əsasən ekspertizanın təyin edilməsi haqqında qərarlarla ekspertizanın aparılmasından əvvəl tanış edilməli olduğu halda, şəxs müvafiq ekspert rəyləri alındıqdan sonra bu haqda qərarlarla tanış edilmişdir.

Qeyd etmək zəruridir ki, məhkəmə təcrübəsində təhqiqat və istintaq orqanları baş vermiş bu kimi hallarla əlaqədar olaraq cinayət işi başlananadək hadisə ilə bağlılığı (aidiyyəti) olan şəxsin hüquqi statusunun müəyyən edilmədiyini, cinayət işi başlananadək bu şəxslərin şübhəli və ya təqsirləndirilən şəxs kimi deyil, məlumatları ilə onlara (təhqiqat və istintaq orqanlarına) kömək edən şəxs (şahid) kimi sadəcə olaraq izahatlarının alındığını, onların iş üzrə şübhəli və ya təqsirləndirilən şəxs statusunda olmadıqlarını, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsində nəzərdə tutulmuş hüquqların isə şübhəli və ya təqsirləndirilən şəxs statusunda olan şəxslərə şamil edildiyini əsas gətirirlər.

Lakin təhqiqat və istintaq orqanları bu cür mübahisəli nəticəyə gələrkən onu nəzərdən qaçırırlar ki, konkret olaraq tədqiq etdiyimiz həmin cinayət işi

üzrə təqsirləndirilən şəxs olan XXXXX adlı əsgər cinayət işi başlananadək olan dövr ərzində formal olaraq öz məlumatları ilə təhqiqat və istintaq orqanlarına kömək edən şəxs (şahid) qismində dindirilməsinə baxmayaraq, o, həmin iş üzrə potensial şübhəli şəxs olmuşdur.

Bu kimi hallarla əlaqədar olaraq hesab edirik ki, cinayət işi başlananadək olan dövr ərzində dindirilən şəxsi potensial şübhəli şəxs hesab etmək üçün əsasların olub-olmadığını müəyyənləşdirmək məqsədi ilə təkcə onun formal statusunu deyil, həm də dindirmənin faktoloji hallarını nəzərə almaq lazımdır. Belə ki, XXXXX adlı əsgər 20 may 2022-ci il tarixli ilkin izahatında həmin gün saat 08 radələrində səhər yerbəyeri qurtardıqdan sonra texnikalarda görüləcək işlərə davam etmək üçün avtomobil parkına getdiyini,...........yavaş-yavaş avtomobili önə doğru sürdüyünü,......sürətlər qutusunun ayırıcı pedalını ayağı ilə düzgün tənzimləmədiyindən avtomobilin qəfildən önə doğru sıçradığını, .......bu zaman zərərəçəkmiş şəxsin idarə etdiyi avtomobilin ön hissəsi ilə qarşıdakı “Kamaz” markalı avtomobilin sağ arxada olan iki təkərinin arasında qalaraq xəsarət aldığını ...və.s bildirmişdir.

Beləliklə də, XXXXX adlı əsgərin cinayət işi başlananadək olan dövr ərzində formal olaraq öz məlumatları ilə təhqiqat və istintaq orqanlarına kömək edən şəxs (şahid) qismində verdiyi ilkin izahatından görünür ki, o, həmin vaxt sadəcə olaraq baş vermiş cinayət hadisənin şahidi olması barədə izahat (məlumat) vermir, əslində o, törətmiş olduğu cinayəti etiraf edir. Hesab edirik ki, XXXXX adlı əsgərin baş vermiş cinayət hadisəsini ilk dəfə etiraf etdiyi andan təhqiqatçının həmin hadisənin onun tərəfindən törədilməsindən şübhələnmədiyini düşünmək olmaz. Belə bir şübhənin mövcudluğu təhqiqatçının XXXXX adlı əsgərin özünü ifşa edən ifadələrinin (izahatlarının) etibarlılığını yoxlamaq üçün əlavə addımlar atması və XXXXX adlı əsgərin iştirakı ilə hadisə yerinə baxış keçirilməsi və.s kimi müəyyən istintaq hərəkətləri aparması ilə təsdiq olunur.

Qeyd etmək lazımdır ki, bu hallar özü-özlüyündə XXXXX adlı əsgərin faktiki olaraq şübhəli şəxs vəziyyətində olmasına dəlalət edir.

İş materiallarından müəyyən olunur ki, 06 iyun 2022-ci il tarixdə XXXXX təhqiqat orqanı tərəfindən XXXXX adlı əsgərin barəsində Azərbaycan Respublikası CM-in 351.1-1-ci maddəsi ilə cinayət işi başlanmasına baxmayaraq, həmin tarixədək aparılan istintaq prosedurları baş vermiş cinayət hadisəsinin onun tərəfindən törədilməsinin isbat edilməsinə dair sübutlar toplamağa yönəlmişdir. Buna görə də XXXXX adlı

əsgərə qarşı rəsmi ittiham (barəsində cinayət işinin başlanılması) yalnız təhqiqatçının ondan məhkəmə tərəfindən məhkumluğunu təmin edə biləcək bütün ifadələri aldıqdan, müəyyən istintaq hərəkətlərini apardıqdan sonra irəli sürülmüşdür.

Beləliklə də, XXXXX təhqiqat orqanı tərəfindən aparılan ilkin yoxlama hərəkətlərinin lap əvvəlindən XXXXX adlı əsgər həmin iş üzrə potensial şübhəli şəxs olmasına baxmayaraq, XXXXX təhqiqat orqanı tərəfindən ona qarşı formal olaraq məlumatları ilə təhqiqat və istintaq orqanlarına kömək edən şəxs (şahid) kimi münasibət bəslənilməsi və beləliklə də, şəxsin şübhəli şəxs statusundan irəli gələn hüquqlarının təmin edilməməsi onun müdafiə hüququna xələl gətirən hal olmuşdur.

Qeyd etmək lazımdır ki, təcrübədə bu kimi hallara tez-tez rast gəlmək olur ki, bunu da yuxarıda qeyd olunduğu kimi təhqiqat və istintaq orqanları Cinayət Prosessual Məcəlləsində cinayət işi başlananadək hadisə ilə bağlılığı (aidiyyəti) olan şəxslərin hüquqi statusunun müəyyən edilməməsi, o cümlədən faktiki olaraq Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 268-cı maddəsində nəzərdə tutulmuş hüquqların şübhəli və ya təqsirləndirilən şəxs statusunda olan şəxslərə şamil edilməsi ilə əlaqələndirirlər.

Göründüyü kimi Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsinin qüvvədə olan mətni istər "ittiham mövqeyi", istərsə də "müdafiə mövqeyi" baxımından yanaşdıqda problemli görünür. Hesab edirik ki, həmin maddənin mətni Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri işığında yenidən işlənilməli və ya bu maddənin mətninin hərfi mənada şərh olunaraq tətbiq edilməsinin müdafiə tərəfi üçün yaratdığı çətinliklər təcrübədə müvafiq təhqiqat və istintaq prosedurları vasitəsilə kifayət qədər balanslaşdırılmalı və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli aşkar şəraitdə törədən şəxsin ilkin dəlillər əsasında bəlli olduğu hallarda həmin şəxs barəsində Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsinin tətbiqi baxımından həmin maddənin şərh olunması üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə müvafiq sorğu ünvanlanmalıdır.

Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsinin təcrübədə tətbiqi ilə bağlı ortaya çıxan məsələlərin həll edilməsi zamanı nəzərə almaq lazımdır ki, cinayət prosesi iştirakçılarının hüquqlarını və qanuni maraqlarını təmin etmək təhqiqat və istintaq orqanlarının, prokurorun və məhkəmələrin ən mühüm vəzifələrindən birini təşkil edir. Şəxsiyyətin, xüsusilə də cinayət

prosesi iştirakçılarının hüquqlarına zəruri diqqət yetirmədən həqiqi ədalət mühakiməsini həyata keçirmək mümkün deyil.

Cinayət prosesində iştirak edən hər bir şəxsin hüquqlarının və qanuni maraqlarının müdafiə və təmin edilməsi hüquqi dövlətin mühakimə icraatında yeritdiyi ədalət siyasətinin ana xəttidir və məhkəmə hakimiyyətinin həyata keçirilməsinin yeganə yoludur.

Hesab edirik ki, Cinayət Prosessual Məcəlləsinin 268-ci maddəsinin təcrübədə tətbiqi ilə bağlı bu mövqeyimiz Avropa İnsan Hüquqları Məhkəməsinin "Aleksandr Zayçenko Rusiya Federasiyasına qarşı", "Deveer Belçikaya qarşı", "Şabelnik Ukraynaya qarşı", "Brusko Fransaya qarşı" və "Luka İtaliyaya qarşı" və.s işlərində formalaşdırdığı hüquqi mövqe baxımından da əsaslıdır. Belə ki, Avropa İnsan Hüquqları Məhkəməsi "Aleksandr Zayçenko Rusiya Federasiyasına qarşı" 18 fevral 2010-cu il tarixli qərarında bildirmişdir ki, şəxs polis tərəfindən dindirilirsə və bu dindirmənin xarakteri həmin şəxsin potensial olaraq şübhəli şəxs sayıla biləcəyinə əsas verirsə və onun dindirmədəki cavabları sonradan məhkəmə araşdırmasında ona qarşı dəlil kimi istifadə edilirsə, şəxs rəsmən şübhəli və ya təqsirləndirilən şəxs statusuna malik olmasa belə, 6-cı maddənin müddəaları bu dindirməyə şamil olunur (Aleksandr Zayçenko Rusiyaya qarşı, 41-60-cı bəndlər).

Fikrimizə daha da aydınlıq gətirilməsi üçün Avropa İnsan Hüquqları Məhkəməsi "Aleksandr Zayçenko Rusiya Federasiyasına qarşı" qərarının qısa məzmununa diqqət yetirməyi zəruri hesab edirik. Belə ki, qərardan görünür ki, ərizəçi Aleksandr Zayçenko kommersiya təşkilatında sürücü işləyirdi. Ehtimal etmək olar ki, müəyyən bir vaxtda təşkilatın işçiləri tərəfindən dizel yanacağının oğurlanması barədə məlumatlar daxil olmağa başlamışdı. Bununla əlaqədar təşkilatın rəhbəri yoxlamaların aparılması üçün səlahiyyətli orqanlara müraciət etmişdi. Ehtimal etmək olar ki, məhz belə yoxlamalardan birində ərizəçinin avtomobili saxlanılmışdı. Avtomaşında dizel yanacağı ilə dolu olan iki kanistr aşkar olunmuşdu. Həmin vaxt hansısa bir məqamda ərizəçiyə avtomobilinin saxlanılmasının və ona baxışın keçirilməsinin səbəbləri izah olunmamış, həmçinin ərizəçiyə ona yönəlmiş hər hansı şübhələrin və yaxud ittihamların mahiyyəti və səbəbləri barədə də məlumat verilməmişdi.

Avtomobilinə baxış keçirildikdən sonra polis əməkdaşları ondan yanacağı haradan əldə etməsi barədə soruşmuşdular. O, qorxduğuna və yanacağın alınmasını təsdiq edən qəbzin üstündə olmadığına görə polisə

yanacağı pulla əldə etdiyini deməmişdi. Bunun əvəzinə o, yanacağı özünün xidməti avtomaşınından boşaltdığını bildirmişdi. Bununla əlaqədar protokol tərtib olunub imzalanmışdı. Həmin protokolda qeyd olunmuşdu ki, ərizəçi yanacağı təşkilatın ərazisində maşından boşaldıb. Bundan az müddət sonra ərizəçiyə susmaq hüququnun olması barədə məlumat verilmiş və o, 30 litr yanacağı şəxsi istifadəsi üçün özünün xidməti avtomaşınından boşaltması haqqında etirafedici izahatı imzalayaraq təsdiq etmişdi. Faktla bağlı ərizəçi tutulmamışdı. 21 fevral 2001-ci ildə baş vermiş hadisələrə görə 2001-ci ilin martın 2-də ərizəçi barəsində oğurluqda şübhəli bilindiyi üçün cinayət işi qaldırılmışdı.

Baş vermiş bu faktlarla əlaqədar olaraq Avropa İnsan Hüquqları Məhkəməsi qəbul etdiyi qərarın 42-ci bəndində qeyd etmişdir ki, cinayət işləri üzrə Konvensiyanın 6-cı maddəsi şəxsə "ittiham" elan olunduğu andan tətbiq olunur; bu işin məhkəməyə verilməsinə qədər müəyyən bir məqam, məsələn, şəxsin həbs olunduğu tarix, şəxsə cinayət qaydasında təqib olunması barədə rəsmi məlumat verildiyi gün və yaxud ibtidai istintaqın başlandığı tarix ola bilər ("Ekle Almaniyaya qarşı" Avropa Məhkəməsinin 15 iyul 1982-ci il tarixli qərarı, 73-cü paraqraf, sonuncu qərarlardan "O"Xalloran və Frensis Birləşmiş Krallığa qarşı, şikayətlər 15809/02 və 25624/02, 35-ci paraqraf ECHR 2007-ci il). "İttiham" anlayışı Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin məqsədləri baxımından "səlahiyyətli orqan tərəfindən şəxsə cinayət törətməsinin ehtimal olunduğu barədə rəsmən məlumatın verilməsi" kimi təfsir edilə bilər. Bu tərif "şəxsin vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilməsi" kriteriyasına da cavab verir (Bax: "Şabelnik Ukraynaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 19 fevral 2009-cu il tarixli qərarı, şikayət 16404/03, paraqraf 57, "Deveer Belçikaya qarşı" iş üzrə 27 fevral 1980-cı il tarixli qərar, paraqraf 46 və "Sounders Birləşmiş Krallığa qarşı" 17 dekabr 1996-cı il tarixli qərar, 67 və 74-cü paraqraflar). *Yolda təşkil olunmuş yoxlamanın hallarını və dindirilərkən ərizəçinin polis əməkdaşlarına yanacağı pulla əldə etməsini təsdiq edən hər hansı sənəd təqdim edə bilməməsini nəzərə alaraq, Avropa Məhkəməsi hesab edir ki, həmin anda ərizəçiyə qarşı yanacağı oğurladığına dair şübhələr olmuşdur.*

Həmçinin "Deveer Belçikaya qarşı" 27 fevral 1980-cı il tarixli qərarında Avropa İnsan Hüquqları Məhkəməsi bildirmişdir ki, "ittiham" sözünə formal deyil, sərbəst məna verilməlidir və məhkəmə müvafiq əlamətlər çərçivəsindən kənara çıxmaq və sözügedən işlə bağlı reallıqları araşdırmaq

məcburiyyətində olduğunu hesab etmişdir. Sonra məhkəmə bildirmişdir ki, "ittiham" səlahiyyətli qurum tərəfindən şəxsə onun cinayət törətdiyini və ya şübhəli şəxsin düşmüş olduğu vəziyyətə ciddi təsir etdiyini iddia edən rəsmi bildiriş kimi tərif edilə bilər (Deveer Belçikaya qarşı, 27 fevral 1980, par. 42, 44 və 46).

Avropa İnsan Hüquqları Məhkəməsi "Foti İtaliyaya qarşı" 10 dekabr 1982-ci il tarixli qərarında isə bildirmişdir ki, şəxsə rəsmən «ittiham» edilməsə də, mahiyyət etibarı ilə ittiham xarakterli praktiki tədbirlər, məsələn, axtarış təbirləri həyata keçirildikdə 6-cı maddənin təmin etdiyi müdafiə işə düşür (Foti İtaliyaya qarşı, 52-53-cü bəndlər).

Sonda isə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu nəzərə alaraq hesab edirik ki, hüquq tətbiq edən orqanlar prosessual normaların tətbiqi zamanı icraatların ədalətliliyinə mənfi təsir edə biləcək ifrat formallıqdan qaçınmalıdırlar. Unutmaq olmaz ki, demokratik cəmiyyətdə ədalət mühakiməsinin düzgün həyata keçirilməsi hüququ elə əhəmiyyətli yer tutur ki, onu formallığa qurban vermək olmaz.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi. Bakı, Hüquq Yayın evi 2020.
3. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin Kommentariyası. Bakı,2017.
4. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Müttəhimin müdafiə hüququnu təmin edən qanunların məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" 1994-cü il 2 dekabr tarixli qərarı.
5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şikayət vermək hüququ olan "digər şəxslər" müddəasının şərh edilməsinə dair" 12 mart 2015-ci il tarixli, qərarı.
6. Avropa İnsan Hüquqları Məhkəməsinin "Aleksandr Zayçenko Rusiya Federasiyasına qarşı" 18 fevral 2010-cu il tarixli qərarı.

7. Avropa İnsan Hüquqları Məhkəməsinin "Deveerin Belçikaya qarşı" 27 fevral 1980-ci il tarixli qərarı.
8. Avropa İnsan Hüquqları Məhkəməsi "Foti İtaliyaya qarşı" 10 dekabr 1982-ci il tarixli qərarı.
9. Avropa İnsan Hüquqları Məhkəməsinin "Şabelnik Ukraynaya qarşı" 19 fevral 2009-cu il tarixli qərarı.
10. Avropa İnsan Hüquqları Məhkəməsinin "Brusko Fransaya qarşı" 14 oktyabr 2010-cu il tarixli qərarı.
11. Avropa İnsan Hüquqları Məhkəməsinin "Luka İtaliyaya qarşı" 27 fevral 2001-ci il tarixli qərarı.

# HAKİMLƏRİN MİLLİ VƏ BEYNƏLXALQ QURUMLARINDA

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2022-ci ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında

Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri hakimləri Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə çıxarılmış qərarları ilə müntəzəm olaraq tanış etməkdən ibarətdir. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı buraxılışında 2022-ci ilin birinci yarısında Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2022-ci ildə Məhkəmə-Hüquq Şurası tərəfindən 12 hakim barəsində intizam icraatı başlanılmış, həmin intizam icraatları üzrə 12 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 21 aprel və 09 iyun 2022-ci il tarixli iclaslarında qəbul olunmuşdur. Həmin qərarlar əsasında intizam icraatı başlanılan hakimlərdən 1 nəfər Bakı Apellyasiya Məhkəməsinin, 1 nəfər Bakı Ağır Cinayətlər Məhkəməsinin və 1 nəfər Balakən Rayon Məhkəməsinin hakimlərinə töhmət verilmişdir.

Barəsində intizam icraatı başlanılmış 2 nəfər Bakı Apellyasiya Məhkəməsinin, 2 nəfər Bakı Ağır Cinayətlər Məhkəməsinin, 1 nəfər Şəki Apellyasiya Məhkəməsinin və 2 nəfər Ağcabədi Rayon Məhkəməsinin hakiminə irad tutulmuşdur.

2 nəfər Şəki Apellyasiya Məhkəməsinin hakimi barəsində başlanılmış intizam icraatına müzakirə ilə kifayətlənməklə xitam verilmişdir.

İntizam icraatının başlanmasına 9 halda Azərbaycan Respublikası Ali Məhkəməsinin, 2 halda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və 1 halda Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsas olmuşdur.

10 halda intizam icraatının başlanmasına səbəb işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və kobudcasına pozulması, 2 halda əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin və «Korrupsiya qarşı mübarizə haqqında» Qanunun 9.3.12-ci (fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq) pozulması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının 21 aprel 2022-ci il tarixli qərarından görünür ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimləri Səbuhi Hüseynov, Azad Məcidov, Zeynal Ağayev və Bakı Apellyasiya Məhkəməsinin hakimləri Habil Məmmədov, İlqar Murquzov, Həsən Əhmədov cinayət işinə baxarkən kobud qanun pozuntularına yol verdiklərinə görə onlar barəsində xüsusi qərar çıxarılmışdır.

Bundan başqa digər bir cinayət işi üzrə də Bakı Apellyasiya Məhkəməsinin hakimləri Habil Məmmədov, İlqar Murquzov, Həsən Əhmədov tərəfindən cinayət işinə baxılarkən qanunvericiliyin tələbləri kobudcasına pozulmuşdur.

Belə ki, 2 mart 2020-ci il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin 1(101 )-106/2020 saylı hökmü ilə *(sədrlik edən hakim S.Hüseynov, hakimlər A.Məcidov, Z.Ağayev)* V.Cəfərov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək, məhkum edilmiş, zərərçəkmiş şəxs və mülki iddiaçı F.Seyfullayevin V.Cəfərovdan onun xeyrinə 23.000 ABŞ dolları məbləğində pul vəsaitinin tutulması haqda mülki iddiası rədd edilmişdir.

Hökmdən məhkumun müdafiəçisi apellyasiya şikayəti verərək, hökmün ləğv edilməsini, əməlində cinayət tərkibi olmadığından V.Cəfərov barəsində bəraət hökmünün çıxarılmasını xahiş etmişdir.

Hökmdən zərərçəkmiş şəxs-mülki iddiaçı F.Seyfullayev apellyasiya şikayəti verərək, hökmün onun tərəfindən verilmiş mülki iddianın təmin edilməməsi hissəsində ləğv edilməsini və mülki iddianın təmin edilməsini xahiş etmişdir.

9 oktyabr 2020-ci il tarixdə Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 1(103)-656/2020 saylı qərarı ilə *(sədrlik edən hakim H.Məmmədov, hakimlər İ.Murquzov və H.Əhmədovdan ibarət tərkibdə).V* Cəfərovun müdafiəçisi və zərərçəkmiş şəxs-mülki iddiaçı tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməmiş, V.Cəfərovun CM-nin 178.3.2-ci maddəsi ilə məhkum olunmasına dair Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü dəyişdirilmiş, həmin hökmlə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti azaldılmış, hökm qalan

hissələrdə apellyasiya şikayətlərinə münasibətdə dəyişdirilmədən saxlanılmışdır.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 9 oktyabr 2020-ci il tarixli qərarından müdafiəçisi kassasiya şikayəti vermişdir. Müdafiəçi məhkum edilmiş şəxsin təqsirlilik məsələsini mübahisələndirərək, işə baxan məhkəmələr tərəfindən işin faktiki hallarının düzgün müəyyən edilməməsi, şəxsin təqsirliyini təsdiq edən və məhkəmələr tərəfindən istinad olunaraq tədqiq olunmuş sübutların mötəbərliyi və mənsubiyyəti baxımından düzgün qiymətləndirilməməsinə, cinayət təqibi ilə bağlı olan bütün məsələlərin hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün əhəmiyyətli ola biləcək halların araşdırılması məqsədilə qaldırılmış vəsatətlərin məhkəmələr tərəfindən baxılmadan və ya əsaslandırma aparmadan rədd edilməsinə istinad edərək, mübahisələndirilən qərarı dəyişdirməklə məhkum barəsində bəraətverici əsaslarla xitam verilməsinə dair qərar qəbul edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyası kassasiya şikayətinə mahiyyəti üzrə baxılması nəticəsində apellyasiya instansiyası məhkəməsində icraat zamanı cinayət prosesi iştirakçılarının hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan kobud pozuntulara yol verildiyini müəyyən etmişdir.

Belə ki, müəyyən olunmuşdur ki, birinci instansiya məhkəməsində məhkəmə istintaqı zamanı təqsirləndirilən şəxs və müdafiəçisi məhkəməyə müraciət edərək çoxsaylı yazılı şəkildə vəsatətlərlə (təqsirləndirilən şəxsin müdafiə hüququ pozulduğundan cinayət işinin baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması, müstəntiq barəsində xüsusi qərarın çıxarılması, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətindən müvafiq məlumat tələb olunması, bəzi şəxslərin şahid qismində məhkəməyə dəvət olunaraq dindirilmələri və s.) çıxış etmişdir.

İşə baxan birinci instansiya məhkəməsi qeyd edilən vəsatətləri heç bir əsaslandırma aparmadan, yalnız "vəsatətlər əsassız olduğu üçün təmin edilməsin” cümləsinə istinad etməklə təmin etməmiş və şəxs barəsində yuxarıda qeyd edilən qaydada ittiham hökmü çıxarmışdır.

Müdafiə tərəfi məhkəmə iclas protokolları ilə tanış olaraq həmin iş üzrə məhkəmə iclas protokollarının böyük fərqlə düz tərtib olunmaması, protokollaşmanın aşağı səviyyədə olmaqla, baş vermiş hadisələr, çıxışların böyük əksəriyyətinin protokola daxil edilməməsinə dair protokola yazılı qeydlər vermiş, məhkəmə kollegiyası isə həmin qeydlərlə razılaşmadığı

barədə formal qərar qəbul etmişdir.

Apellyasiya instansiya məhkəməsində məhkum edilmiş şəxsin müdafiəçisi məhkəmə istintaqının tam və ya qismən aparılmasını xahiş etmiş, bir sıra vəsatətlər, o cümlədən birinci instansiya məhkəməsində təmin edilməmiş vəsatətlərlə eyni vəsatətlər vermişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 03 iyul 2020-ci il tarixli apellyasiya şikayətinə ilkin baxılması qərarına əsasən vəsatətlər ümumilikdə bir cümlə ilə əsassız hesab edilmiş, məhkəmə istintaqı aparılmadan məhkəmə iclası təyin edilmiş, məhkum barəsində müvafiq qərar qəbul etmişdir.

Ali Məhkəmənin məhkəmə kollegiyası hesab etmişdir ki, V.Cəfərovun hökmlə istinad edilən *(apellyasiya instansiyası məhkəməsinin də razılaşdığı)* cinayət əməllərini törətməsini təsdiq edən sübutlar birinci instansiya məhkəməsində CPM-nin 33, 125, 143-146-cı maddələrinə uyğun şəkildə tədqiq edilməmiş, bir-biri ilə uzlaşmayan, mümkünlüyü və mötəbərliyi təkzib olunan sübutların məcmusuna istinad edilmiş, apellyasiya şikayətinə baxılması zamanı apellyasiya məhkəməsi müdafiə tərəfin şikayətinin dəlillərinə *(onların üzərində qurulmuş iddialara)* heç bir hüquqi qiymət vermədən və CPM-nin 121, 323-cü maddələrin tələblərini pozaraq cinayət təqibi ilə bağlı olan bütün məsələlərin hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün əhəmiyyətli ola biləcək halların araşdırılması məqsədilə qaldırılmış vəsatətlərə baxmaqdan imtina etməklə, müdafiə tərəfin hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan kobud pozuntulara yol vermişdir. Eyni zamanda bu vəsatətlərlə bağlı müdafiəçi tərəfin çıxışları məhkəmə iclas protokollarında lazımi qaydada protokollaşdırılmamışdır.

Bundan başqa Bakı Apellyasiya Məhkəməsinin hakimləri H.Məmmədov, İ.Murquzov və H.Əhmədov barədə olan digər intizam işi üzrə isə müəyyən edilmişdir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 12 mart 2020-ci il tarixli, 1(101)-256/2020 saylı hökmündən verilmiş apellyasiya şikayətlərinə əsasən işə baxan Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının (*hakimlər H.Məmmədov (sədrlik edən və məruzəçi), İ.Murquzov və H.Əhmədov ibarət tərkibdə)* 09 oktyabr 2020-ci il tarixli qərarı ilə apellyasiya şikayətləri təmin olnmamış, hökm isə dəyişdirilərək Ə. Abdullayevə Azərbaycan Respublikası CM-nin 120.1 -ci maddəsi ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti 10 il 06 aydan 09 il 03 ayadək, CM-nin 228.1-ci maddəsi ilə təyin edilmiş 01 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasının müddəti 01 il 03 ayadək endirilmiş, CM-

nin 66.3-cü maddəsinə əsasən isə həmin cəzalar qismən toplanılmaqla ona qəti olaraq 09 il 06 ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, hökm apellyasiya şikayətlərinə və onlara dair verilmiş əlavələrə münasibətdə qalan hissələrdə dəyişdirilmədən saxlanılmışdır.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 09 oktyabr 2020-ci il tarixli qərarından dövlət ittihamçısı kassasiya protesti və müdafiəçisi kassasiya şikayəti verərək hər birisi ayrı-ayrılıqda həmin qərarın ləğv edilməsini və cinayət işinin yeni apellyasiya baxışına təyin edilməsini xahiş etmişlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 06 iyul 2021-ci il tarixli qərarı ilə müdafiəçi və məhkumun ərizələrinə əsasən sonuncunun müdafiəçisi tərəfindən verilmiş kassasiya şikayəti geri qaytarılmış, dövlət ittihamçısının kassasiya protesti təmin edilmiş, Ə.Abdullayev CM-nin 120.1 və 228.1-ci maddələri ilə, İ.Əliyev və Ü.Hüseynovun hər birinin CM-nin 32.5, 120.1-ci maddələri ilə təqsirli bilinib məhkum olunmalarına dair cinayət işi üzrə Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 09 oktyabr 2020-ci il tarixli qərarı isə ləğv edilərək cinayət işinin apellyasiya instansiyası məhkəməsində yenidən baxılması təyin edilmişdir.

Apellyasiya instansiya məhkəməsinin qeyd edilən qərarından verilmiş kassasiya protestinə baxılması nəticəsində müəyyən edilmişdir ki, işə baxmış Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının hakimləri həm iş üzrə ilkin apellyasiya icraatı zamanı, həm də yekun qərar qəbul edərkən cinayət prosesi iştirakçılarının hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan maddi və prosessual hüquq normalarının pozuntularına yol vermişlər.

Belə ki, faktları müəyyən edən məhkəmələr iş üzrə ibtidai araşdırma zamanı hər hansı bir qanun pozuntusuna yol verilmədən toplanmış və birinci instansiya məhkəməsinin məhkəmə iclaslarında tam, hərtərəfli və obyektiv araşdırılmış sübutlara, yəni məhkum Ə.F.Abdullayevin ifadələri ilə yanaşı digər məhkumların, zərər çəkmiş şəxsin hüquqi varisinin, şahidlərin ifadələrinə, iş üzrə keçirilmiş müxtəlif məhkəmə ekspertizalarının rəylərinə və işə əlavə edilmiş sənədlərə əsaslanaraq, Azərbaycan Respublikası CPM-nin 145.1-ci maddəsinə uyğun qaydada araşdırılmış bütün sübutları mənsubiyyəti, mümkünlüyü və mötəbərliyi üzrə qiymətləndirərək Ə.F.Abdullayevin ona ittiham olunmuş cinayət əməllərini törətməsi barədə nəticəyə gəlmiş və onun bu əməllərini CM-nin 120.1 və 228.1-ci maddələri ilə düzgün tövsif etmişlər.

Məhkum Ə.F.Abdullayevin təqsirli bilinərək məhkum edildiyi CM-nin 120.1-ci maddəsinin sanksiyasında doqquz ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə, CM-nin 228.1-ci maddəsinin sanksiyasında isə iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzaları nəzərdə tutulmuş, birinci instansiya məhkəməsi də törədilmiş cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi ilə yanaşı, cəzanı yüngülləşdirən və ağırlaşdıran halları nəzərə alaraq adı çəkilən məhkuma həm ayrı-ayrı cinayətlərə qeyd edilən maddələrin sanksiyasında müəyyən edilmiş həddlərdə, həm də cinayətlərin məcmusu üzrə azadlıqdan məhrum etmə cəzasının təyin edilməsini məqsədəmüvafiq hesab etmişdir.

Apellyasiya instansiyası məhkəməsi isə iş üzrə qəbul etdiyi 09 oktyabr 2020-ci il tarixli qərarında faktiki olaraq birinci instansiya məhkəməsinin cəza təyini ilə bağlı gəldiyi nəticə ilə razılaşmış və bunu (öz mövqeyini) həmin qərarda əsaslandırmışdır.

Lakin bundan sonra apellyasiya instansiyası məhkəməsinin hakimləri heç bir əsaslandırma aparmadan, iş üzrə Ə.F.Abdullayevin cəzasını yüngülləşdirən yeni halları müəyyən etmədən və cəza təyini ilə bağlı məsələyə hər hansı münasibətini bildirmədən birinci instansiya məhkəməsi tərəfindən Ə.F.Abdullayevə təyin edilmiş cəzaların müddətlərini endirmək, bu əsasla da birinci instansiya məhkəməsinin hökmünü Ə.F.Abdullayevə aid hissədə dəyişdirmək qərarına gəlmişlər.

Apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası Ə.F.Abdullayevə təyin olunmuş cəzanın yüngülləşdirməsi və həmin əsasla hökmün dəyişlirilməli olması barədə qənaətə gələrkən yalnız prosessual hüquq normalarına istinad edib həmin normaları əsas götürmüş, lakin nəzərə almamışdır ki, cəza təyini məsələsi prosessual hüquq normalarının deyil, maddi hüquq normalarının tələblərinə uyğun olaraq həll edilir və məhkəmələr təqsirləndirilən şəxslər barəsində bu və ya digər cəza tədbirini seçərkən ilk növbədə bunun əsaslarını nəzərdə tutan cinayət qanunvericiliyinin normalarını və işin hallarını rəhbər tutmalıdırlar. Belə tələb cinayət qanunvericilinin tələbləri ilə yanaşı həmçinin apellyasiya instansiyası məhkəməsinin elə özünün istinad etdiyi prosessual normalarının tələb və mənasından da irəli gəlir.

Göründüyü kimi, apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası Ə.F.Abdullayevə təyin olunmuş cəzaları yüngülləşdirərkən nəinki bunun əsaslarını göstərməyi, hətta cinayət qanunvericiliyinin müvafiq normalarına istinad etməyi belə lazım bilməmiş və bununla həmin

normaların tələblərini kobudcasına pozmuşdur.

Bundan başqa, məhkəmə kollegiyası CPM-nin 419.1-ci maddəsinə əsasən kassasiya protestinin dəlillərindən asılı olmayaraq apellyasiya instansiyası məhkəməsinin qərarını iş materialları ilə birgə müqayisəli şəkildə yoxlayarkən həmin məhkəmənin məhkəmə kollegiyasının digər qanun pozuntularına da yol verməsini müəyyən etmişdir.

Məhkəmə kollegiyasının qənaətinə görə, apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası tərəfindən məhkum Ü.Hüseynovun və müdafiəçilərin apellyasiya şikayətlərinin və əlavənin dəlillərinə əsaslandırılmış şəkildə cavab verilməməsi, yəni onların irəli sürdükləri iddiaların əsassız olmasının qanuna və işin hallarına, habelə iş üzrə toplanmış sübutlara lazımi hüquqi qiymət verilməməklə bir-iki cümlə ilə təkzib edilməsi nəticə etibarı ilə cinayət prosesi iştirakçıları olan apellyasiya müraciətlərinin müəlliflərinin hüquqlarını əhəmiyyətli dərəcədə pozulmasına səbəb olmuşdur.

Bundan başqa, məhkəmə kollegiyası xüsusən onu qeyd etməyi zəruri hesab etmişdir ki, 31 avqust 2020-ci il tarixli məhkəmə iclas protokoluna görə, həmin iclasda Ə.F.Abdullayevin müdafiəçiləri E.Ə.Qənbərov və N.X.Canıyev CPM-nin 390.1-ci maddəsində nəzərdə tutulmuş hüquqlarından istifadə edərək apellyasiya instansiyası məhkəməsinə digər müdafiəçi S.S.Əliyev tərəfindən 12 mart 2020-ci il tarixli hökmdən verilmiş apellyasiya şikayətinə əlavə təqdim etmiş və məhkəmə kollegiyası bununla əlaqədar heç bir qərar qəbul etməsə də dövlət ittihamçısının həmin əlavə ilə tanış olmaq məqsədilə ona vaxt verilməsi barədə vəsatətini təmin edərək bu əsasla apellyasiya şikayətlərinə baxılması 07 sentyabr 2020-ci il tarixə saat 11.30-dək təxirə salınmışdır.

İş materialları öyrənilərkən, müdafiəçilərin verdikləri əlavə həmin materiallarda aşkar edilməmiş və əlavənin kim tərəfindən tərtib edilməsini, onun müəlliflərinin hansı dəlillərə əsaslanmalarını və hansı tələb irəli sürmələrini dəqiq müəyyən etmək mümkün olmamışdır. Eyni zamanda 07 sentyabr, 25 sentyabr və 09 oktyabr 2020-ci il tarixli məhkəmə iclas protokollarından apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası tərəfindən apellyasiya şikayətləri ilə yanaşı Ə.F.Abdullayevin haqqında verilmiş apellyasiya şikayətinə əlavəyə də baxılması müəyyən edilməmişdir.

Bundan başqa, iş materiallarından, o cümlədən məhkəmə iclas protokollarından iş üzrə sədrlik edən hakim H.Ç.Məmmədovun məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılmasını təmin etməsi, yəni belə

audioyazının aparılması müəyyən olunmamışdır.

Bununla da imperativ xarakter daşıyan CPM-nin 51.6-1-ci maddəsinin tələblərinə əməl edilməməsi də cinayət prosesi iştirakçılarının məhkəmə iclas protokolu və məhkəmə iclasında aparılan prosessual hərəkətlərin aparılması haqqında audioyazı ilə tanış olmaq, habelə protokola dair qeydlər vermək hüququnun pozulmasına səbəb olmuşdur.

Beləliklə, araşdırmanın nəticələri göstərir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimləri Səbuhi Hüseynov, Azad Məcidov, Zeynal Ağayev və Bakı Apellyasiya Məhkəməsinin hakimləri Habil Məmmədov, İlqar Murquzov, Həsən Əhmədov qeyd olunan cinayət işlərinə baxarkən yuxarıda şərh edilən hərəkətləri ilə qanunvericiliyinin tələblərinin kobud şəkildə pozulmasına yol vermişlər.

Məhkəmə-Hüquq Şurasının 21 aprel 2022-ci il tarixli qərarından görünür ki, Şəki Apellyasiya Məhkəməsinin hakimləri İmanverdi Şükürov, Akif Eyvazov və həmin məhkəmənin sabiq hakimi (hazırda Şəki Ağır Cinayətlər Məhkəməsinin sədri) Rafail Əliyev cinayət işinə baxarkən kobud qanun pozuntularına yol verdiklərinə görə onlar barəsində xüsusi qərar çıxarılmışdır.

Belə ki, aparılmış araşdırmanın nəticələrinə əsasən müəyən edilmişdir ki, ibtidai istintaq orqanı tərəfindən eyni bir cinayət işində altı nəfər şəxsə qarşı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham irəli sürülərək iş aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Həmin ittihama baxılması nəticəsində Şəki Ağır Cinayətlər Məhkəməsinin 19 iyun 2020-ci il tarixli hökmü ilə CM-in 308.2, 313-cü maddələri ilə təqsirləndirilən A.Əhmədzadəyə və CM-in 320.1-ci maddəsi ilə təqsirləndirilən Z.Nuriyevaya bəraət verilmiş, Ş.Əhmədov CM-in 308.2, 311.3.1, 311.3.2, 311.3.3, 313, 32.3,318.2, 318-1.2.2, 318-1.2.3-cü maddələri ilə, C.Mühəndis CM-in 312.2, 32.4,320.1 və 320.2-ci maddələri ilə, B.İbrahimov CM-in 308.2 və 313-cü maddələri ilə, İ.Soltanov CM-in 318.2, 320.1 və 320.2-ci maddələri ilə təqsirli bilinərək müxtəlif cəzalara məhkum olunmuşlar.

Şəki Ağır Cinayətlər Məhkəməsinin 19 iyun 2020-ci il tarixli hökmündən dövlət ittihamçısı tərəfindən apellyasiya protesti, təqsirləndirilən şəxs Ş.Əhmədovun müdafiəçisi, təqsirləndirilən şəxs C.Mühəndisin müdafiəçisi və təqsirləndirilən şəxs B.İbrahimovun müdafiəçisi tərəfindən apellyasiya şikayətləri verilmişdir.

Məhkum İ.Soltanov isə Şəki Ağır Cinayətlər Məhkəməsinin 19 iyun 2020-ci il tarixli hökmündən apellyasiya şikayəti verməmiş, həmin

hökmdən verilən apellyasiya protesti və apellyasiya şikayətləri ilə də hökmün ona aid hissəsi mübahisələndirilməmişdir.

Bununla əlaqədar, habelə CPM-in 358.3 və 397-ci maddələrinin tələblərinə müvafiq olaraq Şəki Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasında İ.Soltanova münasibətdə araşdırma aparılmamış, apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışının predmetini dövlət ittihamçısının və digər məhkumların müdafiəçiləri tərəfindən verilmiş apellyasiya müraciətlərinin məzmunları ilə şərtləndirilən məsələlər, yəni müstəsna olaraq hökmün məhkumlar Ş.Əhmədova, C.Mühəndisə, B.İbrahimova, habelə bəraət almış şəxslər A.Əhmədzadəyə və Z.Nuriyevaya aid hissələri təşkil etmişdir.

Apellyasiya instansiyası məhkəməsinin 05 mart 2021-ci il tarixli hökmündən göründüyü kimi məhkəmə apellyasiya baxşının predmetindən çıxış edərək hökmün təsviri-əsaslandırıcı hissəsini müstəsna olaraq Ş.Əhmədov, C.Mühəndis, B.İbrahimov, A.Əhmədzadə və Z.Nuriyeva barəsində apellyasiya protestində və apellyasiya şikayətlərində irəli sürülmüş dəlillər üzrə qənaətinə və onun əsaslandırılmasına həsr etmişdir.

Bununla belə hökmün nəticəvi hissəsində təsviri-əsaslandırıcı hissənin ziddinə olaraq apellyasiya məhkəməsi Şəki Ağır Cinayətlər Məhkəməsinin 19 iyun 2020-ci il tarixli hökmünün ləğv edilməsi barədə qərar çıxarmaqla, faktiki olaraq birinci instansiya məhkəməsinin hökmünün İ.Soltanova aid hissəsini də ləğv etmiş, lakin bu hissədə yalnız Ş.Əhmədova, C.Mühəndisə, B.İbrahimova, A.Əhmədzadəyə və Z.Nuriyevaya qarşı irəli sürülmüş ittihamlara münasibətini bildirməklə, artıq İ.Soltanova münasibətdə də hökmün ləğv edildiyini nəzərdən qaçırmışdır.

Həmin vaxt İ.Soltanov Şəki Rayon Məhkəməsinin 29 dekabr 2021-ci il tarixli qərarına əsasən cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş olsa da, hər bir halda apellyasiya instansiyası məhkəməsinin hökmünün çıxarıldığı 05 mart 2021-ci il tarixdən etibarən onun cinayət törətməkdə təqsirli bilinməsini və məhkum edilməsini təsdiq edən məhkəmə aktı faktiki olaraq mövcud olmamışdır.

Beləliklə, apellyasiya məhkəməsi hökmün təsviri-əsaslandırıcı hissəsinə uyğun olaraq hökmün nəticəvi hissəsində də Şəki Ağır Cinayətlər Məhkəməsinin 19 iyun 2020-ci il tarixli hökmünün "qismən", yəni müstəsna olaraq barələrində apellyasiya icraatı həyata keçirilmiş Ş.Əhmədova, C.Mühəndisə, B.İbrahimova, A.Əhmədzadəyə və Z. Nuriyevaya aid hissədə ləğv edildiyini əks etdirməli olduğu halda bunu etməmişdir.

Ali Məhkəmənin Cinayət kollegiyasının 27 iyul 2021-ci il tarixli qərarı ilə qeyd olunan pozuntunun aradan qaldırılması üçün Şəki Apellyasiya Məhkəməsinin 05 mart 2021-ci il tarixli hökmü ləğv edilərək cinayət işi yeni apellyasiya baxışına təyin edilmiş, eyni tarixli xüsusi qərarda isə təsvir edilən hal Azərbaycan Respublikası Konstitusiyanın 63-cü və Azərbaycan Respublikası CPM-in 21.1, 397.2, 397.5, 398.1.2-ci maddələrinin tələblərinin kobud şəkildə pozulması kimi qiymətləndirilmişdir.

Məhkəmə-Hüquq Şurasının 09 iyun 2022-ci il tarixli qərarından görünür ki, Ağcabədi Rayon Məhkəməsində işin təşkili, əmək və icra intizamına riayət olunması vəziyyəti öyrənilərkən məhkəmənin hakimi Etibar Quliyev tərəfindən qanunvericiliyin tələblərinin pozulması müəyyən olunmuşdur.

Aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edilmişdir ki, Ağcabədi Rayon Məhkəməsinin hakimi Etibar Quliyev ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı üzərinə düşən xidməti vəzifələrinin icrasına laqeyd münasibət bəsləyərək, Azərbaycan Respublikası Konstitusiyasının 60 və 127-ci, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 4 və 99-cu maddələrinin, habelə icraatında olmuş işlər üzrə prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermişdir. Belə ki, Mülki Prosessual Məcəllənin tələbləri pozularaq, hakim Etibar Quliyevin sədrliyi ilə baxılmış 1700/2021 və 1745/2021 nömrəli mülki işlər üzrə, müvafiq olaraq 03.08.2021-ci və 13.09.2021-ci il tarixə təyin olunmuş hazırlıq iclaslarının vaxtı və yeri barədə bildirişlərin tərəflərə göndərilməsini təsdiq edən sənədlər iş materiallarında aşkar olunmamış, 1516/2021 nömrəli və 1716/2021 nömrəli işlər üzrə 03.09.2021-ci il tarixə təyin olunmuş məhkəmə iclasının vaxtı və yeri barədə bildirişlər işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməmişdir. Nəticədə, həmin şəxslər məhkəmə islasının vaxtı və yeri, habelə ayrı-ayrı prosessual hərəkətlər haqqında xəbərsiz olmuş və öz prosessual hüquqlarını həyata keçirməkdən məhrum olunmuşlar.

Hakim E.Quliyevin sədrliyi ilə baxılmış bir sıra işlər üzrə hazırlıq iclasının vaxtı və yeri, habelə prosessual hüquq və vəzifələri haqqında bildirişlər tərəflərə göndərilməmiş, başqa sözlə həmin mülki işlərin materiallarında bu barədə heç bir sənəd aşkar olunmamışdır. Buna baxmayaraq, məhkəmə iclas protokollarında təhrifə yol verilərək, tərəflərin üzürsüz səbəbdən iclasa gəlməmələri qeyd olunmuşdur.

İşdə məhkəmə iclasının protokolunun olmamasının və ya

imzalamamasının mülki prosessual qanunvericiliyin prosessual normalarının kobud pozulması kimi qiymətləndirməsinə hakim Etibar Quliyev əhəmiyyət verməmişdir. Belə ki, hakim Etibar Quliyevin sədrliyi ilə baxılmış 1306/2021 nömrəli iş üzrə 30.06.2021-ci və 16.07.2021-ci il, 1368/2021 nömrəli iş üzrə 14.07.2021-ci, 28.07.2021-ci və 30.09.2021-ci il, 1384/2021 nömrəli nömrəli iş üzrə 17.07.2021-ci, 14.09.2021-ci və 30.09.2021-ci il, 1470/2021 nömrəli iş üzrə 28.07.2021-ci və 28.09.2021-ci il, 1504/2021 nömrəli iş üzrə 28.07.2021-ci və 05.10.2021-ci il, 1506/2021 nömrəli iş üzrə 28.07.2021-ci və 05.10.2021-ci il, 1700/2021 nömrəli iş üzrə 16.09.2021-ci və 28.09.2021-ci il, 1754/2021 nömrəli iş üzrə 17.09.2021-ci və 07.10.2021-ci il, 1752/2021 nömrəli iş üzrə 17.09.2021-ci və 07.10.2021-ci il, 1750/2021 nömrəli iş üzrə 17.09.2021-ci və 07.10.2021-ci il tarixli iclas protokolları hakim, 1368/2021 nömrəli iş üzrə 30.08.2021-ci il, 1384/2021 nömrəli nömrəli iş üzrə 26.08.2021-ci il, 1470/2021 nömrəli iş üzrə 02.09.2021-ci il, 1504/2021 nömrəli iş üzrə 02.09.2021-ci il, 1506/2021 nömrəli iş üzrə 02.09.2021-ci il, 1700/2021 nömrəli iş üzrə 03.09.2021-ci il tarixli iclas protokolları isə ötən 18 gündən 4 ayadək müddətdə hakim və məhkəmə iclas katibi tərəfindən imzalanmamışdır.

Bundan əlavə 8/2021 nömrəli iş üzrə 30.08.2021-ci, 1310/2021 nömrəli iş üzrə 27.08.2021-ci il, 1424/2021 nömrəli iş üzrə 24.08.2021-ci, 1456/2021 nömrəli iş üzrə 24.08.2021-ci il, 1694/2021 nömrəli iş üzrə 03.09.2021-ci il tarixli iclas protokolları 25.10.2021-ci il tarixə kimi ötən 1 aydan artıq müddət ərzində məhkəmə iclas katibi tərəfindən imzalanmamışdır.

MPM-in 263-cü maddəsinin tələblərinə zidd olaraq 306/2021, 368/2021, 384/2021, 470/2021, 504/2021, 506/2021, 700/2021, 752/2021, 754/2021, 1750/2021 nömrəli mülki işlər üzrə müvafiq olaraq 16.07.2021-ci, 14.07.2021-ci, 17.07.2021-ci, 28.09.2021-ci, 28.07.2021-ci, 28.07.2021-ci, 03.09.2021-ci, 17.09.2021-ci, 17.09.2021-ci, 17.09.2021-ci il tarixlərdə çıxarılmış qərardadlar 25.10.2021-ci il tarixə kimi ötən 1 aydan 4 ayadək müddət ərzində hakim Etibar Quliyev tərəfindən imzalanmamışdır.

Bununla yanaşı, 1714/2021 nömrəli iş üzrə 30.08.2021-ci il tarixli qərardad işin icraata daxil olmasından 1 gün əvvəlki tarixə, 758/2021 nömrəli iş üzrə 20.09.2021-ci il tarixli hazırlıq iclası üzrə müvafiq qəradad isə 21.09.2021-ci il tarixə tərtib olunmuşdur.

MPM-in 98-ci maddəsinin tələblərinə zidd olaraq hakim E.Quliyevin sədrliyi ilə baxılmış 660/2018 nömrəli mülki iş üzrə ekspertizalarının təyin olunması haqqında çıxarılmış qərardadda “ekspertizanın keçirilməsi və

rəyin verilməsi müddətləri" göstərilməmişdir. Nəticədə, ekspertizanın keçirilməsi və rəyin verilməsi uzun müddət təmin olunmamış, işə baxılmasının tezlik prinsipi pozularaq süründürməçiliyə yol verilmişdir.

Həmçinin, hakim Etibar Quliyevin sədrliyi ilə baxılmış 438/2021, 1482/2021, 1792/2021, 1076/2021, 1648/2021, 1727/2021, 1745/2021 nömrəli işlər üzrə yekun məhkəmə aktlarının işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsini təsdiq edən sübutedici sənəd olmamışdır. Bundan əlavə, hakim Etibar Quliyevin sədrliyi ilə çıxarılmış qətnamələrin surətləri tərəflərə 194/2021 nömrəli mülki iş üzrə 27 gün, 530/2021 və 1524/2021 nömrəli mülki işlər üzrə 1 aydan artıq müddət pozuntusu ilə göndərilmişdir.

Mülki prosessual qanunvericiliyin məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsindən və qətnamənin icra edilməsindən bəhs edən 233-cü və 234-cü maddələrinin tələbləri pozulmaqla hakim E.Quliyevin sədrliyi ilə baxılmış 530/2021, 512/2021, 1302/2021, 306/2021,438/2021, 1456/2021, 1476/2021 və 1508/2021 nömrəli işlər üzrə yekun məhkəmə aktları icraya 2 ayadək müddət pozuntusu ilə göndərilmişdir.

Bununla yanaşı, 194/2021 nömrəli iş üzrə məhkəmə qətnaməsi tərəflərə göndərildikdən 14 gün sonra, 1524/2021 nömrəli iş üzrə qətnamə tərəflərə 1 aydan artıq müddətdə gec göndərilməsinə baxmayaraq, bundan 1 gün sonra icraya yönəldilmiş və nəticədə MPM-in 360-cı maddəsində nəzərdə tutulan tərəflərin apellyasiya şikayəti vermə müddəti ilə bağlı hüquqları pozulmuşdur. 186/2021 nömrəli iş üzrə isə 03.06.2021-ci il tarixli məhkəmə əmri 16.06.2021-ci il tarixdə tərəflərə göndərildiyi gün icraya yönəldilmiş, bu isə MPM-in 282-ci maddəsində nəzərdə tutulan borclunun etiraz hüququnun pozulması ilə nəticələnmişdir.

Hakim Etibar Quliyevin sədrliyi ilə baxılmış mülki işlər üzrə bəzi hallarda süründürməçilik hallarına da yol verilmişdir. Məsələn, 188/2020, 1436/2020, 1538/2020, 380/2021, 158/2021, 190/2021 nömrəli işlər üzrə apellyasiya şikayətləri yuxarı instansiya məhkəməsinə 1 aydan artıq müddətdə gec göndərilməklə süründürməçiliyə yol verilmişdir.

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin tələblərinə zidd olaraq hakim E.Quliyevin sədrliyi ilə baxılmış 43/2021, 58/2021, 174/2021 və 177/2021 nömrəli cinayət işləri üzrə məhkəmənin hazırlıq iclası barədə bildirişin tərəflərə göndərilməsini təsdiq edən sənəd iş materiallarında aşkar olunmamış, 146/2021 nömrəli və 179/2021 nömrəli cinayət işləri üzrə isə hazırlıq iclası barədə bildiriş məhkəmə iclasına 5 gün qalmış göndərilmişdir.

CPM-in 51.7-ci maddəsinin tələblərinə zidd olaraq 25.10.2021-ci il

tarixə kimi ötən 10 gündən-10 ayadək müddət ərzində 43/2021, 58/2021, 172/2021, 173/2021, 174/2021, 175/2021 və 179/2021 nömrəli cinayət işləri üzrə məhkəmə iclas protokolları ümumiyyətlə tərtib olunmamışdır.

Bununla yanaşı, hakim E.Quliyevin sədrliyi ilə baxılmış 58/2021, 172/2021 və 179/2021 nömrəli cinayət işləri üzrə CPM-in tələbləri pozularaq məhkəmənin hazırlıq iclasının qərarı ümumiyyətlə tərtib edilməmiş və iş materiallarına əlavə olunmamışdır.

CPM-in 328.3-cü maddəsinin tələblərinə zidd olaraq hakim E.Quliyevin sədrliyi ilə baxılmış 172/2021 nömrəli cinayət işi üzrə 3 nəfər şahiddən iltizam alınsa da, həmin iltizamların tarixi göstərilməmiş, 175/2021 nömrəli cinayət işi üzrə isə hazırlıq iclası keçirilməməsinə baxmayaraq, iş materiallarında şahidin imzalanmış iltizamı aşkar olunmuşdur.

Bir sıra cinayət işləri üzrə CPM-in 358.1-ci maddəsinin tələblərinə uyğun olaraq məhkəmə hökmünün (yekun qərarın) surətinin elan edildiyi vaxtdan 3 gündən gec olmayaraq qanunda nəzərdə tutulmuş şəxslərə göndərilməsi təmin olunmamışdır. Məsələn, 172/2021, 173/2021, 174/2021, 175/2021, 177/2021 və 179/2021 nömrəli cinayət işləri üzrə təqsirləndirilən şəxsə məhkəmə qərarının alınması ilə bağlı boş məhkəmə qəbzinə imza etdirilməsi istisna olmaqla, məhkəmənin yekun qərarının proses iştirakçılarına göndərilməsini təsdiq edən heç bir sənəd aşkar olunmamışdır.

Yuxarıda qeyd edilən hərəkətləri (hərəkətsizliyi) ilə Ağcabədi Rayon Məhkəməsinin hakimi E.Quliyev əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərini, habelə «Korrupsiya qarşı mübarizə haqqında» Qanunun 9.3.12-ci (fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq) maddələrinin tələblərini kobud pozmuşdur.

Məhkəmə Hüquq Şurasının 09 iyun 2022-ci il tarixli qərarından görünür ki, Ağcabədi Rayon Məhkəməsinin sədri S.Ləzimov məhkəmədə işin təşkili və məhkəmə aparatının işinə rəhbərliyin həyata keçirilməsində, icra və əmək intizamının təmin olunmasında qanun pozuntularına yol vermiş, habelə şəxslərin hüquqlarının həyata keçirilməsinə süni maneə yaratmaqla “Korupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətmişdir. Belə ki, məhkəmədə icra intizamına riayət edilməsi vəziyyəti qeyri-qənaətbəxş olmuş, 2020 və 2021-ci illər üçün ümumiyyətlə iş planı tərtib olunmamış, hər hansı ümumiləşdirmə və təhlil aparılmamışdır.

Məhkəmədə işlərə (materiallara) dair uçot-qeydiyyat kartoçkaları

kargüzarlıq xidməti tərəfindən tam doldurulmayaraq "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimatın müvafiq tələbləri pozulmuşdur. Təlimatın 177-ci və 178-ci bəndlərində daxil olmuş işlərin (materialların) kargüzarlıq xidməti tərəfindən icraat növləri üzrə bölüşdürülməsinə nəzarət cədvəllərinin gündəlik olaraq tərtib edilməsi nəzərdə tutulsa da, onlar yalnız mülki və cinayət işləri üzrə, eyni zamanda gündəlik deyil, illik doldurulmuşdur. Digər icraat növləri üzrə isə bölüşdürülməyə dair nəzarət cədvəlləri tərtib olunmamışdır.

Eyni zamanda müəyyən edilmişdir ki, Təlimatın 390-cı bəndinə zidd olaraq nəzarətdə olan sənədlərin icrası haqqında ayda 1 dəfə məhkəmə sədrinə məlumat verilməmiş, eyni zamanda onların gedişi və nəticələri haqqında təhlil aparılmamış, həmçinin müvafiq tədbirlər planı işlənilməmişdir.

Təlimatın arxiv işinin təşkilinə dair 417-ci, 430-cu, 437-ci və 438-ci bəndlərinin tələblərinə də əməl olunmayaraq məhkəmədə işlərin (materialların) ümumi nomenklatur siyahısı tərtib olunmamış, daimi fəaliyyət göstərən arxiv işi üzrə ekspert komissiyası yaradılmamış, sənədlərin ekspertizası keçirilməmiş, arxivə təhvil verilmək üçün işlərin və materialların siyahısı məhkəmə sədri tərəfindən imzalanmamış, işlərə arxiv nömrəsi verilməmiş və qeydiyyat-uçot kartoçkalarında arxiv nömrələri qeyd olunmamışdır.

Həmçinin, 2019-2021-ci illər üzrə yekun məhkəmə qərarı çıxarılmış xeyli sayda iş və materiallar müvafiq qaydada arxivə təhvil verilməmişdir.

Qeyd olunanlarla yanaşı, məhkəmənin sədri Sulduz Ləzimov Mülki Prosessual Məcəllənin tələblərini pozmaqla, sədrliyi ilə baxılmış 1289/2021 saylı iş üzrə 05.07.2021-ci il tarixli, 1293/2021 saylı iş üzrə 07.07.2021-ci il tarixli məhkəmə hazırlıq iclaslarının vaxtı və yeri barədə bildiriş tərəflərə 30.06.2021-ci il tarixdə, 153/2021 saylı iş üzrə 14.06.2021-ci il tarixli iclasın vaxtı və yeri barədə bildiriş isə tərəflərə 08.06.2021-ci il tarixdə (qanunla müəyyən olunmuş müddət nəzərə alınmadan) göndərilmişdir.

Bununla yanaşı, 1234/2019 saylı iş üzrə 21.11.2019-cu il tarixli qərardadla iş tərəflərin gəlməməsi əsası ilə baxılmamış saxlanılmış, lakin müvafiq iclasların vaxtı və yeri barədə tərəflərin məlumatlandırılmasına dair təsdiqedici sənəd iş materiallarında aşkar olunmamışdır.

Bundan başqa, MPM-in protokolun tərtib edilməsinin məcburiliyindən bəhs edən 270-272-ci maddələrinin tələblərinə zidd olaraq hakim Sulduz Ləzimovin sədrliyi ilə baxılmış 1235/2019 saylı iş üzrə 24.09.2019-cu il, 49/2020 saylı iş üzrə 07.02.2020-ci il, 675/2021 saylı iş üzrə 24.05.2021-ci

il, 1031/2021 saylı iş üzrə 13.07.2021-ci il, 23/2021 saylı iş üzrə 16.09.2020-ci il, 699/2021 saylı iş üzrə 23.08.2021-ci il, 343/2021 saylı iş üzrə 23.08.2021-ci il, 1592/2021 saylı iş üzrə 30.08.2021-ci il, 1385/2021 saylı iş üzə 30.08.2021-ci il tarixli məhkəmə iclasının protokolları ötən 55 gündən 2 ilədək müddət ərzində tərtib olunmamışdır.

Bundan əlavə, 493/2019 saylı iş üzrə 05.03.2019, 29.03.2019, 19.04.2019, 19.07.2019-cu il tarixli, 517/2019 saylı iş üzrə 07.03.2019, 02.04.2019, 30.04.2019-cu il tarixli, 1063/2019 saylı iş üzrə 16.08.2019, 19.07.2019-cu il tarixli, 1109/2019 saylı iş üzrə 26.07.2019, 26.08.2019, 25.09.2019-cu il tarixli, 1234/2019 saylı iş üzrə 06.09.2019, 22.10.2019 və 21.11.2019-cu il tarixli, 1235/2019 saylı iş üzrə 05.09.2019-cu il tarixli, 1287/2019 saylı iş üzrə 13.09.2019-cu il tarixli, 40/2020 saylı iş üzrə 12.09.2019, 11.10.2019, 08.11.2019-cu il tarixli, 41/2020 saylı iş üzrə 12.09.2019-cu il tarixli, 08.10.2019-cu il tarixli, 49/2020 saylı iş üzrə 06.11.2019-cu il tarixli, 509/2020 saylı iş üzrə 06.04.2020-ci il tarixli, 1617/2020 saylı iş üzrə 10.12.2020 və 02.03.2021-ci il tarixli, 23/2021 saylı iş üzrə 28.07.2020 və 17.08.2020-ci il tarixli, 675/2021 saylı iş üzrə 10.03.2021, 29.03.2021 və 27.04.2021-ci il tarixli, 1031/2021 saylı iş üzrə 21.05.2021-ci il tarixli, 1153/2021 saylı iş üzrə 01.06.2021-ci il tarixli, 1161/2021 saylı iş üzrə 17.06.2021 və 14.07.2021-ci il tarixli, 1289/2021 saylı iş üzrə 21.06.2021 və 05.07.2021-ci il tarixli iclas protokolu məhkəmə iclas katibi, 469/2020 saylı iş üzrə 27.02.2020 və 19.03.2020-ci il tarixli, 09/2021 saylı iş üzrə 28.02.2020-ci il tarixli, 35/2021 saylı iş üzrə 20.07.2020-ci il tarixli iclas protokolu hakim, 09/2021 saylı iş üzrə 05.06.2020-ci il tarixli, 09/2021 saylı iş üzrə 03.06.2020-ci il tarixli, 1293/2021 saylı iş üzrə 04.08.2021-ci il tarixli, 35/2021 saylı iş üzrə 04.08.2020, 31.08.2020 və 21.09.2020-ci il tarixli iclas protokolları hakim və məhkəmə iclas katibi tərəfindən ötən 35 gündən 2 il 7 ayadək müddət ərzində imzalanmamışdır.

Eyni zamanda MPM-in 263-cü maddəsinin tələblərinə zidd olaraq 1063/2019, 904/2019, 469/2020, 35/2021 saylı mülki işlər üzrə müvafiq olaraq 19.07.2019-cu, 12.06.2020-ci, 27.02.2020-ci, 04.08.2021-ci il tarixli qərardadlar hakim Sulduz Ləzimov tərəfindən imzalanmamışdır.

Hakim S.Ləzimovun sədrliyi ilə baxılmış 36/2020 saylı mülki iş üzrə isə ekspertizalarının təyin olunması haqqında çıxarılmış qərardadda "ekspertizanın keçirilməsi və rəyin verilməsi müddətləri” göstərilməmişdir. Nəticədə, ekspertizanın keçirilməsi və rəyin verilməsi uzun müddətlərə həyata keçirilmiş, həmçinin işlərin baxılmasının tezlik prinsipi pozularaq

süründürməçilik hallarına yol verilmişdir.

Eyni zamanda S.Ləzimovun sədrliyi ilə baxılmış 5 mülki iş üzrə yekun məhkəmə aktları icraya 20 günədək müddət pozuntusu ilə göndərilmiş, 5 mülki iş üzrə isə qətnamələrin icraya göndərilməsini təsdiq edən sənəd ümumiyyətlə iş materiallarında aşkar olunmamışdır.

Hakim S.Ləzimovun sədrliyi ilə baxılmış 81/2021 saylı cinayət işi üzrə məhkəmənin hazırlıq iclasları təqsirləndirilən şəxsin gəlməməsi əsası ilə təxirə salınsa da, 10.03.2021-ci il, 19.03.2021-ci il və 30.03.2021-ci il tarixli məhkəmə iclaslarının vaxtı və yeri barədə bildirişin tərəflərə göndərilməsini təsdiq edən sənəd iş materiallarında aşkar olunmamış, 10/2021 saylı və 163/2021 saylı cinayət işləri üzrə isə hazırlıq iclası barədə bildiriş məhkəmə iclasına 5 gün qalmış göndərilmişdir.

Bundan başqa, CPM-in 51.7-ci maddəsinin tələblərinə zidd olaraq hakim S.Ləzimovun sədrliyi ilə baxılmış 162/2021 saylı cinayət işi üzrə 31.08.2021-ci il tarixli məhkəmənin hazırlıq iclasının protokolu katib tərəfindən imzalanmamış, bu tarixdən sonra keçirilən məhkəmə iclaslarının protokolları və 163/2021 saylı cinayət işi üzrə 19.10.2021-ci il tarixli məhkəmə iclas protokolu iş materiallarında aşkar olunmamışdır.

Hakim S.Ləzimovun sədrliyi ilə baxılmış 46/2021 və 133/2021 nömrəli işlər üzrə CPM-in 358.1-ci maddəsinin tələblərinə uyğun olaraq məhkəmə hökmünün (yekun qərarın) surətinin elan edildiyi vaxtdan 3 gündən gec olmayaraq qanunda nəzərdə tutulmuş şəxslərə göndərilməsi təmin olunmamışdır.

Məhkəmə-Hüquq Şurasının 09 iyun 2022-ci il tarixli qərarından görünür ki, Balakən Rayon Məhkəməsinin hakimi Zamin Tahirov tərəfindən cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntusuna yol verdiyinə görə onun barəsində xüsusi qərar çıxarılmışdır. Belə ki, Motuxov Asluddin Muxtar oğlunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işinə baxılaraq onun 1 il 6 ay müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilməsi barədə 24 noyabr 2020-ci il tarixli hökm çıxarılmışdır.

Hökmdən dövlət ittihamçısı tərəfindən apellyasiya protesti verilmiş, Şəki Apellyasiya Məhkəməsinin 30 noyabr 2021-ci il tarixli hökmü ilə apellyasiya protesti təmin edilmiş, hökm cəzaya aid hissədə dəyişdirilmiş, Asluddin Motuxov CM-in 234.1-ci maddəsi ilə təqsirli bilinib 2 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, hökm qalan hissədə dəyişdirilmədən saxlanılmış, Asluddin Motuxov barəsində Azərbaycan Respublikası Milli Məclisinin 8 Noyabr - Zəfər Günü münasibətilə

amnistiya elan edilməsi haqqında qərar tətbiq edilməklə, təyin edilmiş azadlıqdan məhrum etmə cəzası 6 ay azaldılaraq onun üzərində qəti olaraq 1 il 5 ay 28 gün müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 11 may 2022-ci il tarixli qərarı ilə Şəki Apellyasiya Məhkəməsinin 30 noyabr 2021-ci il tarixli, 1(107)-420/2021 nömrəli qərarı dəyişdirilmədən saxlanılmışdır.

İşə apellyasiya qaydasında baxılarkən müəyyən edilmişdir ki, birinci instansiya məhkəməsi iş üzrə icraatı uzun müddətə dayandıraraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə müraciət etsə də, sonda özünün həmin müraciəti üzrə qəbul edilmiş və məcburi qüvvəyə malik olan Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsi baxımından həmin Məcəllənin 18-ci maddəsinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 27.1-ci maddəsinə münasibətdə həmin Məcəllənin 234.1-ci maddəsinin şərh edilməsinə dair» 18 sentyabr 2020-ci il tarixli qərarının tələblərini pozmuş, Asluddin Motuxovun əməlində cinayətlərin təhlükəli residivi olduğu halda, Konstitusiya Məhkəməsinin şərhinin ziddinə onun əməlini sadə residiv kimi qiymətləndirmişdir. Bununla da, cəza təyin edərkən CM-in residivə görə cəza təyin edilməsindən bəhs edən 65.1 və 65.2- ci maddələrinin tələblərini pozmuşdur.

Belə ki, CM-in residivə görə cəzanın təyin edilməsi məsələlərini tənzimləyən 65.2-ci maddəsinə əsasən residivə görə cəzanın müddəti törədilmiş cinayətə görə bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş daha ciddi cəza növünün son həddinin yarısından, təhlükəli residivə görə üçdə ikisindən, xüsusi təhlükəli residivə görə isə dörddə üçündən az ola bilməz.

Bununla da Asluddin Motuxovun təqsirli bilindiyi CM-nin 234.1-ci maddəsinin sanksiyasında nəzərdə tutulmuş daha ciddi cəza növü olan azadlıqdan məhrum etmə ilə cəzasının müddəti üç ilədək müddətə müəyyən edildiyindən birinci instansiya məhkəməsi ona həmin maddə ilə təhlükəli residivə görə 2 il müddətə azadlıqdan məhrumetmə cəzası təyin etməli olduğu halda, 1 il 6 ay müddətə azadlıqdan məhrumetmə cəzası təyin etməklə qanunvericiliyin tələblərini pozmuşdur.

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 99-cu maddəsinə əsasən, hakimlər ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etmək, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalətli və qərəzsiz

olmaq, ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinmək kimi vəzifələri yerinə yetirməlidirlər.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1-ci maddəsində hakimin intizam məsuliyyətinə cəlb edilməsi üçün əsaslardan biri kimi işlərə baxarkən qanunvericiliyin tələblərini kobudcasına pozulması nəzərdə tutulmuşdur.

Beləliklə, Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında qeyd edilən pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.



# AZAD TRİBUNA

***Səxavət Bəylərli***
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## ***Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqların tənzimlənməsi***

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etməklə ölkədə bütün sahələrin təkmilləşdirilməsinə və inkişafına yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsinə hüquqi əsaslar yaratmışdır. "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan II bölmə 2 fəsildən - 41 maddədən ibarət olmaqla, həcminə görə Əsas Qanunun ən böyük bölməsi olub bu sahədə bundan sonra və hazırda qəbul edilən hüquqi aktların bazasını təşkil edir.

İnsan hüquqları sahəsində siyasətin davamı olaraq gender probleminin həll edilməsi, cəmiyyətdə qadınların rolunun artırılması, ayrı-seçkiliyin aradan qaldırılması, uşaq hüquqlarının müdafiəsi üzrə mühüm qərarlar, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsini nəzərdə tutan İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı, Demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Respublika Kompleks Proqramı qəbul və təsdiq edilmiş, beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanan "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun 22 iyun 2010-cu il tarixdə qəbul olunmuş və 01 oktyabr 2010-cu il tarixdə həmin Qanunun tətbiqi ilə bağlı Fərman imzalanaraq mətbu orqanlarda dərc edilmişdir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun qəbul edilməsinin zəruriliyini şərtləndirən amillərdən birincisi məişət zorakılığı zəminində cəmiyyətdə baş vermiş hadisələr - cinayətlər, intihar halları və s. üzrə statistik rəqəmlər olmuşdur.

Belə ki, Azərbaycan Respublikasında məişət zorakılığı zəminində 2010-cu ildə 109 qadın, 41 kişi qətlə yetirilmiş, həm də bu rəqəm ötən illərdə bu zəmində baş verən cinayətlərlə müqayisədə artmışdır. Bu qətllərin əksəriyyəti qısqanclıq zəminində baş vermiş və 52 qadın məhz bu zəmində

öldürülmüşdür. İkinci yerdə mülkiyyət məsələlərinin ailə daxilində doğurduğu cinayətlər, daha sonra isə borc üstündə yaranan cinayətlər gəlir. Bu qadınların əksəriyyəti ya ərləri, ya keçmiş ərləri, ya da yaxın münasibətdə olduqları şəxslər tərəfindən qətlə yetirilmişlər. Qadınların qayınları, qardaşları, digər qohumları tərəfindən qətlə yetirilməsi kimi hallar da qeydə alınmışdır.

Həmin ildə 41 kişidən yalnız 4-ü qısqanclıq zəminində qətlə yetirilmiş, qalanları isə ailədaxili borc, mülkiyyət məsələlərinin “qurban”ı olmuşlar.

Eyni zamanda, qeyd olunan ildə 263 intihar faktı qeydə alınmışdır ki, bu intiharların müəyyən hissəsi də ailədaxili münaqişələrlə bağlı olmuşdur. Qadınlar arasında 110 intihar və intihara cəhd faktı olmuş və 37 intihar ölümlə nəticələnmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə 2021-ci ildə qeydə alınmış cinayətlər nəticəsində zərərçəkənlərin 1536-sı və ya 6,4 faizi məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərdir. Həmin cinayətlər nəticəsində zərərçəkənlərin sayı əvvəlki ilin göstəricisinə nisbətən 18,2 faiz artmışdır. Onların da 78,5 faizini qadınlar (22,1 faiz artım), 0,7 faizini (1,5 dəfə azalma) isə yetkinlik yaşına çatmayanlar təşkil etmiş, əvvəlki illə müqayisədə bu cinayətlər nəticəsində ölənlərin sayı 8,5 faiz artaraq 64 nəfər (onlardan 46-sı qadınlar) olmuşdur.

Adıçəkilən qanunun qəbul olunmasını şərtləndirən başqa bir amil məişət zorakılığının, xüsusilə də cəmiyyətin zərif cinsi olan qadınlara qarşı yönələn bu aktın yalnız Azərbaycanda deyil, geniş miqyası əhatə edən qlobal problem olmasıdır. Bu problemlə bağlı, cəmiyyətin inkişafının təmin edilməsi məqsədilə Beynəlxalq Millətlər Təşkilatının 18 dekabr 1979-cu ildə qəbul etdiyi “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyası indiyədək qadın hüquqları ilə bağlı qəbul edilmiş ən mükəmməl toplu hesab edilir. Azərbaycan Respublikası sözügedən Konvensiyanı 1995-ci ildə ratifikasiya etmiş, 2001-ci ildə isə qeyd olunan Konvensiyanın 1 saylı Protokolunu imzaladıqdan sonra məişət zorakılığının qarşısının alınması barədə qanunvericilik bazasını yaratmağı öhdəsinə götürmüşdür.

Aydın olduğu kimi məişət zorakılığı heç bir coğrafi sərhəd, irq, din, yaş və s. həddi tanımır və heç bir etnik və ya dini qrup bu bəladan sığortalanmamışdır. Xüsusən qadınlara qarşı zorakılıq dünya miqyaslı bir bəladır və heç bir sivil ölkənin qanununa sığmır. Bu baxımdan məişət

zorakılığı insan haqlarının tapdanması və iki bərabər hüquqlu şəxsdən birinin digəri üzərində haqsız dominantlıq əldə etmək istəyi kimi qiymətləndirilir.

Məlumdur ki, gender bərabərliyi dünyanın xüsusi əhəmiyyət kəsb edən məsələlərindəndir və ailədə məişət zorakılığı insan hüquqlarının pozuntusu olaraq, uzun müddət ərzində qapalı, qadağan olunmuş məsələ kimi qalmışdır, halbuki BMT-nin hesablamaları göstərir ki, ümumiyyətlə, dünyada hər 3-4 qadından biri fiziki zorakılığa məruz qalır. Aparılan bir çox araşdırmalar nəticəsində aşkar olmuşdur ki, hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalmışdır, demək olar ki, dünyada 3 dəqiqədən bir ən azı bir qadın öldürülür. Təsadüfi deyil ki, BMT Baş Assambleyasının 17 dekabr 1999-cu il tarixli qərarı ilə hər il **25 noyabr** qadınlara qarşı zorakılığın ləğv edilməsi üzrə beynəlxalq gün kimi qeyd olunur.

Azərbaycan cəmiyyətində qadına hörmət təməl dəyərlərdən olub, xalqımızın əxlaqının və mental dəyərlərinin dərin qatlarına söykənir. Qadınlara qarşı hər bir zorakılıq halı, o cümlədən məişət zorakılığı halları cəmiyyət tərəfindən həmişə mənfi qarşılanmışdır. Cəmiyyətin bu bəlaya aşkar mənfi münasibətinə və dözümsüzlüyünə, son illərdə Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi təsirli tədbirlərə baxmayaraq, dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da ən çox müdafiəsiz insanlar - qadınlar, o cümlədən uşaqlar, ahıllar və əlilliyi olan şəxslər məişət zorakılığının qurbanlarına çevrilirlər.

Məişət zorakılığını yaradan səbəb və bəzi məqamlarda "bəhanələrin" dairəsi müxtəlifdir. Ancaq şübhəsiz ki, bu cür zorakılığın yaranma mənbəyi cəmiyyətdə kök salmış və ailədə daha qabarıq şəkildə təzahür edən sosial hökmranlıq strukturlarının üzərində dayanır. İnsanları təcavüzkar üsullara əl atmağa hazır vəziyyətə gətirən sosial və psixoloji amilləri nəzərə almadan zorakılığın formalaşma zəminini və mexanizmini müfəssəl başa düşmək isə qeyri-mümkündür. Məişət zorakılığını doğuran səbəb və şəraiti mövcud misallarla təhlil etmək olar.

Məlumdur ki, dünya yaranandan kişi və qadın ailədə hakimiyyət uğrunda mübarizə aparır və Azərbaycanda da məişət zorakılığının səbəblərindən biri və bəlkə də, birincisi budur.

Qayınana-gəlin, baldız-gəlin münasibətləri, iki qadının bir-birini bağışlamaq istəməməsi məişət zorakılığının əsas səbəbləri sırasındadır. Ailənin içərisində bu münasibətlər tənzimlənməlidir. Çünki münaqişələrin böyük əksəriyyətinin əsasında bu durur və vurğulamaq istəyirəm ki, qadın

qadına qarşı daha qəddar və aqressiv olur ki, bu da münaqişənin daha uzun müddət davam etməsinə səbəb olur.

Ailə-məişət zorakılığının digər səbəbi istehlak mədəniyyətinin aşağı olmasından qaynaqlanır.

Erkən yaşda nikaha daxil olan ailədə ər arvadının təhsilini davam etdirməsinə icazə vermirsə, tədricən arvadını öz valideynləri, qohumları, dostları ilə ünsiyyət saxlamağa qoymursa, evdə yemək vaxtında hazır olmayanda qadına səsini qaldırırsa, onu təhqir edirsə, ən pis halda onu döyürsə, onu ətrafdakı cəmiyyətdən tam təcrid edirsə və yaxud onu özündən maddi cəhətdən asılı hala salırsa, qadına ailəiçi xərclər üçün pul vermirsə və ya işə gedəndə qapını kilidləyir, axşam işdəki problemləri, gərginliyi evə gətirib heç nədən olmazın mübahisələr yaradırsa, artıq belə ailələrdə məişət zorakılığını yaradan səbəb, şərait və zəmin mövcuddur. Aydındır ki, bu cür ailələrdə ailə mübahisələri zəminində böyüyən azyaşlı uşaqları sabah sağlam cəmiyyətin nümayəndələri kimi görmək çox çətindir. Çünki daim dava-dalaş mühitində, qorxu-təhdid şəraitində böyüyən uşaqlar gələcəkdə insanlara inamsız olur, cəmiyyətdən təcrid olur, ya da potensial cinayətkarlara çevrilirlər. Çox zaman da özləri öz ailələrində bu cür zorakılığı tətbiq edirlər. Necə deyərlər, arvadını döyən ata, qızının əri tərəfindən döyülməsini normal qarşılayır. Beləcə, cəmiyyət bir zəncirin halqası kimi bağlanan "məişət zorakılığı" adlı cinayətin əsiri olur.

Məişət zorakılığı müasir dövrdə ən geniş yayılmış cinayət xarakterli zorakılıq formalarından biridir. Məişət zorakılığı dedikdə, beynəlxalq termin kimi, ümumi anlamda, ailədaxili zorakılıq başa düşülür. Yəni, bir ailə üzvü digər ailə üzvünü öz nəzarəti altında saxlayır və ya saxlamaq istəyir. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununa əsasən isə məişət zorakılığı dedikdə "yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması" başa düşülür. Burada bu cür fiziki və mənəvi zərərlə nəticələnən zorakılığı törədən şəxs təqsirləndirilən, bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi məişət zəminində fiziki, psixi və cinsi zorakılıq hərəkətləri, eləcə də iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxs isə məişət zorakılığının "qurban"ı - zərərçəkmiş şəxs adlanır. Bu zorakılıq forması həm fiziki, həm də mənəvi zərərlərlə

nəticələnir. Yəni ailədə ər öz arvadını, uşağını qəsdən döyürsə, sağlamlığına zərər vurursa, işgəncə verirsə, bu, fiziki zərər kimi; hədələrlə təhdid edirsə, qorxudursa, başqaları ilə ünsiyyət saxlamağa qoymursa, cəmiyyətdən təcrid edirsə, maddi cəhətdən məhrumiyyətlər yaradırsa və qeyd olunan hallar zərərçəkəndə müəyyən sarsıntılar yaradırsa, bu, mənəvi zərər kimi qiymətləndirilir.

Ancaq məişət zorakılığının təqsirkarları hər zaman kişilər, "qurban"ları isə qadın və uşaqlardır demək olmaz. Ümumiyyətlə, məişət zorakılığının törədilməsini təkcə kişilərə aid etmək qəbuledilməzdir. Ailə münasibətlərinin hər bir fərdi və ya əvvəllər ailə münasibətlərində olmuş hər bir şəxs, yaxın qohum olan ailə üzvləri - ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürənlər və övladlığa götürülmüş şəxslər, habelə birgə yaşadığı hallarda digər qohumlar; nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvad; qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslər, habelə üzərində qəyyumluq və himayəçilik təyin edilmiş şəxslər; qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, həmçinin onlarla birgə yaşayan yaxın qohumlar məişət zorakılığının subyektləridir. Deməli, məişət zorakılığı yalnız ərin arvadına və uşaqlarına qarşı zorakılığı kimi qiymətləndirilmir. Övladın valideynə və ya ananın uşaqlarına, habelə ərinə qarşı zorakılığı və s. də məişət zorakılığı hesab edilir.

Demokratik prinsiplərlə inkişaf edən respublikamız üçün bu Qanunun qəbul edilməsi olduca təqdirəlayiqdir. Qanunda deyilir: "Bu Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir." Qeyd olunan Qanunda yalnız məişət zəminində törədilən fiziki zorakılıq deyil, həmçinin məişət zəminində törədilən psixi, iqtisadi və cinsi zorakılıq da təhlil edilmişdir.

Qanuna əsasən fiziki zorakılıq dedikdə - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması başa düşülür.

Məişət zəminində psixi zorakılıq isə qeyd olunan şəxslərdən birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləridir. Psixoloji zorakılıqda qurban özünə qəsd həddinə qədər çatdırıla bilər.

İqtisadi zorakılıq - subyektlərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləridir.

Məişət zəminində cinsi zorakılıq dedikdə isə Qanunun şamil edildiyi şəxslərdən birinin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsi başa düşülür.

Məişət zorakılığı barədə şikayətlərə baxılmasının nəticələrinə dair qərar Qanunda mühafizə orderi adlandırılmış və qısamüddətli və ya uzunmüddətli olmaqla fərqləndirilmişdir.

Mühafizə orderi - məişət zorakılığı törətmiş şəxsin zərərçəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında aktdır. Qısamüddətli mühafizə orderində məişət zorakılığının təkrar törədilməsi, zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması və zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi məişət zorakılığını törətmiş şəxsə qadağan edilir. Uzunmüddətli mühafizə orderində isə qeyd olunanlarla yanaşı, məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları, yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi, zərərçəkmiş şəxsə tibbi və hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri və mühafizə orderinin tələblərini icra etməyən şəxsin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunmasının izah edilməsi haqqında məlumat nəzərdə tutula bilər.

Məişət zorakılığı barədə şikayətlərə məhkəmədən kənar (Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanlarında və s.) və məhkəmələrdə müxtəlif icraatlarda baxılır.

*Məhkəmədən kənar(icra hakimiyyətində) icraat*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2012-ci il tarixli, 46 nömrəli qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"na əsasən həmin şikayətə məişət zorakılığından zərərçəkmiş şəxsin yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanı tərəfindən baxılır və yalnız

zərərçəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır.

Dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və tibb müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri zərərçəkmiş şəxsin yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanına təqdim edirlər.

Məişət zorakılığı üzrə araşdırmanın aparılmasına aşağıdakılar səbəb ola bilər:

- zərər çəkmiş şəxsin özünün və ya onun ailə üzvlərinin şikayəti;
- fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya tibb müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər.

Şikayətə icra hakimiyyəti orqanında 5 (beş) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir. Həmin müddətdə ilkin araşdırma aparılmalı, məişət zorakılığı faktının mövcudluğu aşkar edildikdə, zərərçəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görülməli və məişət zorakılığı halının aradan qaldırılması ilə bağlı gələcək fəaliyyət müəyyən edilməlidir.

Araşdırma aparmaq üçün əlavə materiallar tələb etmək və ya əlavə xüsusatları öyrənmək lazım gəldiyi hallarda, müddət 5 (beş) gündən çox olmayaraq uzadıla bilər.

Məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatda göstərilən halların müəyyən edilməsi məqsədi ilə tərəflər ayrılıqda dinlənilir və müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparılır.

Zərərçəkmiş şəxsin tələbi ilə dinləmədə vəkil və psixoloqun iştirakı təmin edilir. Dinlənilən şəxs Azərbaycan dilini bilmədikdə, tərcüməçidən istifadə olunur.

Məişət zorakılığından zərərçəkmiş şəxslərdən biri 16 yaşınadək və ya sağlamlıq imkanları məhdud şəxs olduqda, aparılan araşdırma və dinləmələrdə pedaqoqun və ya psixoloqun iştirakı təmin edilməlidir.

Araşdırma zamanı müraciət etmiş şəxsə onun hüquqları, zorakılığı törədən şəxsin məsuliyyətə cəlb edilməsi, habelə bu məsələ ilə bağlı məhkəməyə müraciət qaydası izah edilir, zərərçəkmiş şəxsə hüquqi yardım

göstərilir, yardım mərkəzində müvəqqəti sığınacaqla, mövsümi geyim və qida məhsulları ilə, tibbi və psixoloji yardımla təmin edilir.

Araşdırmanı aparan orqan tərəfindən tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olunmasına kömək göstərilməli, habelə məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə bağlı tədbirlər həyata keçirilməlidir.

Şikayətlərə baxılmasının nəticələrindən asılı olaraq, aşağıdakı qərarlardan biri qəbul olunur:

- məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə cinayət və inzibati məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərərçəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;
- məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;
- əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;
- zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;
- zərərçəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.

Məişət zorakılığı törətmiş şəxsin hərəkətləri cinayət məsuliyyəti yaratmadıqda, lakin bu hərəkətlər nəticəsində zərərçəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilə və zərərçəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilə bilər.

Müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edilir və dərhal zərərçəkmiş şəxsə 30 (otuz) gün müddətinədək qısamüddətli mühafizə orderi verilir.

Məişət zorakılığı ilə bağlı verilmiş xəbərdarlığın icrasına bu barədə qərar qəbul etmiş orqan tərəfindən nəzarət edilir. Xəbərdarlığın icrasına nəzarət məişət zorakılığı törətmiş şəxsin hərəkətlərinin diqqət mərkəzində saxlanılması, habelə onunla və zərərçəkmiş şəxslə söhbətlərin aparılması formasında həyata keçirilir.

Xəbərdarlıq edilməsindən məhkəməyə şikayət verilə bilər.

Məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması, zərərçəkmiş şəxslərə yardımın göstərilməsi zamanı məlumatların konfidensiallığı, şəxsi və ailə sirrinin yayılmaması təmin edilməlidir.

Məişət zorakılığı ilə bağlı məlumatlar yalnız Azərbaycan Respublikasının "İnformasiya əldə etmək haqqında" və "Fərdi məlumatlar haqqında" qanunları ilə müəyyən edilmiş hallarda və qaydada verilə bilər. Məişət zorakılığı ilə bağlı statistik məlumatlar adsızlaşdırılmış şəkildə açıqlanmalıdır.

Qısamüddətli mühafizə orderinin tələblərinə əməl edilməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər.

*Mülki icraat*

24 iyun 2011-ci il tarixdə qəbul olunaraq 02 avqust 2011-ci il tarixdə dərc edilmiş "Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qeyd olunan Məcəlləyə "Məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraat" başlıqlı 40-1-ci fəsil (355-1 - 355-4 mad.) əlavə olunmuş və həmin işlərə xüsusi icraat qaydasında baxılması müəyyən edilmişdir.

Azərbaycan Respublikasının mülki prosesi üçün kifayət qədər yeni olan bu institut konkret mülki işlərin qısa müddətdə həll edilməsinə imkan verdiyindən mühüm təcrübi əhəmiyyətə malikdir.

Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərərçəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə zərərçəkmiş şəxsin yaşadığı (olduğu) yer üzrə verilir.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizədə məişət zəminində qəsdən törədilən fiziki, psixi və ya cinsi zorakılıq və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi nəticəsində zərərçəkmiş şəxsə fiziki və ya mənəvi zərər vurulmasını təsdiq edən hallar şərh edilməli, ərizəçinin xahişi göstərilməlidir.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 3 gün müddətində baxılmalıdır.

Ərizəyə MPM-in 185-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, məişət zorakılığından zərər çəkmiş şəxsin və məişət zorakılığını

törətmiş şəxsin iştirakı ilə baxılır. Ərizəyə baxılmasında məişət zorakılığı ilə bağlı araşdırmanı aparmış dövlət orqanının nümayəndəsinin iştirakı məcburidir.

Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qapalı məhkəmə iclasında baxılır.

İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamə qəbul edildikdən dərhal sonra məhkəmə iclasında elan olunur və qətnamənin surəti tərəflərə verilir.

Uzunmüddətli mühafizə orderi 30 gündən 180 günədək müddətə verilir.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qətnaməsi qanunvericiliyə uyğun olaraq qüvvəyə minir, müddəti hesablanır və icraya yönəldilir.

Həmin qətnamədən şikayət verilə bilər, lakin yuxarı instansiya məhkəməsinə şikayətin verilməsi mühafizə orderi üzrə qərarın icrasını dayandırmır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 234.2.2-ci maddəsinin tələbinə əsasən məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında qətnamələr dərhal icra olunur.

“İcra haqqında” Azərbaycan Respublikası Qanununun 13.1.5-ci maddəsinə əsasən qısamüddətli mühafizə orderi və məişət zorakılığından zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında məhkəmə qərarları əsasında verilən icra vərəqələri dərhal icra olunur.

*İnzibati xəta icraatı*

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində (İXM) məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə 157-158-ci maddələrdə məhdud şəkildə məsuliyyət müəyyən edilmişdir. Belə ki, burada döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə cərimə və ya inzibati həbs, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə

edilməsinə yönəlmiş hərəkətlərə; məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə; məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyadan keçmədən fəaliyyət göstərməsinə görə cərimələr müəyyən olunmuşdur.

*Cinayət icraatı*

Məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır. Həmin cinayətlər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127-ci (qəsdən sağlamlığa az ağır zərər vurma), 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma), 133-cü (əzab vermə), 134-cü (öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə), 149.1-ci (zorlama), 150.1-ci (seksual xarakterli zorakılıq hərəkətləri), 151-ci (seksual xarakterli hərəkətlərə məcbur etmə) və s. maddələrində nəzərdə tutulmuş ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərdir. Azərbaycan Respublikası CPM-in 207.2-ci maddəsinə görə isə ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər haqqında məlumatlara baxarkən həmin cinayətlərdən zərərçəkmiş şəxslərin şikayəti olduğu halda yoxlama aparıla bilər.

Cinayət təqibinin həyata keçirilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş vəzifələrlə yanaşı, məişət zorakılığı barədə məlumat təsdiqləndikdən sonra aşağıdakı tədbirlər görülməlidir:

- zərurət olduqda zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya və psixoloji korreksiya kursunun aparılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərmək;
- məişət zorakılığının yaranmasına səbəb olan halları aşkar etmək və onların qarşısını almaq istiqamətində tədbirlər görmək;
- məişət zorakılığının qarşısının alınmasını, onun təkrarlanmamasını, araşdırmanın aparıldığı müddətdə zərər çəkmiş şəxsin təhlükəsizliyini təmin etmək;
- araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək;

- məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və onlarla tərbiyəvi-qabaqlayıcı işin aparılması üçün tədbirlər görmək;

- məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını izah etmək;

- zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək;

- məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək;

- zəruri hallarda məişət zorakılığı barədə şikayətlər üzrə araşdırmanı aparan digər dövlət orqanına kömək göstərmək.

*Avropa Məhkəməsində icraat*

Avropa İnsan Hüquqları Konvensiyasının şəxsi və ailə həyatına hörmət hüququnu tənzimləyən 8-ci maddəsində “ailə” anlayışı Avropa Məhkəməsi tərəfindən avtonom (dövlətlərin milli hüquq sistemlərində istifadə edilən kateqoriyalardan asılı olmayan) şəkildə şərh edilir. Məhkəmə qeyd edir ki, ailə həyatının mövcudluğu faktiki məsələdir və yaxın şəxsi əlaqələrin mövcudluğundan asılıdır. Məhkəmənin hüquq tətbiqetmə təcrübəsinə əsasən ailə dedikdə, evliliyə uyğun olan birgə yaşayışdan əlavə, cütlüklərin nikahdan kənar birlikdə yaşadığı de-fakto münasibətlər də nəzərdə tutulur.

Avropa İnsan Hüquqları Məhkəməsi məişət zorakılığı ilə bağlı işlərə baxarkən Avropa Konvensiyasının müddəalarını şərh etmək üçün həm də qadın hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq sənəd olan “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanı və Avropa Şurası tərəfindən 11 may 2011-ci ildə qəbul edilmiş “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyanı (İstanbul Konvensiyası) tətbiq edir.

“Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında” Konvensiya müəyyən edir ki, “cinsi ayrı-seçkiliyə söykənən zorakılıq, qadının öz hüquq və azadlıqlarını kişilərlə bərabər şəkildə istifadə etmək qabiliyyətini ciddi şəkildə əngəlləyən bir ayrı-seçkilik formasıdır”.

İstanbul Konvensiyasında təkcə zərərçəkənlərin pozulmuş hüquqlarının müdafiəsi deyil, eyni zamanda, qadınların zərərçəkmiş şəxsə çevrilməməsi üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. Bu Konvensiyanın 3-cü maddəsinin "b" bəndinə əsasən "ailədaxili zorakılıq" ailə və ya məişət daxilində, cinayətkarın və zərərçəkənin bir evdə birgə olub-olmamasından asılı olmayaraq keçmiş və ya indiki həyat yoldaşı və ya partnyoru arasında baş verən bütün fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıq aktlarını əhatə edir.

*Məişət zorakılığının Konvensiyada nəzərdə tutulan hüquqların pozulmasına səbəb olduğu hallar*

Avropa Məhkəməsi məişət zorakılığını Konvensiyanın müxtəlif maddələri ilə əhatə oluna bilən pozuntu kimi müəyyən edir. Presedent hüququnu təhlil etdikdə, Konvensiyanın fərdin yaşamaq hüququnu tənzimləyən 2-ci, işgəncəni qadağan edən 3-cü, şəxsi və ailə həyatına hörmət hüququnu tənzimləyən 8-ci, səmərəli hüquqi müdafiə vasitələrindən istifadə ilə bağlı 13-cü, ayrı-seçkiliyi qadağan edən 14-cü, ər və arvadın bərabər hüquqlarını tənzimləyən 7 saylı protokolun 5-ci, ayrı-seçkiliyə ümumi qadağanı nəzərdə tutan 12 saylı protokolun 1-ci maddələrinin məişət zorakılığı halları nəticəsində daha çox pozulduğu ortaya çıxır.

*Ayrı-seçkiliyin qadağası*

"Opuz Türkiyəyə qarşı" iş üzrə 9 iyun 2009-cu il tarixli qərarında Avropa Məhkəməsi ilk dəfə olaraq ayrı-seçkiliyin qadağan olunmasını tənzimləyən 14-cü maddənin 2 və 3-cü maddələri ilə birlikdə pozulduğuna qərar vermişdir. Məhkəmə bu işdə qeyd edib ki, ərizəçinin təqdim etdiyi və cavabdeh dövlətin də etiraz etmədiyi statistik məlumatlar Türkiyədə məişət zorakılığının birbaşa olaraq qadınlara istiqamətləndiyini və yerli məhkəmə sisteminin ümumi və ayrı-seçkilik xarakterli passivliyi məişət zorakılığının davam etməsinə səbəb olan mühit yaratmışdır. Məhz buna görə də ərizəçinin və anasının məruz qaldığı zorakılıq gender əsaslı və qadınlara qarşı ayrı-seçkiliyə səbəb olan hüquq pozuntusu hesab edilib.

*Gender bərabərliyi*

Məhkəmə qərarlarında qeyd olunur ki, gender bərabərliyinin pozulması Konvensiyanın tələblərinə ziddir və cinsə görə fərqli rəftar yalnız əsaslı səbəblər göstərilərsə, insan haqları pozuntusu kimi nəzərə alınmaya bilər. Məsələn, "Konstantin Markinin Rusiyaya qarşı" işi üzrə 22 mart 2012-ci il tarixli qərarda məhkəmə qeyd etmişdir ki, "…hazırda gender bərabərliyinin təşviqi Avropa Şurasına üzv olan dövlətlərdə əsas

məqsədlərdən birini təşkil edir və cinsə görə fərqli rəftarın Konvensiyaya uyğun hesab edilə bilməsi üçün olduqca əsaslı səbəblər göstərilməlidir. Konkret olaraq, ölkədəki ənənələrə, ümumi baxışlara və ya üstünlük təşkil edən sosial yanaşmalara istinadlar bu baxımdan kifayət etmir."

Məhkəmə bu iş üzrə qərarında belə bir nəticəyə gəlmişdir ki, "… cinsiyyətə əsaslanan stereotiplər, patriarxal ənənələr, tarixi və coğrafi qəliblər sözügedən fərqli rəftarın əsaslandırılması üçün yetərli və ağlabatan yanaşma deyildir."

*Məişət zorakılığının səbəb olduğu 8-ci maddə (şəxsi və ailə həyatı hüququ) üzrə pozuntu halları*

8-ci maddənin tələblərinə əsasən fərdin şəxsi həyat və ailə həyatının müdafiəsi ilə bağlı tədbirlərin vaxtında və effektiv şəkildə həyata keçirilməsi və fərdin fiziki və psixoloji toxunulmazlığının qorunması dövlətin pozitiv öhdəliyini təşkil edir. Buraya eyni zamanda, şəxsi yazışmalar və ailə sirrinin üçüncü şəxslərdən qorunması və kiberhücumların (məsələn: kiberbulinq) bütün formalarından müdafiə də daxildir.

Məsələn, "Hajduova Slovakiyaya qarşı" işdə ərizəçi əri tərəfindən psixoloji və fiziki hücumlara məruz qalmış qadın idi və iddia edirdi ki, hakimiyyət onu ərinin zorakılığından qoruya bilməyib. Ərizəçi bildirmişdir ki, ərinin psixiatrik xəstəliyinə görə müalicə alması üçün ekspert rəyi ilə yerli məhkəməyə müraciətinə baxmayaraq, ərinin psixiatriya müəssisəsinə yerləşdirilməsinə qərar verilmədiyi üçün əri tərəfindən zorakılığa məruz qalmaqda davam edib. Avropa Məhkəməsi bu iş üzrə 30 noyabr 2010-cu il tarixli qərarında qeyd etdi ki, ərinin psixiatriya müəssisəsinə yerləşdirilməsindən imtinaya dair daxili məhkəmənin qərarı dövlətin Konvensiyanın 8-ci maddəsi üzrə pozitiv öhdəliklərinə ziddir.

Məişət zorakılığı ilə bağlı digər - "Bevacqua və S. Bolqarıstana qarşı" işdə ərizəçi qadın tərəfindən ərinin ona qarşı təhqiramiz ifadələr işlətməsi, döyməsi, psixoloji, fiziki və iqtisadi zorakılığa məruz qoyması ilə bağlı iddialar olmuşdur. Məhkəmə bu iş üzrə 12 iyun 2008-ci il tarixli qərarında qərara almışdır ki, ərizəçinin əri ilə bağlı şikayətlərinə lazımi qaydada baxılmadığından, Bolqarıstan hakimiyyəti Konvensiyanın 8-ci maddəsi ilə müəyyən edilən pozitiv öhdəliklərini pozmuşdur. Bolqarıstan hökümətinin bu işdə ərizəçinin əri tərəfindən zorakılığa məruz qalmasını şəxsi məsələ hesab etməsi Avropa Məhkəməsi tərəfindən qəbul edilməmiş, belə bir arqumentin iştirakçı dövlətlərin 8-ci maddə üzrə öhdəlikləri ilə bir araya sığmadığı vurğulanmışdır.

Hər bir zorakılıq əməli, o cümlədən məişət zorakılığı insanların hüquqlarının ciddi pozuntusu hesab edilməli və təsirli məsuliyyətə səbəb olmalıdır. Məişət zorakılığı ailələr və bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional, maliyyə və sosial nəticələr doğurur. Odur ki, səlahiyyətli dövlət orqanlarının bu məsələyə adekvat münasibət göstərməsi son dərəcə zəruridir.

Bu problemin hazırkı vəziyyəti onu göstərir ki, problem yalnız inzibati və hüquqi yolla aradan qaldırıla bilməz. Burada təbliğat, maarifləndirmə işləri genişləndirilməli, məhkəmə və hüquq-mühafizə orqanları bu sahədə həm qanunların icrası prosesinə nəzarət etməli, həm də qanunun nəzərdə tutduğu tədbirlər daha çevik həyata keçirilməli, ailədə olan hər iki tərəfin təfəkkürünün dəyişməsi, ailə münasibətlərinə yönəlik tədbirlər olmalıdır ki, burada da bütün cəmiyyət dövlətlə birlikdə iştirak etməlidir. Məhz bu baxımdan məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün preventiv (qabaqlayıcı) tədbirlərin gücləndirilməsi, zorakılıqdan zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması, həmin şəxslərin aşkarlanması və erkən identifikasiyası, onlara təxirəsalınmaz və hərtərəfli yardım göstərilməsi, bunun üçün beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun yaradılması, məişət zorakılığı ilə mübarizə sahəsində dövlət orqanlarının (qurumlarının) potensialının artırılması, qeyri-hökumət təşkilatlarının dəstəklənməsi, uzunmüddətli və kompleks yanaşmanın təmin edilməsi məqsədi ilə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" hazırlanıb Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir və hazırda müvafiq tədbirlər həyata keçirilir.

***İstifadə olunmuş normativ-hüquqi aktların, hüquqi ədəbiyyat və internet resurslarının siyahısı:***


1. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
3. "İcra haqqında" 27 dekabr 2001-ci il tarixli AR Qanunu
4. "Məişət zorakılığının qarşısının alınması haqqında" 22 iyun 2010-cu il tarixli AR Qanunu
5. AR Nazirlər Kabinetinin 24 fevral 2012-ci il tarixli 46 nömrəli qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"
6.AR Nazirlər Kabinetinin 25 aprel 2012-ci il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığından zərərçəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası"
7. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı
8. http://www.who.int/news-room/fact-sheets/detail/violence-against-women WHO 2013
9.https://echr.coe.int/Documents/FS_Dom



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

**2022-ci ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi**

İyul ayının 22-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmişdir. İclasda 2022-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev ölkəmizdə insan hüquqlarının təmin olunması və müasir standartlara cavab verən məhkəmə-hüquq islahatlarının aparılmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmasını qeyd edərək, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan danışmışdır.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirmişdir ki, əvvəlki illərdə olduğu kimi bu ildə də



Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, eləcə də qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işlərinin aparılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Ali Məhkəmənin sədri muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş mülki və digər işlər üzrə çıxarılmış qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətlərinin nəticələrini və Naxçıvan Muxtar Respublikası Ali

Məhkəməsinin kassasiya şikayəti verilmiş qərarlarının sabitlik göstəricilərini ətraflı təhlil etmişdir.

Daha sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədrlərinin 2022-ci ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev yekun vuraraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi bundan sonra da ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının keyfiyyətli ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

≈≈≈

"Şuşa İli" çərçivəsində iyulun 25-də Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə regional apellyasiya məhkəmələrinin 15 illiyinə həsr olunmuş "Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatlarının mütərəqqi nəticələri" mövzusunda Şuşa konfransı keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev məhkəmə-hüquq islahatlarına həsr olunan Şuşa konfransında iştirak etmişdir.

Bu münasibətlə Şuşa şəhərinə səfər edən konfrans iştirakçıları - ədliyyə işçiləri, hakimlər və ictimaiyyət nümayəndələri yolboyu erməni vəhşiliklərinin canlı şahidi olub, büsbütün dağıdılmış torpaqlarımızda aparılan misilsiz quruculuq işlərindən fəxarət hissi duymuşlar.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Məhkəmə-Hüquq Şurasının üzvləri, Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun, Vəkillər Kollegiyasının rəhbər şəxsləri, apellyasiya instansiyası məhkəmələrinin sədrləri, Qarabağ və Şərqi Zəngəzur üzrə ədliyyə və məhkəmə orqanlarının rəhbərləri, vətəndaş cəmiyyəti təmsilçiləri iştirak etmişlər.

Əvvəlcə Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Çıxış edən ədliyyə naziri konfrans iştirakçılarını Şuşada salamlamaqdan məmnunluğunu ifadə edərək doğma torpaqlarımızın Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, qəhrəman zabit və əsgərlərimizin ölçüyəgəlməz igidliyi sayəsində işğaldan azad edildiyini, göstərdikləri rəşadətə görə minlərlə hərbçilərimizin orden və medallarla təltif olunduğunu qeyd edib, ədliyyə və məhkəmə işçilərinin də döyüşlərdə fəal iştirak edərək şücaət və fədakarlıq nümayiş etdirdiklərini, müharibəyə könüllü yollanan nazirliyin əməkdaşının şəhid olduğunu vurğulamışdır.



Bildirmişdir ki, şəhid ailələrinin, qazilərin qayğıları ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Həmin şəxslərin problemlərinə həssas münasibət hər bir kəsin vətəndaşlıq borcudur.

Dövlət başçısı və birinci xanım tərəfindən azad olunmuş bölgələrə müntəzəm səfərlər edilərək nəhəng quruculuq işlərinin aparıldığı, artıq sabiq məcburi köçkünlərin doğma torpaqlarımızda məskunlaşmağa başladığı qeyd edilərək Ağalı kəndinin sakinlərinin yeni inşa olunmuş “Ağıllı kəndə” köçməsi ilə Böyük Qayıdışın əsasının qoyulduğu diqqətə çatdırılmışdır.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi məhkəmə-hüquq islahatlarına toxunularaq, 2000-ci ildən fəaliyyət göstərən yeni, üçpilləli məhkəmə sisteminin, o cümlədən apellyasiya instansiyasının ötən dövrdə ədalət mühakiməsinə əlçatanlığın genişləndirilməsi məqsədilə təkmilləşdirildiyi, 35 məhkəmənin, xüsusilə 5 regional apellyasiya məhkəməsinin yaradıldığı vurğulanmışdır. 15 illiyi qeyd olunan həmin məhkəmələrin məhkəmə səhvlərinin aradan qaldırılmasında və müvafiq məhkəmə təcrübəsinin formalaşmasında mühüm rolu qeyd olunmuşdur.

“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” dövlət başçısının 3 aprel 2019-cu il tarixli proqram xarakterli Fərmanı xüsusi qeyd edilərək onun icrası çərçivəsində görülən kompleks qanunvericilik, institusional və praktiki tədbirlər barədə məlumat verilmiş,

məhkəmə islahatlarımızın beynəlxalq maraq doğuraraq təqdir olunduğu vurğulanmışdır.

Ali Məhkəmənin sədri Ramiz Rzayev məhkəmə fəaliyyətinin müasirləşdirilməsi istiqamətində görülən tədbirlərdən danışaraq, 3 aprel tarixli Fərmana uyğun olaraq vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə qanunvericiliyin təkmilləşdirildiyi, kassasiya instansiyası məhkəməsində işlərə baxılmasının xüsusiyyətləri barədə məlumat vermişdir.

Tədbirdə, həmçinin Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov, Qarabağ regional ədliyyə idarəsinin rəhbəri Sübhi Kazımov, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev və digərləri çıxış etmiş, məhkəmə fəaliyyətinin müasirləşdirilməsi, vətəndaş məmnunluğunun artırılması və əlçatanlığın yaxşılaşdırılması, o cümlədən ölkə Prezidentinin yenicə təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası üzrə qarşıda duran vəzifələr müzakirə olunmuşdur.

Yekunda konfrans iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul edilmiş, azad edilmiş torpaqlarda olmağın sevincini bəxş etdiyinə görə dövlətimizin başçısına dərin ehtiram ifadə olunmuşdur.

≈≈≈

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev Məhkəmə-Hüquq Şurasının iclasında iştirak etmişdir. İclasda dövlət başçısının 29.09.2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması böyük məmnuniyyətlə vurğulanaraq bu mühüm tarixi qərarın Heydər Əliyev irsinin öyrənilməsi və təbliği baxımından müstəsna əhəmiyyəti qeyd olunub, qarşıda duran vəzifələr müəyyən edilmişdir.



Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov müasir müstəqil dövlətimizin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan tarixində misilsiz rolundan, onun keçdiyi ibrətamiz həyat yolundan bəhs etmişdir.

Bildirilmişdir ki, müasir hüquq sistemimizin formalaşması və inkişafı dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin müəllifliyi ilə ilk milli Konstitusiya qəbul olunaraq bütün sahələrdə islahatlar aparılması üçün müvafiq komissiyalar yaradılıb. Hüquqi islahatlara müstəsna əhəmiyyət verən dahi öndər bu məqsədlə yaradılan Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürüb.

Hüquq sistemimizin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunların qəbulu, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sisteminin yaradılması və digər mütərəqqi tədbirlər Ulu Öndərin misilsiz fəaliyyətinin təzahürü olub. 2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlərin şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə seçkisi aparılaraq hakim korpusu 60 faiz təzələnib.

Ümummilli Liderin xalqımız qarşısındakı ən böyük xidmətinin özünün siyasi varisini ərsəyə gətirməsi olduğunu diqqətə çatdıran Şuranın sədri ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müasir Azərbaycanımızı qüdrətli dövlətə çevirdiyini, Vətən müharibəsində parlaq qələbəmizlə doğma torpaqlarımızı işğaldan azad etməklə Ulu Öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdiyini vurğulamışdır.

Dahi liderin mütərəqqi ideyalarının və zəngin irsinin yaşadılmasında və geniş təbliğində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun mühüm xidmətləri xüsusi qeyd olunmuşdur.

Şurada təməli Ümummilli Lider tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarının ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müasir çağırışlara uyğun dərinləşdirilərək kompleks tədbirlər görüldüyü bildirilmişdir.

“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” ölkə Prezidentinin 03.04.2019-cu il tarixli proqram xarakterli Fərmanının icrası çərçivəsində görülən işlərə toxunularaq cəza siyasətinin humanistləşdirilməsi, “Elektron məhkəmə” informasiya sisteminin geniş tətbiqi, yeni ixtisaslaşdırılmış məhkəmələrin yaradılması, özəl ekspertizanın və mediasiya fəaliyyətinin təsbit edilməsi ilə bağlı və digər əməli işlər qeyd olunmuşdur.

Dövlət başçısının kadr islahatlarına və gəncləşmə siyasətinə uyğun olaraq son iki ildə məhkəmə sistemində kadr korpusundan səmərəli istifadə edilərək rəhbər hakim vəzifələri üzrə 50-dək mühüm təyinatlar aparılmışdır.

Eyni zamanda ötən dövrdə yeni nəsil hakim korpusunun formalaşdırılması məqsədilə hakimlərin seçilməsi qaydası təkmilləşdirilərək, bu proses fasiləsiz xarakter alıb, 1200-dək hakimliyə namizədlə şəffaf prosedurlarla seçim keçirilib. Bu çoxmərhələli prosesi, o cümlədən Ədliyyə Akademiyasında uzunmüddətli tədris və məhkəmələrdə təcrübəni uğurla başa vurmuş 80-dən çox şəxs müxtəlif hakim vəzifələrinə təyin edilib. Hazırda 300-dək hakimliyə namizəd isə müsabiqənin müxtəlif mərhələsində, o cümlədən 40-dan çox namizəd təyinat ərəfəsindədir.

İclasda bütün hakim korpusunun 80%-nin məhz bu yeni üsullarla seçilərək təyin olunmuş hakimlər təşkil etdiyi, bununla məhkəmə sisteminin tərkibinin həmçinin gəncləşdiyi vurğulanmışdır.

Hakimlərin məsuliyyət hissinin artırılması məsələləri də daim diqqətdə saxlanılıb, hakim adına layiq olmayan şəxslər məhkəmə sistemindən kənarlaşdırılıb. Dövlət başçısının qeyd olunan Fərmanına əsasən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı qəbul olunmuş yeni Qaydalarının bu sahədə səmərəli mexanizm rolunu oynadığı bildirilərək ötən il 230-dək hakimin fəaliyyətinin qiymətləndirildiyi və peşəkar çatışmazlıqlar aşkar edilən 10 hakimin səlahiyyətlərinə xitam verildiyi diqqətə çatdırılmışdır.

Şurada daha 90-dək hakimin fəaliyyətinin qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Fəaliyyətində peşəkar çatışmazlıqlar aşkar edilən 9 hakimə işində dönüş yaratmaları üçün 6 ay vaxt verilib. Apellyasiya məhkəməsinin 2 hakiminin səlahiyyətlərinə ərizələrinə əsasən vaxtından əvvəl xitam verilib.

İclasda həmçinin, hakimlər haqqında başlanılmış intizam icraatlarına baxılaraq qanunvericiliyin tələblərini kobudcasına pozduqlarına, korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə, çəkişmə prinsipinə tam əməl etmədiklərinə və digər nöqsanlara görə 8 hakim intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən 1 nəfərin hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, 1 nəfərin isə tutduğu vəzifədən azad edilməsi ilə bağlı qərarlar qəbul edilmişdir.

Vətəndaşların haqlı narazılığını doğuran hallara, süründürməçiliyə və digər qanun pozuntularına yol verilməsinə görə apellyasiya və birinci instansiya məhkəmələrinin bəzi hakimləri barədə intizam icraatları başlanılmışdır.

≈ ≈ ≈

Noyabrın 14-dən 18-dək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində tələbələr üçün "Məhkəmə-hüquq islahatları mövzusunda gənclərin maarifləndirilməsi" layihəsi həyata keçirilmişdir. Həftə ərzində davam edən layihənin məqsədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın icrası istiqamətində məhkəmə-hüquq sistemində reallaşdırılan islahatlar barədə hüquqşünas tələbələri maarifləndirmək olmuşdur.



Naxçıvan Dövlət Univerisitetinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə həyata keçirilən layihə çərçivəsində tələbələr öz seçimlərinə müvafiq olaraq Ali Məhkəmənin struktur bölmələri ilə tanış olmuş, məhkəməyə daxil olan sənədlərin, cinayət, mülki, inzibati və sair işlərin, materialların qeydiyyatı, rəsmiləşdirilməsi, formalaşdırılması, göndərilməsi və vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında məlumatlandırılmışlar.



Layihənin ikinci günü Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri Polad Həsənov tərəfindən "Məhkəmə etikası, məhkəmədə davranış qaydaları" mövzusunda təlim keçilmiş, mövzu ətrafında tələbələrin ünvanladıqları suallar cavablandırılmış, onları maraqlandıran məsələlərə dair geniş izahlar verilmişdir.

Növbəti gün Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Fərman Abbasov tərəfindən "Məhkəmə-hüquq sistemində islahatlar" mövzusunda təlim keçilmiş, tələbələrə dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə ölkədə aparılan məhkəmə-hüquq islahatları barədə geniş məlumatlar verilmiş, onları maraqlandıran suallar hakim tərəfindən cavablandırılmışdır.

Layihə çərçivəsində Ali Məhkəmənin əməkdaşı tərəfindən “Elektron məhkəmə” informasiya sistemi, ondan istifadə qaydaları, məhkəmələrə ərizə və şikayətlərin elektron məhkəmə informasiya sistemi ilə verilməsi” mövzusunda slaydların müşayiəti ilə əyani təqdimat baş tutmuş, təqdimat vasitəsilə layihə iştirakçıları “Elektron məhkəmə” informasiya sisteminin iş prinsipləri, sistemdən istifadə qaydaları, işlərə kağızsız elektron qaydada baxılmasının hüquqi əsasları barədə məlumatlandırılmışlar.

Layihə çərçivəsində həmçinin tələbələrin məhkəmə iclaslarında iştirakları təmin olunmuşdur.

Qeyd edək ki, layihənin məqsədi hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin həftə ərzində biliklərinin təkmilləşdirilməsi, onlarda nəzəri biliklərin təcrübədə istifadəsi vərdişləri yaratmaqla yanaşı gələcəyin hüquqşünaslarına peşə vərdişlərini aşılamaq və peşəkar kadrlar kimi yetişmələrinə töhvə verməkdir.

≈≈≈

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin birgə təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası və Naxçıvan Mediasiya Təşkilatının iştirakı ilə “İnsan Hüquqları Günü” münasibətilə 1 günlük ödənişsiz hüquqi yardım aksiyası həyata keçirilmişdir.



Muxtar respublika sakinlərinin ödənişsiz hüquqi yardım almalarına köməklik göstərmək məqsədilə Naxçıvan şəhər, Babək və Şahbuz rayon sakinləri üçün Naxçıvan Şəhər Məhkəməsində, Sədərək, Şərur və Kəngərli rayon sakinləri üçün Şərur Rayon Məhkəməsində, Ordubad və Culfa rayon sakinləri üçün isə Culfa Rayon Məhkəməsində təşkil olunan aksiya zamanı 45 sakinə vəkil və mediasiya xidmətləri göstərilmiş, onları maraqlandıran suallar cavablandırılmış, qanunvericiliyin müddəaları izah edilmiş, yazılı və şifahi məsləhətlər verilmişdir.

≈≈≈

Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev iclasda iştirak etmişdir. Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən işlər, mühüm qanunvericilik və institusional tədbirlər qeyd olunmuşdur.

Bildirilmişdir ki, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı məhkəmə fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçməsini şərtləndirib. Fərmanın icrası çərçivəsində məhkəmələrə əlçatanlıq yaxşılaşdırılıb, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi genişləndirilib, məhkəmə icraatında çevikliyin və şəffaflığın təmin edilməsi üzrə qanunvericiliyə mühüm dəyişikliklər edilib. Özəl ekspertiza və mediasiya kimi yeni institutların təsbiti, habelə sistem xarakterli nöqsanların aşkar edilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üzrə əlavə mexanizmlərin yaradılması mühüm əhəmiyyət kəsb edib.

Fərmanın icrası çərçivəsində həmçinin, hakimlərin fəaliyyətinin qiymətləndirilməsinə dair yeni, daha təkmil Qaydalar qəbul edilib. Ötən dövrdə 300-dən çox hakimin fəaliyyəti həmin şəffaf qaydalar əsasında qiymətləndirilib, 30 hakimin işində peşəkar çatışmazlıqlar müəyyən edilib, onlardan 10 nəfərin səlahiyyətlərinə xitam verilib.

Fərmanla ayrılmış əlavə 200 yeni hakim ştatının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına və çevik komplektləşdirilməsi məqsədilə hakimlərin seçilməsi qaydaları təkmilləşdirilərək bu proses davamlı xarakter alıb.

1200-dək hakimliyə namizədlə şəffaf prosedurlarla seçim keçirilib. Bu çoxmərhələli prosesi, o cümlədən Ədliyyə Akademiyasında uzunmüddətli tədris və məhkəmələrdə təcrübəni uğurla başa vurmuş 83 nəfər müxtəlif hakim vəzifələrinə təyin edilib. Hazırda 250-dən çox hakimliyə namizəd seçim prosesinin müxtəlif mərhələsindədir.

40 namizəd isə müsabiqəni uğurla başa vuraraq ixtisaslaşmanın aparılması üçün Hakimlərin Seçki Komitəsi tərəfindən Məhkəmə-Hüquq Şurasına təqdim edilib.

Hakimlərin seçimi Qaydalarına uyğun olaraq Şuranın bir neçə gün davam edən iclaslarında həmin namizədlərin hər biri ilə fərdi söhbətlər keçirilmişdir. Onların təyinatı ilə bağlı dövlət başçısına müvafiq təkliflərin verilməsi qərara alınmışdır.

Bununla yanaşı məhkəmə sistemində həyata keçirilən kadr islahatlarına və hakim korpusunun fəaliyyətinin qiymətləndirilməsi nəticələrinə uyğun olaraq yüksək hazırlığı və peşəkarlığı ilə fərqlənən hakimlər ali və apellyasiya məhkəmələrinə, habelə rəhbər hakim vəzifələrinə irəli çəkilməsi üçün müəyyən edilmişdir. İş yerinin dəyişdirilməsi ilə bağlı bəzi hakimlərin müraciətlərinə, hakim kadrlarından daha səmərəli istifadə edilməsi ilə bağlı məsələlərə baxılmışdır.

Eyni zamanda Şuranın iclasında qanunvericiliyin tələblərinin pozulmasına, vətəndaşların haqlı narazılığını doğuran nöqsanlara görə apellyasiya məhkəməsinin 3, birinci instansiya məhkəmələrinin isə 6 hakimi intizam məsuliyyətinə cəlb olunmuş, digər 2 hakim barədə intizam icraatı başlanılmışdır.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2022

Yığılmağa verilmiş: 01.12.2022.
Çapa imzalanmış: 26.12.2022.
Formatı 70x100 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 6,5 ç.v.
Sifariş № 323. Tiraj 100 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.